**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

**(2014)**

**Bakı – 2015**

Hesabatda işgəncələr əleyhinə Milli preventiv mexanizmin 2014-cü il ərzində müvafiq istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyət, həmçinin irəli sürülən təklif və tövsiyələr əks etdirilir.

Hesabata statistik məlumat, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu əlavə edilmişdir.

**İSBN: 978-9952-9554-8-5**

# MÜNDƏRİCAT

**Ön söz** .......... 4

Mətndə istifadə olunmuş anlayişlar və ixtisarlar .......... 5

**BÖLMƏ 1. FP və MPM-in mandatı** .......... 7

1.1. FP-nin tələbləri .......... 7
1.2. Milli qanunvericilik .......... 8
1.3. MPM-in fəaliyyət istiqamətləri .......... 10

**BÖLMƏ 2. MPM-in fəaliyyəti və preventiv başçəkmələr** .......... 12

2.1. Preventiv başçəkmələrin təşkili .......... 12
*2.1.1. Plan üzrə başçəkmələr* .......... 12
*2.1.2. Plandankənar başçəkmələr* .......... 13
2.2. Başçəkmələrin həyata keçirilməsi .......... 13
*2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri* .......... 15
*2.2.2. Ədliyyə Nazirliyinin müəssisələri* .......... 25
*2.2.3. Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanası* .......... 44
*2.2.4. Müdafiə Nazirliyinin müəssisələri* .......... 45
*2.2.5. Dövlət Miqrasiya Xidmətinin müəssisələri* .......... 46
*2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri* .......... 46
*2.2.7. Təhsil Nazirliyinin müəssisələri* .......... 48
*2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri* ... 52
*2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri* .......... 56
2.3. Dövlət orqanları ilə əməkdaşlıq .......... 57

**BÖLMƏ 3. Hüquqi təhlil** .......... 68

**BÖLMƏ 4. Hüquqi maarifləndirmə** .......... 71

**BÖLMƏ 5. İctimaiyyətlə əlaqələr** .......... 75

**BÖLMƏ 6. Beynəlxalq əməkdaşlıq** .......... 76

**BÖLMƏ 7. Təklif və tövsiyələr** .......... 80

Əlavə 1. Statistik göstəricilər .......... 84
Əlavə 2. İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın Fakültativ Protokolu .......... 87

# ÖN SÖZ

“İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını həyata keçirən təsisat qismində müəyyən edilməsi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilin üzərinə çox böyük məsuliyyət qoyulmuşdur. Ölkədə aparılan hüquqi islahatların, hüquqi dövlət quruculuğu prosesinin davamı olan, insan hüquqlarının daha yüksək səviyyədə təmin olunmasına xidmət edən bu qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

2014-cü ildə Müvəkkil MPM qismində fəaliyyətinin daha yüksək səviyyədə qurulmasını və inkişaf etdirilməsini təmin etmiş, təsisatımız digər ölkələrin müvafiq institutları arasında nümunəvi qurum kimi özünəməxsus yer tutmuşdur.

Müvəkkilin fəaliyyət dövrü ərzində digər dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi-informasiya vasitələri, eləcə də beynəlxalq təşkilatlar, xarici ölkələrin Müvəkkilləri ilə qurduğu qarşılıqlı əməkdaşlıq münasibətləri, MPM qismində fəaliyyətinin də uğurunu ilk günlərdən təmin etmiş, konstruktiv dialoqların, zəruri dəstəyin, faydalı təlimlərin və təcrübə mübadilələrinin təşkilini mümkün etmişdir.

Azərbaycan MPM-i fəaliyyət dövrü ərzində ölkədə işgəncələrin qarşısının alınması işinin qanunvericilik və təşkilati baxımdan daha da təkmilləşdirilməsinə verdiyi töhfələrə görə həm ölkə ictimaiyyəti, həm də aidiyyəti ixtisaslaşmış təşkilatlar qarşısında özünəməxsus nüfuz qazana bilmişdir.

Hazırkı hesabat Azərbaycan MPM-nin 2014-cü il ərzində həyata keçirdiyi fəaliyyəti əhatə etməklə görülmüş işlər, preventiv başçəkmələr zamanı aşkar olunmuş hallar, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in digər fəaliyyət istiqamətləri üzrə tədbirləri işıqlandırır, aparılan təhlillər nəticəsində irəli sürülən təklif və tövsiyələri ehtiva edir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Professor Elmira SÜLEYMANOVA**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Altkomitə** – Birləşmiş Millətlər Təşkilatının İşgəncələr Əleyhinə Komitəsinin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə alt komitəsi

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**Avropa Komitəsi** – İşgəncənin və digər qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – cəzaçəkmə müəssisəsi

**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİQ** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu

**İHOSM** – İnzibati həbs olunanların saxlanılma məntəqəsi

**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu

**İşgəncə** – işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İMM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin İxtisaslaşdırılmış müalicə müəssisəsi

**İT** – istintaq təcridxanası

**KİV** – kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”

**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu

**MM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Müalicə müəssisəsi

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**MTCM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin məntəqə tipli cəzaçəkmə müəssisəsi

**MTN** – Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PB** –polis bölməsi

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – rayon polis idarəsi

**RPŞ** – rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi

**ŞPİ** – şəhər polis idarəsi

**ŞPŞ** – şəhər polis şöbəsi

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

**TSEK** – Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi sosial ekspert komissiyası

**TSH** – Tibb-sanitar hissəsi

# BÖLMƏ 1.
# FP və MPM-in MANDATI

## 1.1. FP-nin tələbləri

FP[1]-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə[2] müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həmçinin onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır – Altkomitə və MPM-lər. Beynəlxalq səviyyədə yaradılmış Altkomitə BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin alt komitəsi olmaqla, BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;
- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

---

[1] BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir.

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

[3] FP, maddə 19

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması ilkin şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;
- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;
- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;
- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;
- Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

## 1.2. Milli qanunvericilik

FP Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6] Sözü gedən qanunun dərcindən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Həmin tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[7] ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Müvəkkilin öz fəaliyyətində işgəncələrlə mübarizə və qarşısının alınması, preventiv tədbirlərin təşkili, eləcə də maarifləndirmə işlərinin aparılması məsələlərinə xüsusi diqqət göstərməsi MPM-in fəaliyyəti üçün baza rolunda çıxış etməklə yanaşı, bu təsisatın müstəqil, qərəzsiz, “Paris prinsipləri”nə əsasən “A” statusuna malik milli insan hüquqları institutu olması faktı da həlledici amillərdən biri olmuşdur.

Yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyət dairəsinin genişləndirilməsini şərtləndirmişdir. Konstitusiya

[4] FP, maddə 18(1)

[5] FP, maddə 20

[6] “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD)

[7] “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112)

Qanununa edilən əlavə və dəyişikliklərlə[8] Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında MPQ yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkilin və MPQ-nin istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, CÇM-lərə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, həmçinin səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ adı çəkilən qanunda təsbit edilmişdir.[10]

Qeyd etmək lazımdır ki, ötən illərdə Müvəkkilin MPM qismində fəaliyyətinin yüksək səviyyədə təşkili üçün digər qanunvericilik aktları da təkmilləşdirilmişdir. Belə ki, Müvəkkil və MPQ-nin yuxarıda göstərilən səlahiyyətləri barədə qeydlər müvafiq qaydada əlaqədar normativ hüquqi aktlarda təsbit edilmişdir.[11]

---

[8] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD)

[9] Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1

[10] Konstitusiya Qanunu, maddə 12.2.1

[11] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148); Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N); Həbs yerlərində saxlanılan şəxslərin hüquq və

Həmçinin qeyd edilməlidir ki, məhkumların MPQ-yə ünvanlanmış təklif, ərizə və şikayətləri senzuradan keçirilmir və bir gündən gec olmayaraq aidiyyəti üzrə göndərilir. [12] Şəxsi hesabında vəsait olmayan məhkumların MPQ-yə ünvanlanmış müraciətləri CÇM-lərin vəsaiti hesabına göndərilir.[13]

## 1.3. MPM-in fəaliyyət istiqamətləri

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

Göstərilənlərlə yanaşı, həmçinin qeyd olunmalıdır ki, MPM-in fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə sıx əlaqələndirilmişdir. Belə ki, Aparata daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı yönəldici vasitə qismində istifadə olunmuşdur.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, əldə olunmuş uğurlar, irəli sürülən təklif və tövsiyələr onun xüsusi hesabatlarında əks

---

azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ); "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13)

[12] CİM, maddə 83.5; DİQ, bənd 28.6

[13] DİQ, bənd 28.11

etdirilir. Ötən illərin hesabatları Azərbaycan və İngilis dillərində nəşr etdirilmiş və paylanılmışdır. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 200-dək təklif və tövsiyə öz əksini tapmışdır.

# BÖLMƏ 2.
# MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Məlum olduğu kimi, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə mütəmadi başçəkmələrin həyata keçirilməsi milli preventiv mexanizmlərin fəaliyyətinin əsas istiqamətidir. Azərbaycan MPM-i də onun üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində prioritetləri müəyyən edərkən Fakültativ Protokolun məqsədlərini nəzərə alır.[14] Başçəkmələr tabeliyində azadlıqdan məhrum etmə yerləri olan orqanlara ünvanlanmış sorğular əsasında hazırlanmış siyahı üzrə müəssisələrdə aparılır. Zərurət yarandıqda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq həmin siyahılar ilin sonunda yenilənir.

2014-cü ildə MPQ başçəkmələrinə və hesabatların hazırlanmasına, bu sahədə təcrübəyə malik ekspert qismində "Hüquq Dünyası Hüquqi Təbliğat" ictimai birliyinin rəhbəri, uşaq hüquqları üzrə ekspert Nazir Quliyev və "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" ictimai birliyinin icraçı direktoru Elçin Salmanov da cəlb edilmişlər. Bütün MPQ başçəkmələrində Qrupun həkim-terapevti iştirak etmişdir.

MPQ-nin bütün preventiv başçəkmələri əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bu başçəkmələri *plan üzrə başçəkmələr* və *plandankənar başçəkmələr* olmaqla iki qrupa bölmək olar.

### *2.1.1. Plan üzrə başçəkmələr*

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən toplantıda müzakirə olunur, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərin-

[14] "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın Fakültativ Protokolu, maddə 1

dən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir. Başçəkmələr əsasən üç iş gününədək davam edir.

### *2.1.2. Plandankənar başçəkmələr*

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində gedən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə əlaqədar həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

***Başçəkməyə hazırlıq*** adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

*Zəruri məlumatların toplanılması* zamanı əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş şikayətlər, KİV-lərdən alınmış məlumatlar təhlil edilir, bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar, beynəlxalq standartlar təhlil edilir.

*Başçəkmənin məqsədləri* saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların yoxlanılmasından (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından, xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

*Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi* zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

***Başçəkmənin həyata keçirilməsi*** özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman müəssisədəki maddi şərait – kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə təkbətək, konfidensial şəkildə söhbət aparılır (saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması da mümkündür, bunu MPQ özü müəyyən edir).

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının məhbuslarla necə rəftar etmələrini qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda həbsxana personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəisi ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

***Başçəkmədən sonrakı tədbirlər*** mərhələsi Azərbaycan MPM-nin qənaətinə görə başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in məqsədi yalnız azadlıqdan məhrumetmə yerinə başçəkmədən ibarət deyil, başçəkmə azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanılma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesin başlanğıcıdır.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq nazirliklərə göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

2014-cü ildə MPQ tərəfindən plan üzrə 267, plandankənar isə 98 olmaqla, cəmi 365 başçəkmə həyata keçirilmişdir. Həmin başçəkmələrdən 219 DİN-in, 112 ƏN-in, 3 MTN-in, 4 MN-in, 2 DMX-nin, 4 SN-in, 10 ƏƏSMN-in, 8 TN-nin, 3 yerli icra hakimiyyəti orqanlarının tabe müəssisələrində aparılmışdır.[15]

Həyata keçirilən başçəkmələr zamanı müvəqqəti saxlama yerlərində 237, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində 1030, digər müəssisələr-

[15] Bax: Əlavə 1

də isə 250 saxlanılan şəxs qəbul edilmiş, həmçinin bu müəssisələrin 300-dək əməkdaşı ilə təkbətək, fərdi söhbətlər aparılmışdır.

Ötən illərdə olduğu kimi, 2014-cü il ərzində də aşkar olunmuş çatışmalıqların aradan qaldırılması, saxlanılma şəraitinin təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmiş, həmin orqanlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlərin nəticələri barədə Müvəkkilə məlumat verilmişdir.

### *2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri*

Daxili işlər orqanlarının müvəqqəti saxlama yerlərində mövcud saxlanılma şəraitinin müasir standartlara uyğun olaraq yaxşılaşdırılması, bu müəssisələrdə insan hüquqlarının daha etibarlı təmin edilməsi istiqamətində tədbirlər ötən il də davam etdirilmişdir.

Hər il olduğu kimi, infrastrukturun müasirləşdirilməsi, maddi-texniki bazanın yeniləndirilməsi, müvəqqəti saxlama yerlərində maddi şəraitin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, saxlanılan şəxslərə qarşı münasibətin daha da yaxşılaşdırılması, ötən il müəyyən edilmiş nöqsanların və onlara şərait yaradan halların aradan qaldırılması üçün müvafiq işlər görülmüş, MSY-lərin işinə nəzarət gücləndirilmişdir.

Saxlanılma şəraitinin yaxşılaşdırılması məqsədi ilə son 10 ildə 36 polis orqanında yeni müvəqqəti saxlama yerləri tikilib istifadəyə verilmişdir. Hazırda Binəqədi, Pirallahı, Mingəçevir, Yevlax, Yardımlı, Gədəbəy, Beyləqan, Goranboy, Naftalan şəhər, rayon polis orqanlarında yeni müvəqqəti saxlama yerlərinin inşası aparılmışdır.

2014-cü ildə MPQ tərəfindən DİN-in tabeliyində olan müəssisələrə planlı və plandankənar olmaqla 219 başçəkmə həyata keçirilmişdir. Bu zaman 237 şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanılma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları araşdırılmışdır.

Başçəkmələr zamanı polis orqanlarına gətirilən şəxslərin bu və ya digər şəkildə pis rəftara məruz qalabilmə ehtimalının olub-olmaması da qiymətləndirmə predmeti olmuşdur.

***Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin Araşdırma mərkəzində*** başçəkmə həyata keçirilmişdir. Məqsəd əvvəlki başçəkmələr zamanı saxlanılma şəraiti ilə bağlı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur. Adı çəkilən müəssisənin standartlara cavab verdiyi müəyyən edilmişdir. Eyni zamanda müəyyən edilmişdir ki, Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin Araşdırma Mərkəzi 2013-cü ilin aprel ayından fəaliyyət göstərsə də, burada saxlanılan şəxs olmamışdır.

***Nəqliyyatda Baş Polis İdarəsinin Biləcəri xətt polis şöbəsinin MSY-də*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd MSY-də saxlanılma şəraiti,

rəftar və müvafiq sənədləşmənin araşdırılması olmuşdur. Başçəkmə zamanı MSY-də saxlanılan şəxs olmasa da, MSY-nin maddi şəraitinin müasir standartlara uyğun olduğu müəyən edilmişdir. MPQ üzvləri tərəfindən sənədləşmə ilə əlaqədar aşkar edilmiş və yerində aradan qaldırılması mümkün olan bəzi nöqsanlarla bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

***İnzibati Həbs Olunanların Saxlanma Məntəqəsində*** keçirilmiş bir neçə başçəkmə zamanı saxlanılma şəraiti, saxlanılanlara qarşı rəftar və verilmiş tövsiyələrin icra vəziyyəti araşdırılmışdır. Müəssisədə əsaslı təmir işlərinin aparılması MPQ tərəfindən müsbət qiymətləndirilmişdir.

Başçəkmə zamanı müəssisədə saxlanılan şəxslərlə görüş keçirilmiş, onların saxlanılma şəraiti, o cümlədən qida təminatı, saxlanılanlara münasibətdə müəssisə əməkdaşlarının davranışı araşdırma predmeti olmuşdur. Qəbul edilmiş şəxslərə onların hüquqları və MPM-in məqsədləri izah edilmişdir. Saxlanılan şəxslər qeyd edilən hallarla bağlı hər hansı şikayətlərinin olmadığını, vəkilləri və ailə üzvləri ilə əlaqə saxladıqlarını, gündəlik mətbuatla təmin edildiklərini bildirmişlər.

Başçəkmə çərçivəsində MPQ üzvləri DİN-in məsul əməkdaşı və İHOSM-nin rəhbərliyi ilə birgə bu müəssisədəki saxlanılma şəraitinin, bununla əlaqədar müvafiq qanunvericiliyin daha da təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparmış, qarşılıqlı olaraq bir sıra təkliflər dinlənilmişdir.

Başçəkmənin nəticələri ilə əlaqədar Müvəkkil tərəfindən Daxili işlər nazirinə müraciət ünvanlanmış və həmin müraciətdə İHOSM-də saxlanılma şəraitinin və müvafiq qanunvericiliyin daha da təkmilləşdirilməsi istiqamətində bir neçə təklif irəli sürülmüşdür.

1. 2010-cu il 30 oktyabr tarixli 480 saylı əmr ilə təsdiq edilmiş Əsasnamənin təhlili zamanı inzibati qaydada həbs edilən şəxslərin saxlanılma qaydasının beynəlxalq standartlara cavab vermədiyini nəzərə alaraq yeni qanun qəbul edilənədək yeni Əsasnamənin hazırlanmasını və yaxud mövcud Əsasnamədə dəyişiliklər edilməsini, bu layihənin Müvəkkilə göndərilməsi;
2. MPQ-nin başçəkmələri zamanı müvəqqəti saxlanılma yerlərində olan inzibati həbs edilmiş şəxslərin saxlanması ilə bağlı yaranmış çətinliklərin və sıxlığın aradan qaldırılması məqsədi ilə regional inzibati həbs yerlərinin inşa edilməsi;
3. İnzibati Həbs Olunanların Saxlanma Məntəqəsində hazırda təmir işlərinin aparılmasını nəzərə alaraq kameralarda gecə işığının quraşdırılması;
4. Kəskin psixi vəziyyətdə olan şəxslərin ayrıca saxlanılması üçün xüsusi kameranın yaradılması.

Tövsiyələrimizlə bağlı verilmiş cavabda bildirilmişdir ki, İHOSM-nin əsaslı yenidənqurulmasına başlanılmış və kəskin psixi vəziyyətdə olan şəxslərin ayrıca saxlanılması üçün xüsusi kameranın yaradılması nəzərdə tutulmuşdur. Məntəqənin kameralarının işıqlandırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyul 2001-ci il tarixli 130 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi

Normaları"nın 6.30-cu bəndinə uyğun təşkil edilməklə bu sahədə qeyd olunan çatışmazlıqlar aradan qaldırılmışdır.

DİN Müvəkkili əmin etmişdir ki, gələcəkdə zərurət yaranacağı halda, respublikanın ayrı-ayrı bölgələrində də inzibati həbs olunanların saxlanılma məntəqəsinin inşa edilməsi məsələsinə baxılacaqdır.

Əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin öyrənilməsi məqsədi ilə həmin müəssisəyə təkrarən qısamüddətli başçəkmə həyata keçirilmiş, saxlanılan bütün şəxslər qəbul edilmiş, saxlanmanın qanuniliyini təsdiq edən sənədlər yoxlanılmış, rəftar və maddi şərait bir daha qiymətləndirilmişdir.

MPQ-nin üzvləri tərəfindən əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra olunduğu müəyyən edilmişdir. Belə ki, müəssisənin əsaslı təmir olunaraq müasir standartlara uyğunlaşdırıldığı, kameraların, sanitar-gigiyenik və duş otaqlarının sayının artırıldığı, bütün kameralarda televizorların quraşdırıldığı, kameraların havalandırma sisteminin tamamilə dəyişdirildiyi, saxlanılan şəxslərin yaxınları ilə görüşməsi üçün görüş yerlərinin istifadəyə verilməsi kimi hallar müsbət dəyərləndirilmişdir.

***Sumqayıt ŞPİ-nin MSY-də, həmin idarənin 1, 2 və 3-cü PB-lərində*** başçəkmələr həyata keçirilmişdir. Məqsəd saxlanılan şəxslərlə rəftar, saxlanılma şəraiti, əvvəlki başçəkmlər zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı adı çəkilən müəssisələrdə saxlanılan şəxslərin saxlanılma şəraiti öyrənilmiş, onların şəxsi işlərinə və saxlanılanların qeydiyyatı kitablarına baxış keçirilmişdir.

MSY standartlara cavab versə də, bir sıra digər nöqsanlar aşkarlanmışdır. Belə ki, kameralara baxış zamanı saxlanılan şəxslərə yastıq üzü və döşək ağının verilmədiyi, 5-ci kamerada isə siqaret çəkən şəxsin çəkməyən şəxslə bir yerdə saxlanıldığı müəyyən edilmişdir.

***Sumqayıt ŞPİ-nin 1-ci PB-də*** baxış zamanı iclas zalı üçün nəzərdə tutulmuş otaqda iki nəfər şəxsin polis serjantının nəzarəti altında saxlanıldığı müəyyən edilmişdir. Adı çəkilən şəxslərlə söhbət zamanı onlar aralarında olan dava-dalaş səbəbindən polis bölməsinə gətirildiklərini və artıq bir neçə saatdır orada saxalanıldıqlarını bildirmişlər.

Bölmənin əməliyyat müvəkkilinin otağında isə oğurluqda şübhəli bilinən şəxsin olduğu, onun səhər saatlarında bölməyə gətirildiyi məlum olmuşdur. Bölməyə gətirilən hər üç şəxslə bağlı "Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı"nda hər hansı qeyd aşkar edilməmiş, kitaba ümumi baxış zamanı 24 nəfər ilə bağlı qeydlərin natamam aparıldığı məlum olmuşdur.

***Sumqayıt ŞPİ-nin 3-cü PB-nin*** "Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı"nda da müvafiq qeydiyyatın natamam aparıldığı aşkar edilmişdir.

Göstərilənlərlə əlaqədar Müvəkkil tərəfindən Daxili İşlər Nazirliyinə müraciət edilmişdir.

DİN-dən daxil olmuş cavab məktubundan məlum olmuşdur ki, Respublikanın polis orqanlarının müvəqqəti saxlama yerləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq yataq ləvazimatları ilə (yastıq, döşək, adyal, döşəkağı, balışüzü) təchiz edilmiş, kameraya yerləşdirilən hər bir tutulmuş və ya həbs olunmuş şəxs bu ləvazimatlarla təmin edilirlər. Saxlanılan şəxslər üçün yeməklərin hazırlanması aidiyyəti polis orqanı ilə müvafiq ictimai iaşə müəssisələri arasında bağlanmış müqavilə əsasında həyata keçirilir və hər bir şəxsə gündəlik normalara uyğun olaraq isti yemək, çörək, çay və s. nəzərdə tutulmuş ərzaq məhsulları verilir. Bakı şəhəri ərazisində fəaliyyət göstərən polis idarələrinin müvəqqəti saxlama yerlərində saxlanılan şəxslər üçün yeməklər Bakı Şəhər Baş Polis İdarəsinin yeməkxanasında hazırlanır.

Bundan əlavə, müvəqqəti saxlama yerlərində yataq dəstlərinin yuyulması məqsədilə "Bəyaz Camaşır" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə müvafiq müqavilə bağlanılmış, saxlama yerlərinin təsərrüfat malları ilə təmin olunması üçün maliyyə vəsaiti ayrılmışdır.

Keçirilmiş başçəkmələr zamanı müəyyən olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması təmin olunmuş, müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının təmini sahəsində nöqsanlara yol verdiklərinə görə Sumqayıt Şəhər Polis İdarəsinin müvəqqəti saxlama yerinin rəisi, gətirilmiş şəxslərin qeydiyyatını Daxili İşlər Nazirliyinin müvafiq normativ hüquqi aktlarının tələblərinə uyğun aparmadıqlarına görə Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci və 3-cü polis bölməsinin məsul növbətçiləri, polis kapitanları M.Paşayev və P.Dünyamalıyev, polis mayoru N.Hacıyev intizam məsuliyyətinə cəlb olunmuşlar.

Qeyd olunmalıdır ki, MPQ tərəfindən Sumqayıt Şəhər Polis İdarəsinin Müvəqqəti saxlama yerinə, həmin idarənin 1-ci və 3-cü polis bölmələrinə təkrar başçəkmələr həyata keçirilərək, saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar, əvvəlki başçəkmlər zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti öyrənilmişdir.

MSY-də saxlanılan şəxslərlə söhbət zamanı onlardan hər hansı şikayət daxil olmamış, şəxsi işlərə və qeydiyyat kitablarına baxış keçirilmiş, pozuntu halları aşkar edilməmişdir.

1-ci və 3-cü polis bölmələrində başçəkmələr zamanı orada saxlanılan şəxs olmamışdır.

Bu müəssisələrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin bir çoxunun icra olunduğu, o cümlədən Sumqayıt RPİ-nin MSY-də və adı çəkilən polis bölmələrində saxlanılma şəraitinin və sənədləşmə işinin təkmilləşdirildiyi müəyyənləşdirilmişdir.

***Nizami RPİ-nin MSY-də, həmin idarənin 23, 24 və 25-ci PB-lərində*** həyata keçirilmiş başçəkmələr zamanı MPQ üzvləri adı çəkilən müəssisələrdə saxlanılma şəraitini öyrənmiş, saxlanılan şəxslərin şəxsi işlərinə və saxlanılanların qeydiyyatı kitablarına baxış keçirmişlər. MSY-də saxlanılan bəzi şəxslərin istintaq

təcridxanalarına vaxtında köçürülməməsi, eləcə də sənədləşmədə aşkarlanmış bir sıra nöqsanlarla əlaqədar Müvəkkil tərəfindən Daxili İşlər Nazirliyinə məktubla müraciət olunmuşdur. Belə ki, "MSY-də saxlanılan şəxslərin qeydiyyatı və uçotu kitabı"na baxış zamanı bir neçə şəxsin "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin tələbləri pozularaq vaxtında istintaq təcridxanasına köçürülmədiyi, MSY-də saxlanılan şəxslərə 2 gün ərzində menyu dəyişdirilmədən eyni yeməyin verildiyi, MSY-də yoxlama aparan şəxslərin qeydiyyatı kitabında rayon polis idarəsinin rəhbərliyi tərəfindən ümumiyyətlə hər hansı qeyd aparmadığı müəyyən edilmişdir.

Verilmiş cavab məktubunda bildirilmişdir ki, başçəkmələr zamanı MPQ tərəfindən müəyyən olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması təmin olunmuş, müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının təmini sahəsində nöqsanlara yol verdiklərinə görə Nizami Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinin rəisi intizam məsuliyyətinə cəlb olunmuşdur.

MPQ tərəfindən Nizami Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə təkrar başçəkmə həyata keçirilərək qeydiyyat jurnallarına baxış keçirilmiş, saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar, əvvəlki başçəkmlər zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti öyrənilmişdir.

Təkrar başçəkmə zamanı nöqsan aşkar edilməmiş, həmçinin bu müəssisəyə əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin tam icra olunduğu müəyyən edilmişdir.

***Sabunçu RPİ-nin MSY-də və həmin idarənin 12-ci, 14-cü, 15-ci PB-lərində*** həyata keçirilmiş başçəkmələr zamanı şərait və rəftarla bağlı şikayət daxil olmasa da, sənədləşmədə pozuntular aşkar edilmişdir. Belə ki, həm 12-ci, həm də 15-ci PB-də "Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı"na baxış zamanı bölməyə gətirilən bir sıra şəxslərin qarşısında gətirilmə, göndərilmə və ya azad etmə qrafalarında müvafiq məlumatların qeyd olunmadığı müəyyən edilmişdir. Nəticədə həmin şəxslərin azadlığının nə qədər məhdudlaşdırıldığı barədə məlumat əldə etmək mümkün olmamışdır. 12-ci bölmədə əlavə olaraq "Ombudsmanın qaynar xətti" haqqında elanın olmadığı müəyyən edilmişdir.

14-cü PB-də isə məsul növbətçi "Polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı"nı MPQ üzvlərinə təqdim etməmış, bunu bölmə rəisinin onun icazəsi olmadan kitabın heç kəsə verilməməsi barədə göstərişi ilə əlaqələndirmiş-dir.

Bununla bağlı Müvəkkil tərəfindən Daxili İşlər nazirinə müraciət edilmişdir.

Verilmiş cavab məktubundan məlum olmuşdur ki, MPQ üzvləri Sabunçu RPİ-nin 14-cü PB-də olarkən məsul növbətçi İ.Novruzov heç bir əsas olmadan "Polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabı"nı təqdim etməməklə qanunvericiliyin tələblərini pozmuş, bununla yanaşı, 12-ci PB-nin növbətçi hissəsinin qarşısında "Ombudsmanın qaynar xətti" haqqında elanın olmaması, 12, 14 və 15-ci polis bölmələrində isə "Polis orqanlarına gətirilmiş şəxslərin

qeydiyyatı kitabı”na baxış keçirilərkən həmin kitablarda bəzi qrafaların boş saxlanılması halları təsdiqini tapmışdır. Xidməti təhqiqat prosesində Sabunçu RPİ-nin ərazi polis orqanlarının növbətçi hissələrindəki "Polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı kitabı"na baxış keçirilərkən MPQ üzvləri tərəfindən aşkar olunmuş nöqsanların aradan qaldırılmış, 12-ci PB-nin növbətçi hissəsinin qarşısında isə “Ombudsmanın qaynar xətti” haqqında elanın vurulması təmin olunmuşdur.

Göstərilən nöqsanlara yol verdiyinə görə Sabunçu RPİ 14-cü PB-nin məsul növbətçisi, polis kapitanı İ.Novruzov intizam məsuliyyətinə cəlb olunmuş, analoji halların təkrarlanmaması üçün 12, 14 və 15-ci polis bölmələrinin rəislərinə ciddi xəbərdarlıq edilməklə paytaxtın ərazi polis orqanlarına müvafiq göstəriş göndərilmişdir.

***Binəqədi RPİ-nin MSY-də*** ötən il ərzində həyata keçirilmiş iki başçəkmə zamanı MSY-də saxlanılma şəraiti, rəftar və saxlanılmanı təsdiq edən sənədlər araşdırılmışdır. Saxlanılan şəxslərlə təkbətək aparılan söhbət zamanı saxlanma şəraiti və rəftarla bağlı şikayət daxil olmamış, həmçinin qeydiyyat jurnalına baxış keçirilmiş, nöqsan aşkar edilməmişdir.

Aparılmış araşdırma zamanı burada kameraların bəzilərinin artıq istismara yararsız olduğu, döşəmənin taxtalarının çürüdüyü və digər hallar müşahidə edilmişdir.

Bundan başqa, həmin idarənin ***6-cı PB-də*** başçəkmə zamanı saxlanılma şəraiti, rəftar və sənədləşmə araşdırılmışdır. Başçəkmə zamanı polis bölməsində saxlanılan şəxs olmamışdır. Qeydiyyat jurnallarına baxış keçirilmiş, nöqsan aşkar edilməmişdir.

***Nərimanov RPİ-nin*** və ***Nəsimi RPİ-nin MSY-lərində*** bir neçə başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı MSY-lərdə saxlanılma şəraiti araşdırılmış, qeydiyyat jurnalına baxış keçirilmiş, saxlanılan şəxslərlə fərdi qaydada aparılan söhbət zamanı həmin şəxslər saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişlər

***Qaradağ RPİ-nin 11-ci və 38-ci PB-də*** başçəkmə həyata keçirmiş, başçəkmə zamanı polis bölmələrində saxlanılan şəxs olmamış, nöqsan aşkar edilməmişdir.

Habelə 38-ci PB-nin müasir standartlara uyğun yeni binaya köçürüldüyü və burada ümumilikdə dörd nəfər üçün nəzərdə tutulmuş iki müvəqqəti saxlanma otağının inşa edildiyi müəyyən edilmişdir.

***Suraxanı RPİ-nin yeni istifadəyə verilmiş MSY-də, həmin RPİ-nin 32 və 33-cü PB-də*** başçəkmələr həyata keçirilmişdir. Digər müəssisələrdə olduğu kimi, məqsəd saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar məsələlərinin araşdırılması və PB-lərdə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Müasir standartlara uyğun inşa edilmiş müəssisənin yeni istifadəyə verildiyi nəzərə alınaraq, saxlanılma şəraitinin və saxlanılanlarla davranışın, saxlanılan

şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi baxımından mövcud standartların bu müəssisənin yeni əməkdaşları tərəfindən mənimsənilməsini təmin etmək məqsədi ilə MPQ üzvləri tərəfindən əməkdaşlara qısa hüquqi maarifləndirmə təlimi keçirilmişdir.

Müəssisə rəhbərliyinə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilmişdir.

***Xətai RPİ-nin MSY-nə, həmin idarənin 34, 35, 36 və 37-ci PB-rində*** saxlanılma şəraitinin, saxlanılan şəxslərlə rəftarın, müvafiq sənədləşmənin, əvvəlki başçəkmlər zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin araşdırılması məqsədi ilə başçəkmələr həyata keçirilmişdir.

Qrupun üzvləri başçəkmələr zamanı adı çəkilən müəssisələrdə saxlanılma şəraitini öyrənmiş, saxlanılan şəxslərin şəxsi işlərinə və saxlanılanların qeydiyyatı kitablarına baxış keçirmişlər. Qəbul olunmuş şəxslər saxlanılma şəraiti və müəssisə əməkdaşlarının onlara qarşı rəftarı ilə bağlı şikayət etməmişlər. Adıçəkilən MSY-nin standartlara cavab verdiyi müəyyən edilmiş və saxlanılma şəraiti ümumilikdə müsbət qiymətləndirilmişdir.

***Xəzər RPİ-nin MSY-də*** həyata keçirilmiş başçəkmə zamanı saxlanılma şəraiti, rəftar və saxlanılmanın qanuniliyini təsdiq edən sənədlər nəzərdən keçirilmiş, fərdi qaydada söhbətlər aparılmış inzibati həbs olunmuş şəxslər saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişlər.

MPQ üzvləri tərəfindən həmçinin qeydiyyat jurnalına baxış keçirilmiş, aşkar edilmiş kiçik nöqsanlarla bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

***Xəzər RPİ-nin 1-ci və 2-ci PB-rinə*** qısamüddətli başçəkmə zamanı orada saxlanılan şəxs olmamış, qeydiyyat jurnalında aşkar edilmiş kiçik nöqsanlarla bağlı növbətçi hissəyə müvafiq tövsiyələr verilmişdir.

***Şəki ŞPŞ-nin, Zaqatala və Balakən RPŞ-lərinin MSY-lərində*** başçəkmələr həyata keçirilmişdir. Başçəkmə zamanı xüsusi ilə Şəki RPŞ-nin MSY-sində pozuntular aşkar edilmişdir.

Belə ki, MSY-də mövcud kameraların 11-dən 6-nın təkadamlıq olduğu müəyyən edilmişdir. MSY rəisi və əməkdaşları ilə söhbət zamanı onlar, həmin təkadamlıq kameralarda əsasən inzibati qaydada həbs edilmiş şəxslərin saxlanıldığını, bununla bağlı müvafiq prosedur qaydaların mövcudluğundan məlumatsız olduqlarını bildirmişlər.

Beynəlxalq standartlara görə şəxsin əsas olmadan təkadamlıq kamerada saxlanması onun əlavə cəzalandırılması kimi qiymətləndirilə bilər.[16]

---

[16] BMT-nin Baş Məclisinin 14 dekabr 1990-cı il tarixli 15/111 saylı Qətnaməsi ilə bəyan edilmiş "Məhbuslarla davranışın əsas prinsipləri"nin 7-ci bəndində bildirilir ki, təksaxlamanın cəza növü kimi ləğv edilməsi və ya onun məhdudlaşdırılması üçün səyləri artırmaq və onları dəstəkləmək lazımdır. Bundan başqa, Avropa Şurası Nazirlər Komitəsinin 11 yanvar 2006-cı il tarixli iclasında qəbul edilmiş Avropa Penitensiar Qaydalarının 96-cı bəndinə əsasən, məhkəmədə işinə baxılmayan məhbuslara, əgər onlar digər belə kateqoriyalı məhbuslarla birlikdə saxlanmağa

Hər üç MSY-nin kameralarında şübhəli və ya təqsirləndirilən şəxslərin saxlama yerində hüquq və vəzifələri ilə bağlı lövhənin olmadığı, kameralarda gecə vaxtı işığın söndürülmədiyi, saxlanılan şəxslərin polis əməkdaşlarının iştirakı ilə həkim müayinəsindən keçirilməsi, MSY-də saxlanılanların qanuni maraq doğuran şəxslərlə telefonla danışmaq imkanının olmadığı, MSY-də saxlanılan şəxslərə gigiyenik vasitələrin (sabun, diş məcunu, diş fırçası, qadınlar üçün paket), mövsümə uyğun paltar verilmədiyi müəyyən edilmişdir.

Başçəkmənin nəticələri ilə bağlı DİN-ə müraciətdə MPQ çatışmazlıqlarla yanaşı problemlerin aradan qaldırılması istiqamətində tövsiyələr və bu sahədə beynəlxalq təcrübə öz əksini tapmışdır. Alınmış cavab məktubunda MSY-yə gətirilmiş şəxslər polis orqanının növbətçi hissəsində, yaxud MSY-nin rəisinin xidməti otağına quraşdırılmış telefon vasitəsilə bu barədə yaxın qohumlarına məlumat vermələrinə müvafiq şərait yaradılmış, hazırda qeyd olunan şəxslərin şəhərlərarası və mobil telefonla danışıqlar aparması üçün lazımi tədbirlər görüldüyü bildirilmişdir.

Bundan əlavə, tutulmuş və ya həbs edilmiş şəxslərin tibbi müayinəsinin, yaxud onlara tibbi yardımın göstərilməsinin həkim tərəfindən müvəqqəti saxlama yerinin "Tibb otağı"nda həyata keçirildiyi, həmin vaxt polis əməkdaşı təhlükəsizlik baxımından otağın yaxınlığında xidmət apardığı, lakin tibbi müayinənin keçirilməsinə hər hansı müdaxilə etmədiyi göstərilmişdir.

Balakən, Zaqatala, Şəki şəhər, rayon polis şöbələrinin MSY-lərinin kameralarında saxlanılan şəxslərin hüquq və vəzifələrinə dair məlumatların asılması təmin edilmiş, gətirilmiş sovqatların qəbul olunmasına müvafiq şərait yaradılmış, başçəkmə zamanı aşkar olunmuş digər nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüş, habelə respublikanın şəhər, rayon polis orqanlarının müvəqqəti saxlama yerlərinin daxili intizam qaydaları ilə müəyyən olunmuş maddi-məişət normalarına uyğun təchiz edilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilmişdir.

***Salyan və Biləsuvar RPŞ-lərinin MSY-lərində*** başçəkmələr zamanı *Salyan RPŞ-nin* növbətçi hissəyə bitişik müvəqqəti saxlanılanlar üçün nəzərdə tutulmuş otaqlarında ventilyasiyanın, oturacağın, birində isə elektrik işıqlandırmasının olmadığı müəyyən edilmişdir. Məsul növbətçiyə müvafiq tövsiyə və irad bildirilmişdir.

---

üstünlük vermirlərsə, yaxud məhkəmə belə saxlanma barədə xüsusi qərar qəbul etməyibsə, imkan daxilində biradamlıq kameralarda yerləşmək imkanı təklif olunmalıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli 63 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 2.32.-ci bəndində göstərilmişdir ki, tutulmuş və ya həbs edilmiş şəxslər aşağıdakı hallarda birnəfərlik kameralara yerləşdirilirlər: birnəfərlik kameralarda yerləşdirilməsi barədə tutulmuş və ya həbs edilmiş şəxslər yazılı ərizə ilə müraciət etdikdə; tutulmuş və ya həbs edilmiş şəxslərin həyat və sağlamlığı üçün yaranmış təhlükənin qarşısının alınması məqsədi ilə; ayrılıqda saxlanılma tələblərinin başqa cür yerinə yetirilməsi qeyri-mümkün olduqda.

Həmin polis şöbəsinin MSY-də başçəkmə davam etdirilmiş, saxlanılan şəxslərin hər biri təklikdə qəbul edilmişdir. Başçəkmə zamanı şübhəli və təqsirləndirilən şəxslərin saxlanılma rejiminin təmini, onların müşayiət edilməsi, müşayiət edilmə üçün əsaslar, şübhəli və təqsirləndirilən şəxslərin MSY-də saxlanılmasının əsasları və qaydaları, MSY-də saxlanılan şəxslərin hüquq və vəzifələri, saxlanılan şəxslərin hüquqlarının həyata keçirilməsi, vəkillə görüşün verilməsi qaydaları, gəzintiyə çıxarılma, saxlanılan şəxslər tərəfindən dini ayinlərin yerinə yetirilməsi, saxlanılan şəxslərin məişət, tibbi və sanitar-epidemioloji təminatı, MSY-dən azad olunmasının əsasları və qaydalarının həyata keçirilməsi yoxlanılmışdır. Saxlanılan şəxslərlə söhbət zamanı onların sualları cavablandırılmış, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq maddələri, İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə Konvensiya, Milli Preventiv Mexanizm barədə məlumatlar verilmişdir.

Saxlanılan şəxslər saxlanma şəraitindən, müəssisə rəhbərliyi və əməkdaşları tərəfindən onlara qarşı rəftardan şikayətlərinin olmadığını bildirmişlər.

Başçəkmə zamanı müəyyən olunmuşdur ki, MSY-də dindirmə otağı və kameralarda elektrik işıqlandırması zəifdir. Hər kamerada bir oturacağın olduğu, kameralarda günün nizam qaydalarının yazıldığı lövhənin olmadığı müəyyən edilmişdir. Aşkar olunan nöqsanlarla bağlı MSY rəisini əvəz edən şəxsə müvafiq tövsiyələr verilmişdir.

Başçəkmənin nəticələri ilə bağlı DİN-ə ünvanlanmış tövsiyələrə baxılaraq bildirilmişdir ki, Salyan RPŞ-nin MSY-nin kameralarına və növbətçi hissənin saxlanılıb gətirilmiş şəxslərlə araşdırma otaqlarına oturacaqların quraşdırılması, işıqlandırmanın gücləndirilməsi, müvafiq normalara uyğun olaraq yeni yataq ləvazimatları ilə təchiz edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, habelə kameralarda tutulmuş və ya həbs edilmiş şəxslərin "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hüquqlarını əks etdirən məlumatların asılması təmin olunmuşdur.

Bundan əlavə məlum olmuşdur ki, dövlət investisiya proqramı layihəsində Salyan RPŞ-nin yeni inzibati binasının və MSY-nin tikintisi nəzərdə tutulmuşdur.

*Biləsuvar RPŞ-nin MSY-də* aparılmış başçəkmə zamanı saxlanılan şəxslərin hər biri ilə təkbətək söhbət aparılmış, onların saxlanılmasının qanuniliyini təsdiqləyən sənədlər yoxlanılmış, hüquqları izah edilmiş, saxlanılma şəraitinin müvafiq normalara uyğunluğu, vəkillə təmin olunmaları, tutularkən hər hansı təzyiqə məruz qalıb-qalmamaları, tibbi yardımın göstərilməsi, saxlanma şəraiti ilə əlaqədar kameraların normal işıqlanma və ventilyasiyası, kamerada istirahət üçün avadanlıqlar, gigiyena tələblərinə riayət olunma, gündəlik isti yeməyin verilməsi yoxlanılmış və MSY əməkdaşlarına müvafiq tövsiyələr veril-mişdir.

Saxlanılan şəxslərlə söhbət zamanı MSY-də pis rəftara məruz qalma ilə bağlı məlumat daxil olmamışdır.

***Abşeron RPŞ-nin MSY-də*** keçirilmiş başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftar, saxlanılma şəraiti, əvvəlki başçəkmlər zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti öyrənilmiş, saxlanılanların şəxsi işlərinə və qeydiyyatı kitablarına baxış keçirilmişdir.

Qəbul olunmuş şəxslər müəssisə əməkdaşlarının onlara qarşı rəftarı və saxlanılma şəraiti ilə bağlı şikayət etməmişlər. Adı çəkilən MSY standartlara cavab verir.

Baxış keçirilmiş müəssisənin rəhbərliyinə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə əlaqədar tövsiyələr verilmişdir.

***Goranboy RPŞ-nin MSY-də*** başçəkmə zamanı saxlanılan şəxslərlə təklikdə söhbət zamanı onlar saxlanılma şəraitindən və polis əməkdaşlarının rəftarından narazı olmadıqlarını bildirmiş, lakin başçəkmə zamanı MSY-nin əsaslı təmirə ehtiyacı olduğu, kameralardakı sanitar qovşaqların arakəsmə ilə tam əhatə edilmədiyi və sanitar qovşağı təcrid edən qapının olmadığı müəyyən edilmişdir.

Bu nöqsanlarla əlaqədar Müvəkkil tərəfindən DİN-ə ünvanlanmış müraciətə cavab olaraq bildirilmişdir ki, cari ildə DİN-in Goranboy Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yeri üçün yeni binanın inşa edilməsi nəzərdə tutulmuş və hazırda obyektin tikintisinə başlanılaraq qısa müddət ərzində istismara verilməsinə dair aidiyyəti xidmətlərə göstərişlər verilmişdir.

***Göygöl və Qazax RPŞ-lərin MSY-lərində*** başçəkmələr zamanı saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti öyrənilmiş, MSY-lərin standartlara cavab verdiyi müəyyən edilmişdir. Başçəkmə zamanı Göygöl RPŞ-nin MSY-də saxlanılan şəxs olmamış, Qazax RPŞ-nin MSY-də saxlanılan şəxslər saxlanılma şəraiti və müəssisə əməkdaşlarının onlara qarşı rəftarı ilə bağlı şikayət etməmişlər. Onların şəxsi işlərinə və saxlanılanların qeydiyyatı kitablarına baxış keçirilmiş, nöqsan aşkar edilməmişdir. Həmin müəssisələrin rəhbərliyinə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə əlaqədar tövsiyələr verilmişdir.

***Astara, Lerik, Samux, Şamaxı, Qəbələ və Xaçmaz RPŞ-lərin MSY-lərində*** həyata keçirilmiş başçəkmələr zamanı aşkar edilmiş pozuntularla bağlı DİN-nə müraciət edilmiş və alınmış cavab məktubunda Samux MSY-nin sənədlərinin tam və dolğun tərtib olunmasını, buraxılış rejimini müvafiq təlimatın tələblərinə uyğun həyata keçirmədiklərinə görə Samux Rayon Polis Şöbəsinin məsul növbətçisi polis mayoru R.Abdullayev və müvəqqəti saxlama yerinin rəisi polis baş serjantı S.Məmmədov intizam məsuliyyətinə cəlb olunmuş, Azərbaycan Respublikası "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanununun müddəalarından və Daxili İşlər Nazirliyinin bununla bağlı normativ hüquqi aktlarının tələblərindən irəli gələn vəzifələrin respublikanın şəhər, rayon polis orqanlarının ictimai təhlükəsizlik xidmətinin, növbətçi hissənin və müvəqqəti saxlama yerinin əməkdaşları tərəfindən əməli fəaliyyətdə tətbiqi

işinin daha da yaxşılaşdırılması məqsədilə seminar-məşğələlərin keçirilməsinin təşkil edildiyi bildirlmişdir.

Bunlardan başqa, Avropa Komissiyasının dəstəyi ilə BMT-nin Uşaq Fondu (YUNİSEF) və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən imzalanmış birgə iş planına uyğun olaraq, DİN-in 20 rayon polis şöbəsi üzrə Müvəqqəti Saxlama Yerlərinə baxışlar keçirilmiş və orada saxlanılan uşaqlarla bağlı vəziyyət qiymətləndirilmişdir.

Astara, Xaçmaz, Şabran və Samux Rayon Polis Şöbələrinin MSY-lərinin məsul əməkdaşları ilə söhbət zamanı onlar tutulmuş və ya həbs edilmiş yetkinlik yaşına çatmayan şəxsləri digərləri ilə bir kamerada saxladıqlarını, bunu həmin şəxslərin təhlükəsizliyi üçün etdiklərini bildirmişlər.

Bir sıra MSY-lərdə saxlanılan şəxslərin polis əməkdaşlarının iştirakı ilə həkim müayinəsindən keçməsi müəyyən edilmişdir. MSY rəisləri və əməkdaşları bunu həkimin təhlükəsizliyi ilə əlaqələndirmişlər.[17]

Əvvəlki illərlə müqayisədə nəticə etibarı ilə, MSY-lərin çoxunda saxlanma şəraitinin müasir standartlara uyğunlaşdırıldığı, yeni saxlanma yerlərinin inşa edildiyi, ilkin tutulma zamanı kobud rəftara məruz qalma ilə bağlı daxil olan iddiaların azaldığı, bu sahəni tənzimləyən normativ sənədlərin insan hüquqları baxımından təkmilləşdirildiyi, saxlanma yerlərinə nəzarətin və diqqətin artırıldığı, habelə digər müsbət nəticələrin əldə edildiyi müəyyən olunmuşdur.

Aşkar olunmuş pozuntuların araşdırılması ilə bağlı MPM rəhbərinin DİN-nə müraciətləri diqqətsiz qalmamış, bu pozuntular aradan qaldırılmış, göstərilmiş hal təsdiqini tapdığı təqdirdə təqsirkar şəxslər qanunvericilik çərçivəsində cəzalandırılmış və bu barədə digər polis orqanları məlumatlandırılmışdır ki, bu da səmərəli əməkdaşlığın nəticəsidir.

### *2.2.2. Ədliyyə Nazirliyinin müəssisələri*

Penitensiar müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində MPM-in fəaliyyəti davam etdirilmişdir. Cari ildə Ədliyyə Nazirliyinin tabeliyində olan müəssisələrə planlı və plandankənar olmaqla 112 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı 1030 şəxslə fərdi söhbətlər aparılmış, onların şərəf və ləyaqətinin müdafiəsi, işgəncəyə məruz qalmamaq hüququnun təmin edilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Həbs yerlərində saxlanılan şəxslərin sosial

---

[17] *Müvəkkil hesab edir ki, bu müayinələr həkim sirrinin qorunması və saxlanılan şəxsin şəxsi məlumatlarının yayılmaması baxımından şahidsiz aparılmalıdır. İşgəncə və qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin standartlarının 12-ci ümumi məruzəsinin 42-ci bəndinə görə - Polis məntəqəsində saxlanılan şəxsin tibbi müayinələri qanuna nəzarət edən rəsmi şəxslərin eşidə bilmədiyi və ya xüsusi hallarda rəsmi şəxslərin gözündən uzaq yerdə aparılmalıdır.*

təminat, sağlamlığın qorunması, müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının qorunması da araşdırma predmeti olmuşdur.

Başçəkmələr zamanı gəlinmiş nəticə onu deməyə əsas verir ki, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının müasir standartlara uyğunlaşdırılması istiqamətində yenidən qurulması, saxlanılma şəraitinin yaxşılaşdırılması, bu müəssisələrdə insan hüquqlarının etibarlı təmin edilməsi və məhkumların islah olunmasına istiqamətlənmiş tədbirlər ötən il də davam etdirilmişdir.

Həyata keçirilmiş tədbirlər və tətbiq edilmiş yeniliklər nəticəsində qanun pozuntularının və onlara şərait yaradan səbəblərin aradan qaldırılması, intizamın gücləndirilməsi üzrə ardıcıl işlər görülmüş, həbsdə saxlama yerlərinin və penitensiar müəssisələrin işinə nəzarət gücləndirilmişdir.

Həyata keçirilən islahatlar çərçivəsində 2014-cü ildə penitensiar sistemin təkmilləşdirilməsi, məhkumların və saxlanılan şəxslərin hüquqlarının qorunması və saxlanılma şəraitinin beynəlxalq standartlara uyğun yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülmüş, penitensiar infrastrukturun müasirləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Müvəkkil qış aylarında havanın çox soyuq olması, həmçinin yay aylarında havanın çox isti keçməsi ilə əlaqədar məhkumların saxlanılması şəraitində yarana biləcək çətinliklərlə bağlı CÇM-lərin yataqxanalarının havalandırılması, məhkumların içməli su ilə təmin edilməsi vəziyyətinin ciddi diqqətdə saxlanılması tövsiyəsi ilə Penitensiar Xidmətə müraciət etmişdir. Tövsiyələr nəzərə alınaraq CÇM-lərdə yataqxanaların, habelə cərimə təcridxanalarında kameraların yay və qış aylarında havalandırılmasının yaxşılaşdırılması və məhkumların fasiləsiz olaraq içməli su ilə təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülmüş, müəssisələrdə içməli suyun verilməsində qəza halları ilə bağlı yaranan qısa müddətli fasilələr aidiyyəti xidmət sahələri tərəfindən operativ olaraq aradan qaldırılmışdır.

Kobud rəftar və zorakılığa məruz qalma ilə bağlı daxil olmuş məlumatlarla əlaqədar dərhal aidiyyəti üzrə Baş Prokurorluğa müraciət edilmiş, zərurət olduğu halda məhkəmə tibbi ekspertizası keçirilmişdir. Qeyd edilməlidir ki, 2014-cü ildə Cinayət Məcəlləsinin 293-cü (İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza) maddəsi ilə hər hansı cinayət işi başlanılmamışdır.

***Şəki Penitensiar Kompleksində*** Müvəkkil tərəfindən başçəkmə həyata keçirilmişdir.

900 nəfərin (751 nəfər məhkum edilmiş, 149 nəfər istintaq altında olan şəxsin) saxlanması üçün nəzərdə tutulmuş Şəki Penitensiar Kompleksi 4-ü üçmərtəbəli, 1-i ikimərtəbəli, 1-i birmərtəbəli olmaqla 6 binadan ibarətdir. Kompleksdə 1,5 ton yanacaq həcmli ümumi generator, həmçinin hər bir bina üçün ayrıca generatorlar mövcuddur. Müəssisədə uzunmüddətli görüş üçün 19 kamera, o cümlədən binaların hər birində isə 2 ibadət otağı vardır.

Kompleksdə 200 nəfər əməkdaşın işlədiyi, 100 nəfər istintaq altında olan, 413 nəfər (166 ciddi rejimdə, 185 nəfər ümumi ağır rejimdə, 62 nəfər təsərrüfat briqadalarında) isə məhkumun olduğu, Sanitar Epidemioloji Stansiya ilə bağlanmış müqaviləyə əsasən müəssisə sanitar vəziyyətin ayda iki dəfə yoxlanıldığı məlum olmuşdur.

Başçəkmə zamanı Müvəkkil tərəfindən istintaq təcridxanasının kameralarına, cərimə təcridxanasına, tibbi sanitar hissəyə, məişət binasına, kitabxanaya, mətbəxə, camaşırxanaya baxış keçirildi.

Tibb-sanitar hissəyə baxış zamanı Müvəkkil xəstəliyi olan şəxslərə tibbi xidmətin hansı qaydada göstərilməsi səviyyəsi ilə maraqlanmışdır. Tibb-sanitar hissədə qadınlar üçün 8, kişilər üçün 26 nəfərlik çarpayı yerinin olduğu, dərman preparatları ilə təminatın yüksək səviyyədə olduğu müəyyən edilmişdir. Bundan başqa mətbəxə, kitabxanaya, camaşırxanaya, baxış keçirilmiş, cərimə təcridxanasında saxlanılan, Ə.N. qəbul edilərək onunla söhbət edilmişdir.

Başçəkmə zamanı müəssisədə saxlanılan bir neçə təqsirləndirilən şəxs və məhkum qəbul edilmiş, söhbət zamanı onlar saxlanma şəraitlərindən razı olduqlarını, onlara qarşı hər hansı pis rəftara yol verilmədiyini bildirmişlər. Müvəkkil həmin şəxslərə MPM qismində Müvəkkilin vəzifə və səlahiyyətləri barədə ətraflı məlumat vermişdir.

Müvəkkil Şəki Penitensiar Kompleksinin rəhbərliyinə saxlanılma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələrini vermişdir.

***Həbsxanada*** cari il ərzində MPQ tərəfindən bir neçə başçəkmə həyata keçirilmişdir. İlkin başçəkmə zamanı cərimə təcridxanasına, karantin otağına və tibb-sanitar hissəsinə baxış keçirilmiş, orada saxlanılan şəxslər qəbul edilmiş, onlarla konfidensial qaydada söhbət aparılmışdır. Saxlanılma şəraiti və müəssisə əməkdaşlarının davranışı ilə bağlı hər hansı narazılıq müəyyən edilməmişdir. Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyi və tibb-sanitar hissənin baş həkiminə saxlanılma şəraiti, rəftar, göstərilən tibbi yardımın operativliyinə dair tövsiyələr verilmişdir.

Həbsxanada həyata keçirilmiş növbəti başçəkmə zamanı bir neçə məhkum qəbul edilmiş, müəssisə rəhbərliyi ilə yekun görüş zamanı saxlanma şəraiti və rəftarla bağlı bəzi tövsiyələr verilmişdir.

Daha sonrakı dövrdə MPQ üzvləri Həbsxanada uzunmüddətli başçəkmə həyata keçirmişlər. Başçəkmədə məqsəd Müvəkkilin ünvanına daxil olmuş məlumatların araşdırılması, saxlanılma şəraiti və məhkumlarla rəftar vəziyyətinin öyrənilməsi olmuşdur.

Müəssisənin bütün obyektlərinə baxış keçirilmiş, 90-dək məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

*Saxlanma şəraiti.* Rejim korpuslarının köhnə olması səbəbindən müəssisənin beynəlxalq standartlara tam cavab vermir. Bütün kameraların döşəmələrinin betondan, rejim korpuslarının üstünün isə qırdan olması müəssisədə saxlanılan məhkumların səhhətinə mənfi təsir edir. Həbsxananın II və III rejim korpusunun

1, 2 və 3-cü (əvvəllər cərimə təcridxanası olub) kameralarında saxlanılma şəraiti standartlara tam uyğun deyil, belə şəraitdə saxlama məhkuma qarşı əlavə cəza kimi də qiymətləndirilə bilər.

*Müraciətlərlə bağlı araşdırmalar.* Bəzi KİV-də Həbsxanaya yeni rəisin təyin edilməsindən sonra məhkumlara işgəncə verilməsi, sıxlıq olması və buna etiraz olaraq orada kütləvi aclıq aksiyası keçirmələri ilə bağlı məlumatlar öz əksini tapmışdır.

Ömürlük həbs cəzasına məhkum edilmiş şəxslərlə söhbət zamanı onlar, yeni rəis tərəfindən hər hansı təzyiqlərə məruz qalmadıqlarını və heç bir aksiyada iştirak etmədiklərini bildirmiş, əvvəllər yaranmış bəzi problemlərinin həlli istiqamətində rəhbərliklə razılaşdıqlarını söyləmişlər. Həbsxananın kameralarında aparılmış araşdırmalar nəticəsində heç bir kamerada çarpayıların sayından artıq məhkumun saxlanması aşkarlanmamışdır.

Məhkumun həbsxanada müəssisə rəisinin göstərişi ilə döyülməsi ilə bağlı müraciətləri araşdırılarkən məlum olmuşdur ki, onlar saxlanıldıqları kamerada "Cəzaçəkmə müəssisələrinin daxili intizam qaydaları"nı pozmaları ilə bağlı olunan xəbərdarlığa məhəl qoymamış, əməkdaşlara qarşı kobudluq etmiş və özlərinə xəsarət yetirməyə cəhd etmişlər. Məhkumların qanunsuz hərəkətlərinin qarşısının alınması məqsədi ilə onlara xüsusi vasitə olan əl qandalı və rezin dəyənək tətbiq edilərək müvafiq qaydada sənədləşdirilmişdir.

Başçəkmənin sonunda müəssisənin rəisi ilə söhbət zamanı o, "Cəzaçəkmə müəssisələrinin daxili intizam qaydaları"nın tələblərinin icrasının təmini məqsədi ilə məhkumlardan xeyli sayda qadağan olunmuş əşyalar götürüldüyünü, bunun da bəzi məhkumların narahatlığına səbəb olduğunu və onların digər məhkumlar vasitəsi ilə həbsxanada kütləvi itaətsizliyə cəhd etdiyini, lakin bu cəhdlərinin qanunvericiliyə uyğun olaraq qarşısının alındığı, bir neçə məhkuma qarşı cinayət işinin açılması məqsədi ilə müvafiq orqan qarşısında vəsatət qaldırıldığını bildirmişdir.

Cəza çəkən məhkumların standartlara uyğun saxlanılmasının təmini məqsədi ilə yeni inşa edilən həbsxana binasında tikinti işlərinin sürətləndirilməsini, məhkumların psixoloji durumunun yaxşılaşdırılması məqsədi ilə onlarla psixoloqun mütəmadi iş aparılmasına ehtiyac olduğu diqqətə çatdırılaraq, göstərilən məsələlərin araşdırılmasını ilə bağlı ƏN-nə müraciət edilmişdir.

Cavab məktubundan məlum olmuşdur ki, qeyd edilən kameralarda saxlanılma şəraitinin yaxşılaşdırılması, yəni örtüyü olmayan döşəmələrə taxta vurulması, binaların dam örtüyünün dəyişdirilməsi ilə bağlı təmir işlərinin 2015-ci ildə həyata keçirilməsi planlaşdırılmışdır. Eyni zamanda, hazırda Qaradağ rayonunun Umbakı qəsəbəsində beynəlxalq standartlara cavab verən yeni Həbsxana kompleksinin tikintisi davam etdirilir.

Məhkumlara xüsusi vasitələr, o cümlədən rezin dəyənək müvafiq normativ aktların tələblərinə uyğun tətbiq olunmaqla, müvafiq sənədləşdirmə aparılması təmin edilir. Xüsusi vasitələrin tətbiqi ilə bağlı müəssisənin tibb-sanitariya

hissəsinin əməkdaşlarının dərhal məlumatlandırılması ilə əlaqədar müəssisənin rəhbərliyinə ƏN tərəfindən tapşırıqlar verilmişdir.

Həbsxananın psixoloqu tərəfindən məhkumların, o cümlədən yeni qəbul edilmiş şəxslərin mütəmadi qəbulu keçirilir. 2014-cü ildə 293 məhkuma psixoloji yardım göstərilmiş, 12 məhkum riskqrupuna daxil edilərək nəzarətə götürülmüşdür. Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin psixoloqlar qrupu tərəfindən məhkumlara baş çəkilməklə zəruri yardım göstərilir.

Həbsxanaya cari ilin iyul ayında təyin olunmuş rəis tərəfindən rejim qaydalarına əməl edilməsinin təmini, qadağan olunmuş və saxlanılmasına icazə verilməyən əşyaların aşkar edilərək götürülməsi istiqamətində görülən tədbirlər bir qrup məhkumun narazılığına, o cümlədən müdiriyyətə qarşı qanunsuz tələblərin irəli sürülməsinə, müxtəlif etiraz formalarından istifadəyə səbəb olmuşdur. Belə qanunsuz tələblərin və itaətsizlik hallarının qarşısının alınması məqsədi ilə qanunvericiliyə uyğun adekvat tədbirlər həyata keçirildiyi bildirilmişdir.

***Bakı İstintaq Təcridxanasında*** cari ilə ərzində bir neçə dəfə planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd müəssisədə, o cümlədən tibb-sanitar hissəsində saxlanılma şəraitinin, saxlanılan şəxslərlə rəftar və onların müayinə və müalicəsi ilə bağlı mövcud vəziyyətin öyrənilməsi, həmçinin təqsirləndirilən şəxslərin qəbul edilməsi olmuşdur.

Araşdırma zamanı 70 çarpayılıq tibb-sanitar hissədə 4 terapevt, 1 psixiatr-narkoloq, 1 stomatoloq, 1 ftiziatr, 1 rentgenoloq, 1 provizor olmaqla 9 həkim və 9 orta tibb işçisinin çalışdığı, gecə növbəsində 4 feldşerin işlədiyi məlum olmuşdur.

Müəssisənin dərman təchizatının normal olduğu müəyyən edilmişdir. Araşdırma zamanı MPQ üzvləri tibb-sanitar hissəsinin palatalarına, cərrahi, stomatoloji, rentgen, dərmanların saxlandığı və digər otaqlara, laboratoriyaya, eyni zamanda 20-dən çox qeydiyyat jurnallarına baxış keçirmiş, 40-dan çox saxlanılan şəxslə müalicə olunduqları palatalarda görüşmüş, onların sağlamlıq durumları, onlara göstərilən tibbi xidmətlə maraqlanmış və tibbi kitabçaları ilə tanış olmuşlar.

Saxlanılan şəxslərlə söhbət zamanı tibb-sanitar hissəsində saxlanılma şəraiti, müalicə məsələləri və rəftarla bağlı şikayət daxil olmamış, aşkar edilmiş kiçik nöqsanlar MPQ üzvlərinin tövsiyəsi ilə müəssisə rəhbərliyi tərəfindən yerində aradan qaldırılmışdır.

MPQ üzvləri BİT-də saxlanılan digər təqsirləndirilən şəxslərlə də fərdi qaydada görüşərək konfidensial söhbət aparmışlar.

Həmin şəxslərə Müvəkkilin, eyni zamanda MPM-in səlahiyyətləri izah edilmiş və hüquqi məsləhətlər verilmişdir.

Qəbul edilmiş şəxslər Bakı İstintaq Təcridxanasındakı saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

Bakı İstintaq Təcridxanasında həyata keçirilmiş növbəti başçəkmədə məqsəd mətbuatda gedən A.R.-nin həmin müəssisədə ölməsi və bunun işgəncə nəticəsində baş verməsi ehtimalı barədə məlumatların yoxlanılması olmuşdur.

Araşdırma zamanı istintaq təcridxanasının rəisi, saxlanıldığı korpusun nəzarətçiləri, tibb-sanitar hissəsinin rəisi və onunla bir kamerada saxlanılan təqsirləndirilən şəxslərlə söhbət aparılmış, sənədləri nəzərdən keçirilmişdir.

Məlum olmuşdur ki, A.R. BİT-ə gətirildiyi gün təlimata uyğun olaraq ilkin tibbi müayinədən keçirilmişdir. Müəssisə həkimləri tərəfindən onun bədəninə keçirilmiş baxış zamanı xəsarət aşkar edilməmişdir.

Eyni zamanda, məlum olmuşdur ki, ölüm hadisənin baş verdiyi gün saxlanılan A.R.-nin səhhəti saxlanıldığı kamerada qəflətən pisləşmiş və xidmətdə olan nəzarətçi tərəfindən həkimə müraciət olunmuşdur. Həkim dərhal A.R.-ni kamerasında müayinə etmiş, bu zaman xəstənin huşu özündə olmamış, tənəffüsü səthi və uzun fasiləli olmuş, arterial qan təzyiqinin kəskin enməsi, nəbzinin sapvarı olması müşahidə edildiyindən ona ilkin tibbi yardım göstərilmiş, o dərhal tibb-sanitar hissəsinə gətirilmişdir. Tibb-sanitar hissəsindən alınmış arayışa görə, A.R. "dərin aqoniya" vəziyyətində olmuş, göstərilən tibbi yardıma baxmayaraq, o, qısa müddətdən sonra, həmin gün saat 16:50 radələrində ölmüşdür.

Onunla bir kamerada saxlanılan şəxslərlə söhbət zamanı onlar A.R.-nin səhhətində problemlərin olduğunu, bir neçə dəfə həkim müayinəsindən keçdiyini və ambulator müalicə aldığını bildirmişlər. Ölümün baş verdiyi gün həmin kamerada bir yerdə olduqlarını, A.R.-nin səhhətinin pisləşdiyi üçün dərhal nəzarətçiyə məlumat verdiklərini, qısa müddətdə həkimin gəldiyini və ona yardım göstərdiyini söyləmişlər.

Bu şəxslərin hər biri ilə söhbət zamanı, onlar istintaq təcridxanasının əməkdaşları tərəfindən A.R.-yə və onlara qarşı hər hansı zorakılığa yol verilmədiyini, həmin gün A.R.-nin kameradan çıxarılmadığını bildirmişlər.

Bununla yanaşı, məsələ ilə bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparıldığı məlum olmuşdur.

Bakı İstintaq Təcridxanasında həyata keçirilmiş növbəti başçəkmədə məqsəd Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin Bakı ofisinin nümayəndələri tərəfindən Ombudsman Aparatına ünvanlanmış müraciətdə adları çəkilən saxlanılan şəxslərin qəbul edilməsi olmuşdur.

Görüş zamanı həmin şəxslərin təcridxanada saxlanılma şəraiti, səhhəti və onlara qarşı rəftarla bağlı mövcud vəziyyət öyrənilmişdir.

Müəssisədə 30-dan çox saxlanılan şəxs qəbul edilmiş, onlarla fərdi qaydada aparılan söhbət zamanı saxlanılma şəraiti və müəssisə əməkdaşlarının onlara qarşı rəftarı ilə bağlı şikayət daxil olmamışdır. Həmin şəxslərə müraciətləri ilə bağlı müvafiq hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri izah edilmiş, bir neçə saxlanılan şəxsə isə onların şikayətləri ilə əlaqədar araşdırma aparılması üçün müvafiq orqanlara müraciət edilmişdir.

Saxlanılma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

***2 saylı İstintaq Təcridxanasına*** bir neçə başçəkmə həyata keçirilmişdir. Araşdırmanın ümumi nəticələrinə əsasən, təcridxananın binasının köhnə olması

səbəbindən təcridxanada mütəmadi olaraq cari təmir işlərinin aparılmasına baxmayaraq, nəmişliyin və divarların aşınmasının qarşısını almaq mümkün olmur.

Həmin təcridxanada istintaq altında olan yetkinlik yaşına çatmayanların saxlanma şəraiti xüsusi olaraq araşdırılmış və onların kameralarının vəziyyəti qiymətləndirilərkən digər kameralarla müqaisədə şəraitinin nisbətən normal olduğu müəyyən edilmişdir.

2015-ci ilin sonunadək Gəncə şəhərində tikilməkdə olan və müasir standartlara cavab verən yeni penitensiar müəssisənin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Əlavə olaraq qeyd olunan məsələ ilə bağlı Müvəkkil tərəfindən ƏN-ə müraciət ünvanlanaraq, Gəncə şəhərində tikilməkdə olan penitensiar müəssisənin tikinti işlərinin və istifadəyə verilməsinin sürətləndirilməsi istiqamətində tətbirlər görülməsi xahiş edilmişdir.

***3 saylı İstintaq Təcridxanasında*** Tibbi-sanitar hissədə sənədləşmə və müalicə məsələləri ilə bağlı mövcud vəziyyətin öyrənilməsi, həmçinin saxlanılan şəxslərin qəbul edilməsi məqsədi ilə bir neçə başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı MPQ üzvləri tərəfindən müəssisənin tibb-sanitar hissəsinə baxış keçirilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir. Aparılan araşdırmalar zamanı müəssisədə yeni tibb-sanitar hissəsinin inşa edildiyi məlum olsa da, bəzi çatışmazlıqlar da müəyyən edilmişdir:

Belə ki, tikilməkdə olan tibb-sanitar hissəsində çarpayıların nəzərdə tutulmaması, yoluxucu xəstəlikləri olan və buna şübhəlilər üçün təcridetmə otağının olmaması (vərəmli məhkumlar üçün nəzərdə tutulmuş otaq istisna olmaqla), müvafiq ştat vahidinin olmasına baxmayaraq ixtisaslı feldşerin və saat 18:00-dan səhər saat 9:00-a qədər olan vaxt ərzində tibb hissəsində ümumiyyitlə tibb işçisinin olmaması müəssisədə çətinliklər yaradır.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə saxlanılma şəraiti və rəftarla bağlı tövsiyələr verilmiş və ƏN-yinə müraciət olunmuşdur.

ƏN-nin Tibb baş idarəsindən daxil olmuş məktubda həqiqətən də təcridxananın Tibb-sanitar hissəsinin yerləşməsində və fəaliyyətində hal-hazırda müəyyən çətinliklər mövcud olduğu bildirilmişdir. Eyni zamanda vurğulanmışdır ki, TSH üçün ayrılmış pərakəndə otaqların bir yerdə cəmləşdirilməsi və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə Penitensiar xidmətlə razılaşdırılaraq 2013-cü ilin sonlarında TSH-lərin tam rekonstruksiyasına və əsaslı təmir işlərinə başlanılmış, hazırda həmin işlər intensiv olaraq davam etdirilir. Yeni yaradılan TSH-də 8 diaqnostik kabinet və iş otaqları ilə yanaşı müxtəlif korpuslarda cəmi 20 çarpayılıq 4 palatanın yaradılması da nəzərdə tutulur. Bu palatalar həm stasionar müalicə, həm də tələb olunan hallarda yoluxucu xəstəliklərin izolvatoru kimi istifadə ediləcəkdir.

Məktubda qaldırılmış digər məsələ ilə əlaqədar bildirilmişdir ki, PX-nin müəssisələrində, o cümlədən 3 saylı İT-nin TSH-nin ştat cədvəlində gecə növbəsi

üçün ştat vahidləri nəzərdə tutulmamışdır. Axşam və gecə saatlarında digər cəzaçəkmə müəssisələrində olduğu kimi 3 saylı İT-də də məhkum və həbs edilmiş şəxslərin səhhətləri ilə bağlı tibbi yardıma ehtiyacları olduğu halda ərazi üzrə Təcili tibbi yardım stansiyalarının xidmətlərindən istifadə edilir. Belə hallara il ərzində çox təsadüf edilmir. Belə ki, 2014-cü il ərzində 3 saylı İT-yə cəmi 2 Təcili tibbi yardım briqadası daxil olmuş, heç bir halda xəstənin Müalicə müəssisəsinə köçürülməsi zərurəti yaranmamısdır.

Həmin istintaq təcridxanasına növbəti başçəkmə zamanı müəssisədə artıq tibb-sanitar hissəsinin istifadəyə verildiyi, burada iki rentgen otağının, laboratoriyanın, stomatoloji kabinetin müasir avadanlıqla təchiz olunduğu, həmçinin aptekin istifadəyə verildiyi müəyyən olunmuşdur.

Eyni zamanda istintaq təcridxanasının şəxsi görüş otağının tam avadanlıqla təchiz edildiyi müəyyən olunmuş, oradakı şəxslərlə söhbət zamanı təqsirləndirilən şəxslər və onların yanına gələn yaxınları bu halı müsbət qiymətləndirmişlər.

Təcridxanaya təkrar başçəkmə zamanı da rəftar və saxlanma şəraiti ilə bağlı şikayət daxil olmamış, əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin bir çoxunun icra edildiyi müəyyən edilmişdir. Lakin bəzi çatışmazlıqlar müəyyən edilmişdir: məhkəmələrin işlərə gec baxması, hökm və qərarların gec göndərilməsi səbəbindən müəssisədə bəzən yaranan sıxlıq; kameralarda saxlanılan şəxslərin sayı ilə kameranın sahəsinin uyğun olmaması; müəssisəyə içməli suyun maşınla gətirilməsi; mərkəzi isitmə sisteminin olmaması (kameralar elektrik piltələri ilə isidilir); müəssisənin tibb-sanitar hissəsində məhkumların stasionar müalicəsi üçün palataların olmaması; stomatoloji kabinetdə avadanlıqların qeyri-işlək vəziyyətdə olması; rentgenoloji kabinetdə ventilyasiyanın (1 pəncərəsi var) və soyuducu sistemin (kondisionerin) olmaması.

Göstərilənlərlə əlaqədar ƏN-yə müraciətdən sonra müəssisəyə su xəttinin çəkilməsi barədə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə müraciət edilmiş, mərkəzi istilik sisteminin quraşdırılması 2015-ci ilin təmir işlərinin siyahısına salınmışdır.

Həbs edilmiş şəxslərin stasionar müalicəsi rejim korpuslarında tibb işçilərinin istifadəsinə verilmiş kameralarda həyata keçirilir. Stomatoloji avadanlığın texniki nasazlığı aradan qaldırılmış, rentgenoloji kabinetə kondisionerin quraşdırılması barədə müvafiq göstəriş verilmişdir.

Həbs edilmiş şəxslərin və məhkumların qanunvericiliyin tələblərinə uyğun yaşayış sahəsi ilə təmin edilməsi məsələsinin isə respublikanın regionlarında inşa edilən müasir penitensiar müəssisələrin istifadəyə verilməsi ilə həllini tapacağı bildirilmişdir.

Göründüyü kimi MPQ işini yalnız başçəkmə və tövsiyyələrlə məhdudlaşdırmamış, davamlı olaraq bu prosselləri izləmişdir.

***1 saylı Cəzaçəkmə Müəssisəsində*** qısamüddətli başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd daxil olmuş müraciətin araşdırılması olmuşdur. Belə ki, L.A. müraciətində atası, məhkum L.T.-nin yeni istifadəyə verilmiş Şəki Penitensiar Kompleksinə köçürülməsi üçün ərizə yazmaqdan imtina etdiyinə görə

fiziki təzyiqlərə məruz qaldığını və əsassız olaraq 15 gün müddətinə cərimə təcridxanasına salındığı bildirmişdir.

L.T. qəbul edilərək onunla təkbətək söhbət aparılmışdır. Məlum olmuşdur ki, Şəki Penitensiar Kompleksinin açılışı ilə əlaqədar həmin regiondan olan məhkumların siyahısı dəqiqləşdirilərkən və köçürülmələrini istəyən məhkumların könüllü ərizələri qəbul edilərkən məhkum buna narazılıq edərək digər məhkumların diqqətini özünə çəkməklə, ərizələrin alınmasına maneəçilik törətmiş, onunla söhbət aparılan zaman çılğınlıq edərək müəssisə əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayaraq onların xidməti vəzifələrini yerinə yetirmələrinə maneçilik törətmişdir.

Cəzanın çəkilməsi qaydasını pozduğuna görə müəssisə rəisi tərəfindən L.T. barəsində 15 gün müddətinə cərimə təcridxanasına keçirilməsi barədə qərar qəbul edilmişdir.

L.T. ilə təkbətək görüş zamanı, bədəninin vizual müayinəsi keçirilərkən xəsarət izləri aşkar olunmamışdır. Həmçinin o, cərimə təcridxanasındakı saxlanılma şəraitindən və ona qarşı rəftardan narazılığının olmadığını bildirmişdir.

Qeyd edilməlidir ki, 1 saylı CÇM-yə həyata keçirilmiş başçəkmələr zamanı xüsusi ilə cərimə təcridxanasının vəziyyəti qiymətləndirilmiş orada saxlanılan şəxslərlə təklikdə söhbət aparılmış, cərimə otağına keçirmə üçün əsas verən sənədlər yoxlanılmışdır. Aşkar edilmiş bəzi pozuntularla bağlı müəssisə rəhbərliyi ilə danışıqlar aparılmış və çatışmazılıqlar aradan qaldırılmışdır.

***2 saylı Cəzaçəkmə Müəssisəsində*** bir neçə qısa müddətli başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı qəbul olunmuş şəxslər cəza çəkdikləri müəssisədə onlara qarşı rəftardan və saxlanma şəraitindən narazılığının olmadığını bildirmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə saxlanılma şəraiti və rəftarla bağlı tövsiyələr verilmişdir.

Qeyd edilməlidir ki, 2 saylı CÇM-də olan sıxlıq 2014-cü ildə tam aradan qaldırılmamışdır.

***4 saylı Cəzaçəkmə Müəssisəsində*** həyata keçirilmiş başçəkmə zamanı qəbul edilmiş məhkumlardan bir neçəsi müəssisə həkimlərinin onların səhhətlərinə qarşı laqeyd münasibətindən və psixiatr tərəfindən təyin olunmuş dərman preparatlarını ala bilmələrindən şikayətlənmişlər.

Başçəkmələrin sonunda cəzaçəkmə müəssisəsinin rəhbərliyinə tibb-sanitar hissəsi ilə bağlı şikayətlərin mövcudluğu haqda məlumat verilmiş, bu barədə fikir mübadiləsi aparılmışdır. Həmçinin müəssisə rəhbərliyinə saxlanılma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir. Eyni zamanda, Müvəkkil müəssisə rəisi və TH-nin rəisi ilə əlaqə saxlayaraq məhkumların narazılığına səbəb olmuş məsələnin araşdırılmasını tapşırmışdır. Növbəti başçəkmə zamanı məhkumların qaldırdıqları məsələlərin həll edildiyi məlum olmuşdur.

Cari ildə həmçinin Müvəkkil və MPQ-yə Ombudsman Aparatının Məhkumların və həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının müdafiəsi sektorunun

əməkdaşı cəlb edilməklə 4 saylı cəzaçəkmə müəssisəsində əlavə başçəkmə həyata keçirilmiş, 20 məhkum qadınla təkbətək görüş keçirilmiş, onların müraciətləri dinlənilmişdir.

Məhkumlara müvafiq qanunvericiliyin tələbləri izah edilmişdir. Ümumilikdə məhkumlar müəssisədəki şəraitdən və onlara qarşı rəftardan, qidalanmadan razılıq etmişlər.

***6 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraiti, məhkumlarla rəftar və əvvəlki başçəkmələr zamanı verilən tövsiyələrin icra vəziyyətinin öyrənilməsi olmuşdur.

Bu məqsədlə Fakültativ protokolun tələblərinə uyğun olaraq müəssisənin bütün obyektlərinə, o cümlədən yataqxana korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, görüş yerlərinə, məscidə, kluba, yeməkxanaya, mətbəxə, hamama baxış keçirilmiş, 40-dək məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

Qeydiyyat kitabları ilə tanışlıq zamanı, il ərzində 156 məhkuma daxili rejim qaydalaranı pozduğuna görə tənbeh tədbiri (cərimə otağına və KTO-ya keçirilmə də daxil olmaqla) görüldüyü məlum olmuşdur.

20 xəstə məhkum müalicə aldığı Tibb-sanitar hissəsinə başçəkmə zamanı ildə bir dəfə vərəmli xəstələri aşkar etmək üçün məhkumların flüoroqrafiya müayinəsindən keçirildiyi, həmçinin ”Monolit D” şirkəti ilə bağlanmış müqaviləyə əsasən müəssisənin sanitar-epidemioloji vəziyyətinin nəzarətdə saxlanıldığı, həftədə bir dəfə profilaktik tədbirlərin həyata keçirildiyi, eyni zamanda dərman təminatının qənaətbəxş olduğu müəyyən edilmişdir.

Başçəkmə zamanı Tibb-sanitar hissəsində bütün palatalara, manipulyasiya otağına, dərmanların saxlanma otağına baxış keçirilmiş, tibbi qeydiyyat kitabları öyrənilmişdir.

Ümumilikdə başçəkmə zamanı 40-dək məhkum, o cümlədən cərimə təcridxanasında, tibb-sanitar hissəsində olan məhkumlar konfidensial qaydada qəbul edilmiş, onların sənədlərinə baxılmış, hüquqları izah olunmuşdur. Məhkumlar saxlanılma şəraitindən, müəssisə əməkdaşlarının rəftarından, qidalanmadan və onlara göstərilən tibbi yardımla bağlı narazılıq etməmişlər.

Qeyd olunmalıdır ki, MPM Qrupunun həmin müəssisəyə əvvəlki baş çəkməsi zamanı verilmiş bir sıra tövsiyələr də nəzərə alınaraq, müəssisədə xeyli işlər görülmüşdür. Belə ki, karantin otağı, yeməkxana, hamam, əşyaların saxlanma otağı təmir edilmiş, cərimə kameralarının istilik sistemi yenilənmiş, əlavə telefon otaqları istifadəyə verilmişdir.

MPQ üzvləri görülən işləri müsbət dəyərləndirmiş, eyni zamanda müəssisənin klubunun (akt zalının) da təmirə ehtiyaci olduğu müəssisə rəhbərliyinin diqqətinə çatdırılmışdır.

Başçəkmənin sonunda Müəssisə rəhbərliyinə saxlanma şəraiti ilə bağlı verilmiş müvafiq tövsiyələr yerində həll edilmişdir.

*7 saylı Cəzaçəkmə Müəssisəsində* başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraiti, məhkumlarla rəftar və əvvəlki başçəkmələr zamanı verilən tövsiyələrin icra vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataqxana korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, görüş yerlərinə, məscidə, kluba, yeməkxanaya, mətbəxə, hamama baxış keçirilmiş, 70-dək məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

Başçəkmə günündə 800 məhkumun olduğu ciddi rejimli müəssisənin təsərrüfat briqadasında 108 nəfər, fərdi əməklə 87 nəfər məhkumun məşğul olduğu məlum olmuşdur. Qeydiyyat kitabları ilə tanışlıq zamanı, il ərzində 95 məhkuma daxili rejim qaydalaranı pozduğuna görə tənbeh tədbiri (cərimə otağına və KTO-ya keçirilmə də daxil olmaqla) görüldüyü məlum olmuşdur. İl ərzində cəmi 2 nəfərə xüsusi vasitə (əl qandalı) tətbiq edilmişdir.

20 çarpayılıq Tibb-sanitar hissəsinə başçəkmə zamanı orada 16 xəstə məhkum olmuşdur. TSH-nin bütün palatalarına, stomatoloji kabinetə, manipulyasiya otağına, dərmanların saxlanma otağına baxış keçirilmiş, tibbi qeydiyyat kitabları öyrənilmişdir.

Fərdi söhbət aparılmış məhkumlar saxlanılma şəraitindən, müəssisə əməkdaşlarının rəftarından, qidalanmadan və onlara göstərilən tibbi yardımla bağlı narazılıq etməmişlər.

Eyni zamanda mətbuatda bir müddət əvvəl bu müəssisədə məhkum A.Ş.-nin hüquqlarının pozulduğu, bununla əlaqədar onun aclıq aksiyası keçirdiyi barədə verilmiş məlumat araşdırılmış və bu məsələnin həqiqətə uyğun olmadığı müəyyən edilmişdir. A.Ş. izahatında saxlanılma şəraiti və rəftarla bağlı şikayətinin olmadığını bildirmişdir.

Qeyd olunmalıdır ki, MPM Qrupunun həmin müəssisəyə əvvəlki baş çəkməsi zamanı verilmiş bir sıra tövsiyələr də nəzərə alınaraq, müəssisədə xeyli işlər görülmüşdür.

Belə ki, digər cəzaçəkmə müəssisələri ilə müqayisədə, 7 saylı CÇM-də 200-dək məhkumun işlə təmin olunması, cərimə təcridxanasının təmiri, əksər yataqxanalarda taxta döşəmələrin vurulması müsbət qiymətləndirilmişdir.

Başçəkmənin sonunda Müəssisə rəhbərliyinə bəzi məsələlərlə bağlı verilmiş müvafiq tövsiyələr yerində həll edilmişdir.

***8 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə həyata keçirmiş, müəssisənin tibb-sanitar hissəsində saxlanılma şəraiti və göstərilən tibbi xidmətin vəziyyəti araşdırılmışdır. TSH-nin palatalarına, stomatoloji kabinetə, dərmanların saxlandığı və digər otaqlara, eyni zamanda qeydiyyat jurnallarına baxış keçirmiş, məhkumlarla müalicə olunduqları palatalarda görüş keçirilmiş, onların sağlamlıq durumu, göstərilən tibbi xidmətin keyfiyyəti araşdırma predmeti olmuş və tibbi kitabçalar yoxlanılmışdır.

Başçəkmə zamanı söhbət aparılmış məhkumlardan saxlanılma şəraitindən və müəssisə əməkdaşlarının davranışından şikayət daxil olmamışdır.

***10 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraiti, məhkumlarla rəftar və əvvəlki başçəkmələr zamanı verilən tövsiyələrin icra vəziyyətinin öyrənilməsi, həmçinin BMT-nin nümayəndəsi xanım Afərin Şahidzadəni Azərbaycandakı cəzaçəkmə müəssisələri və Milli Preventiv Qrupun iş təcrübəsi ilə tanış etmək olmuşdur.

Bu məqsədlə FP-nin tələblərinə uyğun olaraq müəssisənin bütün obyektlərinə, o cümlədən yataqxana korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, karantin otağına, görüş yerlərinə, kluba, yeməkxanaya, idman və kömpüter zalına, kitabxanaya, ibadət yerlərinə, hamama baxış keçirilmiş, bir-neçə məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

İlkin olaraq müəssisənin rəisi ilə görüşülmüşdür. Söhbət zamanı 1200 nəfər məhkum üçün nəzərdə tutulmuş müəssisədə başçəkmə gününə 842 məhkum olduğu məlum olmuşdur. Karantində 6, cərimə təcridxanasında 4, Tibb-sanitar hissəsində 18, təsərrüfat briqadasında çalışan məhkumların sayı 110 nəfərdir. Xarici vətəndaşların sayı 52-dir. Onlardan 24-ü İran, 4-ü Rusiya, 12-si Gürcüstan, 4-ü Nigeriya, 1-i Belarus, 1-i Ukrayna, 1-i Əfqanıstan vətəndaşıdır.

2014-cü ilin 17 iyun tarixinə qədər olan müddət ərzində müəssisədə 2 nəfərin xəstəlik nəticəsində öldüyü, intihar halının olmadığı müəyyən edilmişdir.

Qeyd olunmalıdır ki, MPQ-nin həmin müəssisəyə əvvəlki baş çəkməsi zamanı verilmiş bir sıra tövsiyələr də nəzərə alınaraq, müəssisədə xeyli işlər görülmüşdür.

Belə ki, uzunmüddətli görüş otaqlarının sayı 6-dan 8-ə çatdırılmış və burada məhkumların öz ailələri ilə görüşü üçün lazımi şərait yaradılmışdır.

Gəzinti yerinin üstünün bir hissəsi günəşdən və yağışdan qorunmaq üçün örtülmüş, məhkumların asudə vaxtlarının təşkili üçün idman zalı və kompüter otağı təmir olunaraq istifadəyə verilmişdir.

Kitabxana xeyli zənginləşdirilmiş, buradakı kitabların sayı 5300, o cümlədən elektron kitab sayı 137-yə çatdırılmışdır. Məhkumlar 12 müxtəlif adda qəzetə abunə ola bilirlər.

Başçəkmə zamanı ”Rezonans” televiziya proqramının əməkdaşlarının müəssisədə məhkumlarla bərabər proqram hazırlaması da aparılan islahatların bir nümunəsi kimi qeyd edilməlidir.

MPQ üzvləri tərəfindən həmçinin Tibb-sanitar hissəsində bütün palatalara, manipulyasiya otağına, stomatoloji kabinetə baxış keçirilmiş, buradakı şərait qənaətbəxş qiymətləndirilmişdir.

Ümumilikdə başçəkmə zamanı tibb-sanitar hissəsində, o cümlədən cərimə təcridxanasında, karantində olan məhkumlarla konfidensial qaydada söhbət zamanı onlar saxlanılma şəraitindən, müəssisə əməkdaşlarının rəftarından, qidalanmadan və onlara göstərilən tibbi yardımla bağlı narazılıq etməmişlər. Lakin cərimə Təcridxanasının 1-ci palatasına baxış zamanı həmin palatanın yeni təmir olunmasına baxmayaraq orada rütubətlilik olduğu aşkarlanmış, müəssisə

rəhbərinin göstərişinə əsasən həmin kamerada saxlanılan D.S-nin dərhal başqa kameraya köçürülmüşdür.

Müəssisəyə ümumi baxış zamanı MPQ üzvlərinə qəbul üçün yaxınlaşmış Ə.Z ilə söhbət zamanı o günahsız tutulduğunu, işinin hazırda Avropa Məhkəməsində olduğunu, eyni zamanda Müvəkkilin fəaliyyətindən razılığını bildirmişdir.

TSH-də qəbul edilmiş H.C. məhkəmə qərarından narazı olduğunu, azadlığa çıxmaq istədiyini bildirmişdir. Ona Müvəkkilin səlahiyyətləri izah edilmiş, eyni zamanda onun 12 saylı Cəzaçəkmə Müəssisəsində pul tələbi ilə döyülməsi ilə bağlı söylədiklərinin araşdırılması üçün aidiyyatı orqanlara müraciət ediləcəyi bildirilmişdir.

Daha sonra müraciətləri ilə əlaqədar M.H. (İran İslam Respublikasının vətəndaşı), M.K. (Türkiyə Respublikasının vət.), İ.V. və S.B. (Nigeriya Federativ Respublikasının vətəndaşı) MPQ üzvləri tərəfindən konfidensial qaydada qəbul edilmişlər. Qəbul edilmiş şəxslərdən M.K. və M.H. öz ölkələrinə ekstradisiya olunmaq istədiklərini bildirmişlər. Onlara hüquqi məsləhətlər verilmiş, Müvəkkilin və MPM-in səlahiyyətləri izah edilmiş, həmçinin yazılı ərizə ilə Müvəkkilə müraciət etmələri tövsiyə olunmuşdur.

Başçəkmə zamanı müraciətləri ilə bağlı qəbul edilmiş şəxslər müəssisədəki saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişlər.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə saxlanma şəraiti, o cümlədən cərimə təcridxanasının 1-ci kamerasının təmir edilməsi, məhkumların əşya saxlanılma yerində təmizliyə riayət edilməsi, psixoloqların məhkumlarla işinin gücləndirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***11 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə zamanı bir neçə məhkum qəbul edilmiş, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər araşdırılmışdır.

Fərdi qaydada qəbul olunmuş məhkumlarla söhbət zamanı H.Z. xəstəliyi ilə əlaqədar ona köməklik göstərilməsini xahiş etmişdir. Araşdırma zamanı müəyyən edilmişdir ki, o, göndəriş əsasında MM-də olmuş, həmçinin MM-in həkim-cərrahı Vazeh Kamalov tərəfindən 11 saylı CÇM-də təkrar müayinə olunmuş, onda babasil xəstəliyinin olmadığı müəyyən edilmişdir. Buna baxmayaraq MPQ-nin tövsiyəsindən sonra müəssisənin TSH-nin rəisi H.Z.-nin yaxın vaxtlarda təkrar hərtərəfli müayinə üçün MM-ə göndəriləcəyini bildirmişdir.

Digər məhkum M.R. müəssisə həkimi ilə arasında olan kiçik anlaşılmazlığın artıq aradan qaldırıldığını bildirmiş, eyni zamanda onun qaldırdığı əvvəlki yataq yerinə qayıtmaqla bağlı məsələ müəssisə rəisinin diqqətinə çatdırılmış, müəssisə rəisi bu məsələnin onun nəzarətində olduğunu və yaxın vaxtlarda öz müsbət həllini tapacağını bildirmişdir.

Məhkum M.Q. Bakı İstintaq Təcridxanasında saxlanılan övladları ilə bağlı narahat olduğunu bildirmiş, ona MPQ üzvlərinin övladları ilə görüşdüyünü, onların həmin müəssisədəki saxlanma şəraiti və rəftarla bağlı şikayətlərinin olmadığı bildirilmişdir.

Qəbul edilmiş şəxslərə hüquqları bir daha izah olunmuş, başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisənin rəisinə saxlanma şəraiti və rəftarla bağlı bəzi tövsiyələr verilmişdir.

Qeyd edilməlidir ki, PX tərəfindən müəssisədə aparılmış araşdırmalar zamanı yol verdiyi nöqsanlara görə müəssisənin rəisi dəyişdirilmişdir.

***12 saylı Cəzaçəkmə Müəssisəsində*** həyata keçirilmiş başçəkmə zamanı bir neçə məhkum qəbul edilmiş, onlarla söhbət aparılmışdır. Müraciətləri dinlənilmiş M.H. yeni istifadəyə verilmiş Şəki Penitensiar Kompleksinə keçirilməsini xahiş etmiş, hər hansı bir şikayətinin olmadığını bildirmişdir. Digər məhkum Ə.R. da eyni xahişlə müraciət etmiş və saxlanıldığı müəssisənin dəyişdirilməsini istəmişdir. Hər iki məhkuma hüquqi məsləhət verilmiş və məhkumların bir müəssisədən digər müəssisəyə keçirilməsi şərtləri və qaydaları izah edilmişdir.

Bundan başqa müəssisəsinin cərimə təcridxanasına baxış keçirilmiş, burada saxlanılan 20 nəfər şəxsin saxlanılma şəraiti, səhhəti və onlara qarşı rəftarla bağlı mövcud vəziyyət öyrənilmişdir. Cərimə təcridxanasında saxlanılan şəxslərlə aparılan söhbət zamanı həmin şəxslər saxlanılma şəraiti, rəftar və onlara göstərilən tibbi yardımın keyfiyyəti ilə bağlı şikayət etməmişlər.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəisinə saxlanma şəraiti və rəftarla bağlı bəzi tövsiyələr verilmiş və bir sıra nöqsanlar yerində aradan qaldırılmışdır.

Bundan əlavə 2013-cü ildə aparılmış araşdırmalar zamanı yol verdiyi nöqsanlara görə bu müəssisənin rəisinin vəzifəsindən kənarlaşdırıldığı məlum olmuşdur.

***13 saylı Cəzaçəkmə Müəssisəsində*** bir neçə dəfə qısamüddətli başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr zamanı cərimə və karantin otağında saxlanılan şəxslər qəbul edilmiş, onların saxlanılma vəziyyəti araşdırılmışdır. Qəbul edilmiş şəxslər cəzaçəkmə müəssisəsində saxlanılma şəraiti ilə bağlı bəzi narazılıqlarını bildirmişlər.

Qeyd edilməlidir ki, 8, 12, 13 və 14 saylı CÇM-lər Qaradağ rayonunda mövcud daş karxanalarının arasında yerləşməsi səbəbindən ekoloji cəhətdən məhkumların və əməkdaşların həyatı üçün təhlükəlidir.

***14 saylı Cəzaçəkmə Müəssisəsində*** saxlanılma şəraitinin, məhkumlarla rəftar və əvvəlki başçəkmələr zamanı verilən tövsiyələrin icra vəziyyətinin öyrənilməsi məqsədi ilə başçəkmə həyata keçirilmişdir.

Müəssisənin bütün obyektlərinə, o cümlədən yataqxana korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, görüş yerlərinə, kluba, yeməkxanaya, mətbəxə, hamama baxış keçirilmiş, 50-dək məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

CÇM-nin TSH-ə başçəkmə zamanı saxlanılan 10 xəstə məhkumla söhbət aparılmış bütün palatalara, manipulyasiya otağına, stomatoloji kabinetə baxış keçirilmiş, tibbi qeydiyyat kitabları öyrənilmişdir. Zədələrin qeydiyyatı kitabına

baxış zamanı 2014-cü ildə 26 nəfərin müxtəlif xəsarətlərlə müraciət etdiyi və onlara müvafiq tibbi yardımın göstərildiyi müəyyən edilmişdir.

Ümumilikdə başçəkmə zamanı 50-dək məhkum, o cümlədən cərimə təcrid-xanasında, tibb-sanitar hissəsində olan məhkumlar konfidensial qaydada qəbul edilmiş, onların sənədlərinə baxılmış, hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuşdur. Məhkumlar saxlanılma şəraitindən, müəssisə əməkdaşlarının rəftarından, qidalanmadan və onlara göstərilən tibbi yardımla bağlı narazılıq etməmişlər.

Qeyd olunmalıdır ki, həmin müəssisəyə əvvəlki başçəkmə zamanı verilmiş bir sıra tövsiyələr nəzərə alınmışdır. Belə ki, yeməkxanada əsaslı təmir işləri görülməklə taxta pəncərələr müasir tipli plastik pəncərələrlə əvəz edilmiş, yeməkxananın tavanı müasir standartlara cavab verən plastik (lambir) örtüklə örtülmüş, işıqlandırılması təmin edilmiş, döşəməsi keramik örtüklə döşənmişdir. Məhkumların asudə vaxtlarının daha səmərəli keçirilməsi məqsədilə futbol meydançası yaşıl süni örtüklə döşənmiş, içərisində iki ədəd bilyard stolu qoyulmaqla bilyard zalı tikilib istifadəyə verilmiş, məhkumların məişət məsələlərinin həll edilməsi məqsədilə camaşırxanada yuyulmuş paltarların qurudulması üçün qurğu quraşdırılmış, telefon xətləri yeni elektron ATS-lə əvəz edilmiş, telefon nömrələrinin sayı 1-dən 4-ə artırılmış, müəssisənin kitabxanasına yeni latın qrafikalı kitablar alınmış, yaddaşında 135 ədəd rus dilində kitab olan elektron kitabxana quraşdırılmışdır. Müəssisənin kitabxanasında ümumilikdə 5300-ə yaxın kitab olduğu haqda məlumat verilmişdir. Habelə məhkumlar üçün nəzərdə tutulmuş kluba yumşaq, müasir oturacaqlar alınmış və əsaslı təmirdən sonra quraşdırılması nəzərdə tutulmuşdur.

Bütün bunlarla yanaşı müəssisədə bəzi problemlərin olduğu da müəyyən edilmişdir. Belə ki, şəraitin araşdırılması zamanı müəssisənin su təminatında fasilələrə yol verildiyi, verilən suyun təzyiqinin çox aşağı olduğu müəyyən edilmişdir. Qeyd olunan məsələ ilə bağlı Müvəkkil tərəfindən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə müraciət edilmişdir.

Nəticədə məlum olmuşdur ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sifarişinə əsasən Abşeron yarımadasında yerləşən bütün yaşayış məntəqələrinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yenidən qurulması məqsədi ilə "Master Plan" hazırlanmışdır. "Master Plan"a uyğun olaraq Abşeron yarımadasında su təchizatı üzrə zonalı sistemin tətbiqi nəzərdə tutulmuşdur. "Master Plan" çərçivəsində Qaradağ rayonunun, Qızıldaş qəsəbəsinin perspektiv inkişafı nəzərə alınmaqla müvafiq layihə sənədləri hazırlanmışdır. Layihəyə əsasən Qızıldaş qəsəbəsində +82 m mütləq yüksəklikdə iki ədəd 2500 $m^3$ - lik həcmə malik su anbarının inşası nəzərdə tutulmuşdur. Bu anbarlar vasitəsi ilə Qızıldaş qəsəbəsi ilə yanaşı ətraf ərazilərdə yerləşən digər tələbatçıların, eləcə də 14 saylı cəzaçəkmə müəssisəsinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, müəssisə rəhbərliyi, TSH-nin rəisi, eləcə də fərdi qaydada qəbul edilmiş bir-neçə məhkumla söhbət zamanı onlar ilkin və təkrar əlilik dərəcəsi almaq üçün müraciət etmiş şəxslərin müayinəsinin TSEK tərəfindən gecikdirildiyini bildirmişlər.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə saxlanma şəraiti ilə bağlı verilmiş müvafiq tövsiyələr yerində həll edilmişdir.

Qeyd olunan məsələlərlə bağlı Müvəkkil tərəfindən ƏƏSMN-ə müraciət edilmişdir.

Nəticə etibarilə TSEK tərəfindən təkrar qaydada müayinə olunmuş məhkumlara müxtəlif dərəcəli əlillik müəyyən edilmişdir.

Məhkum N.C-nin əlillik vəziyyətinin müəyyən olunması ilə əlaqədar isə müvafiq sənədlərin həmin müəssisə tərəfindən TSEK-ə təqdim ediləcəyi halda onun əlillik vəziyyətinə yenidən baxılacağı bildirilmişdir.

22 dekabr 2014-cü il tarixdə 14 saylı cəza çəkmə müəssisəsində baş vermiş hadisə də Müvəkkilin diqqət mərkəzində olmuşdur. Belə ki, məhkum E.İ.-nin müəssisədə ölüm faktı və məhkumların buna etirazı ilə bağlı hazırda Qaradağ rayon prokurorluğunda istintaq aparıldığı, məhkumun ölüm səbəbinin araşdırıldığı və cinayət işi başlanıldığı nəticəsindən asılı olaraq müvafiq tədbirlər görüləcəyi məlum olmuşdur.

***15 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə zamanı müəssisənin cərimə təcridxanasına baxış keçirilmiş, orada saxlanılan şəxslərlə söhbət aparılmış, eyni zamanda Müvəkkilin ünvanına daxil olmuş müraciətlər araşdırılmışdır.

Qəbul edilmiş məhkumlar müəssisədəki saxlanılma şəraiti və rəftarla bağlı şikayətlərinin olmadığını söyləmişlər.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə saxlanılma şəraitinin təkmilləşdirilməsi və rəftarla bağlı müəyyən tövsiyələr verilmişdir.

***16 saylı Cəzaçəkmə Müəssisəsində*** həyata keçirilmiş başçəkmə zamanı müəssisənin cərimə təcridxanasında saxlanılan məhkumlarla konfidensial qaydada söhbət aparılmışdır. Həmçinin müəssisənin karantin otağına və tibb-sanitar hissəsinə baxış keçirilmişdir. Saxlanılan şəxslərlə aparılan söhbət zamanı hər hansı şikayət daxil olmamışdır.

Tibb-sanitar hissəsində MPQ üzvlərinə yaxınlaşaraq müəssisənin tibb-sanitar hissəsinə köçürülməsində köməklik göstərilməsini xahiş etmiş Z.R.-yə müəssisənin rejim qaydaları və hüquqları izah edilmişdir.

Başçəkmənin sonunda müəssisənin tibb-sanitar hissəsinin baş həkiminə Z.R.-nin hərtərəfli müayinəsinin təşkil olunması tövsiyə olunmuşdur.

***17 saylı Cəzaçəkmə Müəssisəsində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd CÇM-nin cərimə təcridxanasında saxlanılan şəxslərin saxlanılma şəraiti, səhhəti və onlara qarşı rəftarla bağlı mövcud vəziyyətin öyrənilməsi, eyni zamanda Müvəkkilin ünvanına daxil olmuş müraciətlərin araşdırılması olmuşdur.

CÇM-nin karantin otaqlarına ümumi baxış keçirmiş, orada saxlanılan məhkumlarla görüşmüşlər.

Saxlanıldıqları kameralarda təklikdə qəbul edilmiş bir neçə məhkumla konfidensial söhbət zamanı onlara qarşı xüsusi vasitə tətbiq edildiyini bildirmişdir. Araşdırma zamanı bunun həmin məhkumların özlərinə xəsarət yetirmələrinin qarşısının alınması üçün tədbiq edildiyi və bu barədə müvafiq sənədləşmənin aparıldığı məlum olmuşdur.

MPQ üzvləri tərəfindən cərimə təcridxanasında saxlanılan şəxslərə hüquqları, daxili rejim qaydaları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, həmçinin müəssisə həkiminə cərimə təcridxanasında saxlanılan şəxslərin səhhətinin diqqətdə saxlanılması tövsiyə olunmuşdur.

Eyni zamanda həmin şəxslərin MPQ üzvləri tərəfindən nəzarətə götürüldüyü və gələcək başçəkmə zamanı onlarla təkrar görüşüləcəyi, vəziyyətin diqqətdə saxlanılacağı məhkumların və müəssisə rəisinin diqqətinə çatdırılmışdır.

Başçəkmə zamanı Cəzaçəkmə müəssisəsinin tibb-sanitar hissəsində hazırda əsaslı təmir işlərinin davam etdirildiyi, palataların sayının artırıldığı, yeni stomatoloji kabinetin tikildiyi də müəyyən edilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə saxlanılma şəraiti və rəftarla bağlı, tibb hissəsinin rəisinə isə sənədləşmə ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Həmin CÇM-yə təkrar başçəkmə zamanı müəssisənin cərimə təcridxanasına baxış keçirilmiş, bir neçə məhkum qəbul edilib onlarla söhbət aparılmışdır.

Qəbul edilmiş həmin şəxslər müəssisədəki saxlanılma şəraiti və rəftarla bağlı şikayətlərinin olmadığını söyləmişlər.

Qəbul edilmiş məhkum M.R. pensiya yaşına çatmasına baxmayaraq pensiya kartını ala bilmədiyini söyləmişdir. Bu məsələ ilə bağlı ona yazılı ərizə ilə Müvəkkilə müraciət etməsi tövsiyə olunmuşdur. Bundan əlavə əvvəlki başçəkmə zamanı nəzarətə götürülmüş məhkumlarla da təkrar görüşülmüş onların vəziyyəti araşdırımışdır.

Bu müəssisədə məhkumların asudə vaxtının səmərəli keçirilməsi Müvəkkili narahat edən məsələlərdən olmuşdur. Müvəkkilin də təklifləri nəzərə alınmaqla müəssisədə müasir tələblərə cavab verən idman meydançası inşa olunmuşdur.

***İxtisaslaşmış Müalicə Müəssisəsində*** bir neçə başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd "Qırmızı Xaç" cəmiyyətinin Bakı ofisinin nümayəndələri tərəfindən Müvəkkilə ünvanlanmış müraciətlərin araşdırılması olmuşdur.

Başçəkmə zamanı MM-də cəza çəkən bir neçə məhkum qəbul edilmiş, onlardan R.İ. əlillik dərəcəsinin alması ilə bağlı müraciətinin artıq təmin olunduğunu, məhkum İ.M. isə əfv olunması ilə bağlı müraciət etdiyini bildirmişdir.

Söhbət zamanı İ.M.-ə əfvetmə haqqında müvafiq əsasnamənin tələbləri izah edilmiş, cəzasının 3/1 hissəsi tamam olduqdan sonra təkrar müraciət etməsi tövsiyə olunmuşdur.

Məhkum Ə.C. isə müalicəsinin tamamlanmaq üzrə olduğunu, müalicədən sonra əvvəlki cəza çəkdiyi müəssisəyə məhkum yoldaşları ilə aralarında yaranmış problem səbəbindən qayıtmaq istəmədiyini bilirmiş, yeni istifadəyə verilmiş Şəki Penitensiar Kompleksinə köçürülməsində köməklik göstərilməsini xahiş etmişdir. Ona yazılı ərizə ilə Müvəkkilə müraciət etməsi tövsiyə olunmuşdur.

Bəzi KİV-lərdə İxtisaslaşdirilmiş Müalicə Müəssisəsində cəza çəkən N.L.-nin zorakılığa məruz qalması, cərimə təcridxanasına salınaraq ayağına qaynar çaydan bağlanması və ona müəmmalı dərmanlar qəbul etdirilməsi barədə məlumatla bağlı həmin CÇM-də təkrar başçəkmə aparmışdır.

N.L. ilə söhbət zamanı o, müəssisə əməkdaşları və rəhbərliyindən şikayətinin olmadığını bildirmiş, mətbuatda yer alan məlumatın həqiqətə uyğun olmadığını söyləmişdir.

Eyni zamanda o, xəstə olmamasına baxmayaraq uzun müddət İMM-də saxlanılmasından, məhkəmə prosesinin uzanmasından şikayət etmiş və istintaq təcridxanasına köçürülməsini xahiş etmişdir.

Araşdırma zamanı sonuncu dəfə N.L.-in ötən il 5 gün müddətinə Təcridetmə palatasında təhlükəsiz yerə keçirilməsi ilə bağlı qərar çıxarıldığı məlum olmuşdur.

Tibb xidmətinin həkimləri ilə söhbət zamanı və təqdim olunmuş sənədlərə əsasən, N.L.-in Hepatit "C", HİV infeksiyası (IV klinik mərhələsi) və vərəm xəstəliyi (infiltrasiya mərhələsində) təsdiq olunmuşdur. Lakin Nəbiyev bir müddət müalicə aldıqdan sonra yazılı şəkildə müalicədən imtina etmiş və bu barədə müvafiq sənədləşmə aparılmışdır. Təqdim edilmiş tibbi arayışa görə təqsirləndirilən şəxsin yoluxucu xəstəliyi olması səbəbindən İstintaq təcridxanasına və ya cəzaçəkmə müəssisəsinə keçiriləcəyi təqdirdə məhkum və həbs edilmiş şəxslərin yoluxdura biləcəyi ehtimalı real olduğu üçün onun hər hansı bir müəssisəyə köçürülməsi məqsədə uyğun olmadığı barədə qərar qəbul edilmişdir.

N.L.-ə həkimin tibbi rəyindən şikayət vermək hüququ izah edilmişdir.

***Müalicə Müəssisəsində*** başçəkmə zamanı müəssisəsinin cərimə təcridxanasında saxlanılan şəxslərin saxlanılma şəraiti, səhhəti və onlara qarşı rəftarla bağlı mövcud vəziyyət öyrənilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri Müalicə Müəssisəsinin cərimə təcridxanasında cərimə palatalarına ümumi baxış keçirmiş, burada saxlanılan məhkumlarla görüşmüşlər.

Saxlanıldıqları cərimə palatalarında təklikdə qəbul edilmiş məhkumlarla konfidensial qaydada aparılan söhbət zamanı həmin şəxslər saxlanılma şəraiti, rəftar və onlara göstərilən tibbi yardımın keyfiyyəti ilə bağlı şikayət etməmişlər.

Müəssisə rəisinə aşkar edilmiş nöqsanlarla bağlı verilmiş tövsiyələr yerində aradan qaldırılmışdır.

*Müalicə Müəssisəsində* həmçinin "Qırmızı Xaç" cəmiyyətinin Bakı ofisinin nümayəndələri tərəfindən Ombudsmana ünvanlanmış müraciətin araşdırılması məqsədi ilə plandankənar başçəkmə də həyata keçirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən qəbul edilmiş İ.Ə. həyat yoldaşının 1-ci qrup əlil olduğunu, xəstəliyi ilə əlaqədar onun sərbəst yerimək qabiliyyətini itirdiyini, həmçinin o həbs olunduqdan sonra həyat yoldaşının köməyə ehtiyacının daha da artdığını bildirmiş, onun əlil arabası ilə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir.

İ.Ə.-yə müraciəti ilə əlaqədar araşdırma aparılacağı və ƏƏSMN-nə müvafiq müraciət ediləcəyi bildirilmişdir. Söhbət zamanı o, MM-də saxlanılma şəraiti, rəftar və göstərilən tibbi yardımın keyfiyyəti ilə bağlı hər hansı şikayətinin olmadığını bildirmişdir. MPQ üzvləri tərəfindən müəssisə rəisinə İ.Ə.-nin psixoloji vəziyyətinin diqqətdə saxlanılması xahiş edilmişdir.

*Müvəkkil hesab edir ki, müalicə müəssisəsinin mövcud korpusları köhnə olduğundan burada əsaslı təmir işləri aparılmalı və ya yeni müəssisə tikilməlidir.*

***2, 6, 12, 13 və 14 saylı MTCM-lərdə*** saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin araşdırılması məqsədi ilə qısamüddətli başçəkmələr həyata keçirilmiş, saxlanılma şəraiti və sənədləşmə öyrənilmişdir.

Başçəkmələrin sonunda müəssisələrin rəhbərliyinə saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müəyyən tövsiyələr verilmişdir.

***10 saylı MTCM-də*** həyata keçirilmiş başçəkmə zamanı məhkumların saxlanılma şəraiti və əməkdaşların onlarla davranışının araşdırılmışdır.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataqxanalara, cərimə təcridxanasına və digər yerlərə baxış keçirilmişdir. Saxlanılma şəraiti və rəftar qənaətbəxş hesab edilsə də, bir sıra nöqsan və çatışmazlıqlar aşkar olunmuşdur.

Hazırda müəssisədə gecələyən məhkumların saxlanıldığı yataqxananın elektrik plitəsi və kondisioner hesabına isidildiyi, yataq dəstlərinin, adyal və döşəklərin köhnə və natəmiz olduğu, yataq ağlarının isə ümumiyyətlə olmadığı, digər yataqxanalarda da vəziyyətin eyni olduğu müşahidə edilmişdir. Habelə müəssisənin hamamının köhnə tikilidən ibarət olmaqla sanitar normalara cavab vermədiyi, istifadə edilən hamamın yaxınlığında yeni hamam tikilməsi müşahidə edilsə də, tikintinin yarımçıq qaldığı, müəssisəyə su çəkilmədiyindən suyun avtomaşın vasitəsilə daşınaraq su çənlərinə doldurulduğu, məhkumlar üçün sanitar qovşağın primitiv şəkildə hazırlandığı, sanitar qaydalara cavab verməyən, qapısı olmayan şəkildə istifadə edildiyi müşahidə olunmuşdur.

Müəssisənin cərimə təcridxanasına baxış zamanı hər iki kameranın ölçüsünün standartlara uyğun olmadığı, yataq dəstlərinin köhnə və natəmiz olduğu, yataq ağı ilə təmin edilmədiyi müəyyən edilmişdir. Bununla yanaşı, MTCM-də yeni cərimə otaqlarının tikildiyi bildirilmiş, lakin onuna da tikintisinin yarımçıq qaldığı müşahidə olunmuşdur.

Qeydiyyat jurnalları ilə tanışlıq zamanı sənədləşmənin düzgün aparılmadığı müəyyən edilmiş, qeyd edilən halların aradan qaldırılması ilə əlaqədar Müvəkkil tərəfindən Ədliyyə Nazirliyinə müraciət edilmişdir.

Verilmiş cavabdan məlum olmuşdur ki, müraciətə baxılaraq, verilmiş tövsiyələrə uyğun olaraq tədbirlər görülür. Müəssisədə sanitar qovşağı təmir edilmiş, yeni hamam və cərimə təcridxanasının tikintisi üzrə aparılan işlər nəzarətə götürülmüşdür. Yataq ləvazimatlarının yeniləri ilə əvəz olunmasının təmin ediləcəyi, qeydiyyat jurnalında yol verilmiş nöqsanların aradan qaldırıldığı bildirilmişdir.

Həmçinin o da vurğulanmışdır ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə qanunvericiliyə dəyişikliklərin edilməsi barədə ƏN tərəfindən aidiyyəti orqanlara müraciətlər edilmişdir.

Bundan başqa, YUNİSEF-lə birgə müvafiq layihə çərçivəsində MPQ tərəfindən cəlb olunmuş ekspertlərlə birlikdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı istintaq təcridxanasında, 2 saylı istintaq təcridxanasında, Şəki Penitensiar Kompleksində, Uşaq tərbiyə müəssisəsində başçəkmə həyata keçirilmiş və orada saxlanılan uşaqlarla bağlı vəziyyət qiymətləndirilmişdir.

### *2.2.3. Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanası*

Cari ildə Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına 3 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı saxlanılan 20-dək şəxs qəbul edilmiş, onlarla təkbətək söhbət aparılmışdır.

Bu zaman saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar, eyni zamanda Müvəkkilin ünvanına daxil olan məlumatlar araşdırılmışdır.

Adı çəkilən müəssisə tərəfindən başçəkmələrin effektiv həyata keçirilməsi üçün həm Müvəkkil, həm də Milli Preventiv Qrup üçün müvafiq şərait yaradılmışdır.

Başçəkmələrin nəticəsi olaraq müəssisədə maddi şərait, qidalanma, tibbi xidmətin təşkili və saxlanılan şəxslərlə rəftarla bağlı mövcud vəziyyət qiymətləndirilərək standartlara uyğun olduğu qənaətinə gəlinmişdir

Bundan başqa Müvəkkilə ərizə ilə müraciət edərək Aparatın əməkdaşlarının onunla görüşməsini xahiş etmiş H.P. başçəkmə zamanı qəbul edilmişdir. Təkbətək görüş zamanı onun saxlanılma şəraiti və vəziyyəti araşdırılmışdır. H.P. saxlanılma şəraiti ilə bağlı heç bir şikayətinin olmadığını, vaxtlı-vaxtında keyfiyyətli qida və gəzinti ilə təmin edildiyini, zərurət olduqda həkimlə təmin edildiyini bildirmişdir.

Saxlanılan şəxs barəsində olan cinayət işi üzrə məhkəmə prosesində təqdim etdiyi vəsatətlərinin Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən təmin edilməməsindən narazılığını bildirmişdir. Bununla əlaqədar ona "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri izah edilmişdir.

Kameralara baxış və ümumi vəziyyətin qiymətləndirilməsi zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi "İstintaq təcridxana-

larının daxili intizam qaydaları"nın tələblərinin pozulması halı müəyyən olunmamışdır.

Eyni zamanda o da məlum olmuşdur ki, yaxın vaxtlarda təcridxana əsaslı təmir ediləcək və kameralara televizorlar quraşdırılacaqdır.

### *2.2.4. Müdafiə Nazirliyinin müəssisələri*

Müdafiə Nazirliyinin tabeliyində olan 11 müəssisədən 4 müəssisəyə başçəkmə həyata keçirilmiş mövcud vəziyyət araşdırılaraq əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin həyata keçirilməsi, aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması vəziyyəti öyrənilmişdir.

Qeyd olunmalıdır ki, Silahlı Qüvvələrdə son zamanlar aparılan islahatlar hərbi qulluqçuların hüquqlarının müdafiəsinə, bu hüquqların daha səmərəli təmin olunmasına şərait yaratmış, orduda ideoloji, hüquqi maarifləndirmə və təlim-tərbiyə işlərinin, həmçinin şəxsi heyətin yüksək döyüş ruhunun və psixoloji durumunun gücləndirilməsində müsbət rol oynamışdır.

***Bakı Qarnizon Hərbi Polisinin Hauptvaxtına*** plan üzrə başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsədi saxlanılma şəraitinin və rəftarın araşdırılması olmuşdur.

34 saxlanılma yerindən ibarət hauptvaxtda intizam pozuntularına görə saxlanılan, müddətli və müddətdən artıq hərbi xidmətdə olan hərbi qulluqçularla, eyni zamanda əsgərlərlə görüş keçirilərək insan hüquqları, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılmış, həmin şəxslərin saxlanılmalarına əsas verən sənədlər öyrənilmişdir.

Başçəkmə zamanı saxlanılma şəraiti və qəbul edilmiş şəxslərə qarşı rəftarla əlaqədar, həmçinin saxlanılan hərbi qulluqçuların saxlanılmasına əsas verən sənədlərlə bağlı hər hansı pozuntusu aşkar edilməmişdir.

Başçəkməyə Müvəkkil Aparatının Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri F.Həsənov ekspert qismində cəlb olunmuşdur.

***Bərdə Qarnizon Hərbi Polisinin Hauptvaxtında*** başçəkmə zamanı orada saxlanılan 20 əsgərlə söhbət və şəraitin qiymələndirilməsi zamanı pozuntu halları aşkar edilməmişdir.

***Kürdəmir və Yevlax Qarnizonları Hərbi polislərində*** başçəkmələr həyata keçirilmiş, bu hərbi polislərdə hauptvaxtların fəaliyyət göstərmədiyi məlum olmuşdur.

Ombudsman Aparatının əməkdaşları hərbi polislərdə şəxsi heyətlə, gənc əsgərlərlə insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqları, Müvəkkilin MPM qismində fəaliyyəti mövzusunda söhbətlər aparmış, onların insan hüquqları ilə bağlı coxsaylı suallarını cavablandırmışlar. Hərbi polislərdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, qidalanmanın, sağlamlığın qorunması vəziyyətinin və məişət şəraitinin daha da təkmilləşdirilməsi üçün tövsiyələr verilmişdir.

Qeyd edilməlidir ki, müvafiq standartlara cavab vermədiyi üçün Müvəkkilin təklifi əsasında 10 Hauptvaxtdan 8-i bağlanılmış və hal hazırda yalnız 2-si fəaliyyət göstərir.

### *2.2.5. Dövlət Miqrasiya Xidmətinin müəssisələri*

***Bakı Şəhəri Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində*** iki dəfə planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı burada könüllü əsaslarla yerləşdirilmiş üç Filippin vətəndaşı ilə söhbət zamanı onlar saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

Qeyd edilməlidir ki, başçəkmənin nəticələri qənaətbəxş olmuş, adı çəkilən müəssisə standartlara cavab verir və əvvəlki başçəkmələr zamanı verilmiş bütün tövsiyələr icra edilmişdir. Əlavə olaraq yeni kitabxana istifadəyə verilmiş, habelə saxlanılan şəxslərin məişət şəraitinin daha da yaxşılaşdırılması üçün bu müəssisə kifayət qədər geyim və lazımi vəsaitlərlə təchiz olunmuşdur.

Bundan başqa vətəndaş M.R. Müvəkkilin İşgəncələrlə bağlı "qaynar xəttinə" zəng edərək, qeyri-rəsmi nikahda olduğu Pakistan İslam Respublikasının vətəndaşı A.N.-ın yerinin müəyyənləşdirilməsi və onunla görüşməsi üçün köməklik göstərilməsini xahiş etmişdir.

MPQ tərəfindən aparılmış araşdırma nəticəsində A.N.-in Bakı Şəhəri Qanunsuz Miqrantların Saxlanılması Mərkəzində saxlanıldığı müəyyən edilmiş və bu barədə dərhal M.R.-ə məlumat verilmişdir.

Qeyd olunmalıdır ki, M.R.-in həmin müəssisədə A.N. ilə görüşü təmin edilmişdir.

### *2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri*

***1 saylı Respublika Psixiatriya Xəstəxanasında*** həyata keçirilmiş başçəkmə zamanı MPQ üzvləri həmin müəssisədə saxlanılan şəxslərin saxlanılma şəraiti, səhhəti və onlara qarşı rəftarla bağlı mövcud vəziyyəti öyrənmişlər. Müəssisədə müasir standartlara cavab verən, daha bir korpusun istifadəyə verilməsi təqdirəlayiq hal kimi qiymətləndirilmişdir.

1 saylı Respublika Psixiatriya Xəstəxanasındakı mövcud xəstə sıxlığının aradan qaldırılması məqsədilə Ombudsman tərəfindən SN-nə müraciət edilmişdir. Bu müəssisədə keçirilmiş başçəkmələrin nəticələri ilə bağlı bir neçə tövsiyənin yerinə yetirilməsi müsbət qiymətləndirilmişdir. Belə ki, müasir standartlara cavab verən 7-ci, 8-ci vərəm şöbələri yenidən tikilərək xəstələr bu şöbələrə köçürülmüşlər.

Bununla yanaşı son başçəkmənin bəzi nəticələrini MPQ-ni narahat etmiş və bununla bağlı SN-yə müraciət ünvanlanmışdır: müəssisədə limitdən artıq xəstənin

saxlanılması; herontologiya şöbəsində olan xəstə sıxlığı, 25 çarpayının şöbənin dəhlizində yerləşdirilməsi, çarpayıların sınıq, döşəklərin natəmiz olması; xəstəxananın uşaq şöbəsində nəzarətdən yayınan aqressiv 2 uşağın digər uşaqlara mütəmadi xəsarət yetirmələri (dişləməsi) narahatlıq doğurur. Beynəlxalq standartlara görə bir psixi xəstənin ona ziyan gətirə biləcək digərindən qorunması üçün müvafiq heyət lazımi tədbirlər görməlidir.

Alınmış cavab məktubunda xəstələrin sayının müəyyən olunmuş limitdən artıq olmasının Gəncə şəhərində, Şəki və Quba rayonlarında psixiatriya xəstəxanalarının əsaslı təmiri ilə bağlı bu xəstəxanaya köçürülməsi ilə əlaqələndirmiş, yeni herontologiya şöbəsinnin tikintisinin başa çatdıqdan sonra sıxlığın aradan qaldırılacağı bildirilmişdir. Eyni zamanda, psixi durumu gərgin olan 2 uşağın xəstəxana rəhbərliyi və tibb işçiləri tərəfindən ciddi nəzarətə götürüldüyü də qeyd edilmişdir.

***Salyan Rayonlararası Ruhi-Əsəb Xəstəlikləri Dispanserində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı dispanserin bütün obyektlərinə baxış keçirmişdir. Baxış zamanı qadınlar və kişilər üçün olan korpuslarda saxlanılan şəxslərin olmadığı müəyyən edilmiş. Müəyyən edilmişdir ki, köhnə korpuslarda heç kim saxlanılmır. Bütün xəstələr yeni istifadəyə verilmiş binaya köçürülmüş və onlar üçün lazımi şərait yaradılmışdır.

67 kişinin olduğu dispanserdə onların qaldığı palataların hər birinə baxış keçirilmiş, avadanlıqların vəziyyəti, yorğan-döşəklərin yararlılığı yoxlanılmış, saxlanılan şəxslərlə söhbət aparılmışdır. Sonra hamam otağı və yardımçı otaqların vəziyyəti yoxlanılmış, yeməkxanaya baxış keçirilmişdir.

Qadınların qaldığı bütün palatalara baxış keçirilmiş, onlarla söhbət aparılmışdır. Söhbət zamanı rəftar və saxlanılma şəraiti ilə bağlı hər hansı şikayət olmamışdır. Yeməkxanaya baxış zamanı boşqab və stəkanların sayının xəstələrin sayına adekvat olmadığı, 210-cu palatada istilik radiatorunun işləmədiyi, qeydiyyat kitablarına baxış keçirilərkən isə fiksə olunan xəstələrin qeydiyyatının aparılmadığı müəyyən olunmuşdur.

Bundan başqa, müəssisənin mühasibat şöbəsində gündəlik yemək xərcləri ilə bağlı sənədlərə baxış keçirilmiş, müəssisədə 116 nəfər xəstənin saxlanılmasına baxmayaraq, sənədlərdə 150 nəfər üçün xərclərin göstərildiyi aşkar edilmişdir. Müəssisənin anbarına və yemək bişirilən sektora baxış zamanı lazımi ərzaq təminatının olduğu müəyyən olunmuşdur.

***Sumqayıt Şəhər Ruhi-Əsəb Xəstəlikləri Dispanserində*** qısamüddətli başçəkmə həyata keçirilmiş, müəssisədə saxlanılma şəraiti, saxlanılan şəxslərlə rəftar, əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti öyrənilmişdir.

Sumqayıt Şəhər Ruhi-Əsəb Xəstəlikləri Dispanserinin bütün obyektlərinə baxış keçirilmiş, şərait, tibbi xidmət, qidalanma, xəstələrə qarşı rəftarla bağlı pozuntu müşahidə olunmamışdır.

Qeyd edilməlidir ki, bu müəssisələrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin bir çoxunun icra olunduğu, o cümlədən Sumqayıt Şəhər Ruhi-Əsəb Xəstəlikləri Dispanserində xəstələrə gətirilən və təqdim olunan sovqatların qeydiyyat kitablarının səliqəyə salındığı və bu işin tam həyata keçirildiyi, xəstələrin vahid uçotunun elektron qaydada aparılması üçün dispanserin beş ədəd kompüterlə təmin olunduğu, stasionar və ambulator müalicəsi aparılan xəstələrin dərman preparatları, həmçinin tibbi ləvazimatlarla, gigiyenik vasitələrlə kifayət qədər təmin olunduğu müəyyənləşdirilmişdir.

Baxış keçirilmiş müəssisənin rəhbərliyinə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilmişdir.

Müvəkkilin Psixiatriya Xəstəxanalarında saxlanılan xəstələrin gündəlik yemək xərcinin günün tələblərinə cavab vermədiyi üçün bu məbləğin artırılması ilə bağlı Nazirlər Kabineti və Maliyyə Nazirliyinə verdiyi təkliflər nəzərə alınaraq məbləğ 5 dəfəyədək artırılmışdır ki, bu da xəstələrin normal qidalanmasına səbəb olmuşdur.

### *2.2.7. Təhsil Nazirliyinin müəssisələri*

Təhsil Nazirliyinin müəssisələrinə cari ildə 7 planlı və 1 plandankənar başçəkmə həyata keçirilmişdir.

***Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 7 sayli Xüsusi İnternat Məktəbində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd qeyd edilən müəssisədə 2-ci sinif şagirdi C.N.-in döyülməsi barədə mətbuatda yayılmış məlumatların araşdırılması, eyni zamanda müəssisəyə ümumi baxışın keçirilməsi olmuşdur.

Araşdırma zamanı MPQ üzvləri müəllimə tərəfindən döyüldüyü iddia olunan C.N.-lə, həmçinin onun sinif yoldaşları və müəllimlərlə söhbət aparmışlar.

C.N.-lə aparılmış təkbətək söhbət zamanı o, məktəbin sanitar qovşağına gedərkən ayağının sürüşdüyünü və bu zaman alın nahiyəsinin divara dəydiyini bildirmiş, hadisənin necə baş verdiyini MPQ üzvlərinə yerində göstərmişdir.

C.N.-in sinif yoldaşları ilə söhbət zamanı onlar C.N.-in yıxılması barədə onun özündən eşitdiklərini və məktəbin müəllimləri tərəfindən onlara qarşı münasibətin yaxşı olduğunu bildirmişlər.

C.N.-in tibb kitabçasına baxış zamanı onun həkim müayinəsindən keçirildiyi, səhhəti ilə bağlı şikayətinin olmadığı və bu barədə müvafiq qeydlərin aparıldığı müəyyən olunmuşdur.

Hadisə ilə əlaqədar hüquq-mühafizə orqanları tərəfindən rəsmi araşdırmanın aparıldığı məlum olmuş, Müvəkkil tərəfindən Baş prokurora müraciət edilərək işin xüsusi nəzarətə götürülməsini xahiş etmişdir.

Cavab məktubunda sağlamlıq imkanı məhdud olan C.N.-in internat məktəbində xəsarət alması ilə bağlı toplanmış materialda Azərbaycan Respublikası CM-nin 296.1 (bilə-bilə yalan xəbərçilik etmə) və 314.1-ci (səhlənkarlıq)

maddələrində nəzərdə tutulmuş cinayətlərin əlamətləri mövcud olduğundan və göstərilən xüsusatların araşdırılması üçün çoxsaylı istintaq hərəkətlərinin yerinə yetirilməsinin zəruri olmasını nəzərə alaraq Bakı şəhər prokurorluğunda həmin maddələrlə cinayət işi başlanılaraq istintaqın aparıldığı, cinayət işinin mürəkkəbliyini və həcminin böyüklüyü nəzərə alınmaqla istintaqın hərtərəfli, tam və obyektiv aparılması məqsədilə istintaq planı tərtib edilməklə mütəxəssisin iştirakı ilə yetkinlik yaşına çatmamış C.N. və digər şahidlərin dindirildiyi, ifadələrin yerində yoxlanıldığı, məhkəmə-tibb ekspertizasının təyin olunduğu, əməliyyat tapşırığı verildiyi və müvafiq orqanlara sorğuların göndərildiyi bildirilmişdir.

Eyni zamanda o da məlum olmuşdur ki, aparılmış araşdırmalar nəticəsində məktəbin direktoru vəzifəsindən kənarlaşdırılmış, daha sonra isə internat məktəbi ümumiyyətlə bağlanılmışdır.

***Balakən Rayonu Ümumi Orta İnternat Məktəbində*** başçəkmə zamanı 95 (45 qız, 50 oğlan) şagirdin təhsil aldığı, 40 nəfər şagirdin isə məktəbdə daimi qaldığı məlum olmuşdur. Məktəb yataqxanası 40 yerlikdir, məktəbin müəllim heyəti 25 nəfərdən ibarətdir, həmçinin 40 texniki işçi və 9 tərbiyəçi fəaliyyət göstərir.

Başçəkmə zamanı məktəb binasının və yataqxananın təmirsiz vəziyyətdə olduğu, siniflərin və yataqxananın odun sobaları ilə isidildiyi, həmçinin mətbəxdə işlək vəziyyətdə 1 soyuducunun olduğu, camaşırxananın isə istifadə olunmadığı müəyyən edilmişdir.

Gündəlik ərzaq norması Nazirlər Kabinetinin 1994-cü il tarixli 103 saylı qərarı ilə təsdiq edilmişdir və şagirdlər gündə 3 dəfə yeməklə təmin olunurlar. Habelə internat məktəbi daimi su ilə təmin edilmişdir.

***Gəncə Şəhər Təhsil İdarəsinin Gəncə şəhər Sanatoriya Tipli İnternat Məktəbində*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı ümumi ərazisi 2 hektardan ibarət olan məktəbin 1961-ci il tarixdən istifadəyə verildiyi, hazırda məktəbin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin Nümunəvi nizamnaməsi" əsasında hazırlanmış və İnternat-Məktəbin 2011-ci il 21 fevral tarixli 4 saylı pedaqoji şurasında qəbul edilmiş Nizamnamə əsasında fəaliyyət göstərdiyi, məktəbin Gəncə Şəhər Təhsil İdarəsi tərəfindən maliyyələşdirildiyi, məktəbin 3 mərtəbədən ibarət olan yataqxana və 2 mərtəbəli təhsil korpusu olmaqla iki böyük binadan ibarət olduğu, məktəbdə 9 illik tədrisin həyata keçirildiyi və təyinatı etibarilə əsasən aztəminatlı ailələrin uşaqları üçün nəzərdə tutulduğu, hazırda məktəbin 9 sinif otağında 136 şagirdin təhsil aldığı, onların məktəbə qəbulunun burada təşkil edilən xüsusi komissiya tərəfindən həyata keçirildiyi məlum olmuşdur.

Başçəkmə zamanı bütövlükdə məktəbin binasının köhnə, yararsız vəziyyətdə olması müşahidə edilmiş, məktəb rəhbərliyinin verdiyi məlumata əsasən fəaliyyətə başladığı 1961-ci ildən bu günədək məktəbin binası əsaslı şəkildə təmir edilməmişdir.

Bununla yanaşı başçəkmə zamanı məktəb binasında təmir işlərinin aparıldığı müşahidə edilmiş, məktəb direktoru tərəfindən məlumat verilərək hazırda Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən əsaslı təmir işlərinin başlanıldığı bildirilmişdir.

Burada olan şagirdlərlə görüş zamanı onların qidalanması, pedaqoji heyətin onlarla rəftarı araşdırılmış hər hansı narahatlıq müəyyən edilməmişdir.

***Goranboy Rayon İnternat Ümumi Orta Məktəbində*** başçəkmə zamanı şagirdlərin saxlanılma şəraiti və onlara qarşı rəftar məsələləri araşdırılmış, müəssisənin bütün obyektlərinə baxış keçirilmişdir. Saxlanılma şəraiti və rəftar qənaətbəxş hesab edilsə də, burada bir sıra nöqsan və çatışmazlıqlar da aşkar olunmuşdur.

Belə ki, məktəbdə şagirdlərin ildə bir dəfə paltarla təmin olunması tələbata cavab vermir; məktəbin qazanxana binasının təmirə ehtiyacı var; sanitar qovşağı normalara cavab vermir; yeməkxananın yerləşdiyi binanın dam örtüyünün güclü külək nəticəsində dağıldığı müşahidə edilmişdir (verilmiş məlumata əsasən, məktəb rəhbərliyinin bununla bağlı bir sıra dövlət orqanlarına müraciətləri nəticəsiz qalmışdır).

Göstərilən məsələlərlə bağlı Müvəkkil tərəfindən TN-yə müraciət edilmişdir.

Cavab məktubundan məlum olmuşdur ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın layihəsində Goranboy şəhəri R.Ağakişiyev adına Ümumi orta internat məktəbində əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmuşdur.

Eyni zamanda bildirilmişdir ki, yumşaq inventar üçün büdcədən ayrılmış vəsait intemat məktəbindəki 121 nəfər şagirdin müvafiq geyim əşyaları ilə təminatı üçün azlıq təşkil etdiyindən bu məqsədə yönəlmiş vəsaitin artırılması barədə məsələyə rayon maliyyə idarəsində yenidən baxılacaqdır.

Məktəbin qazanxana sisteminin və dam örtüyünün təmiri ilə bağlı rayon icra hakimiyyətinin müraciəti əsasında Fövqaladə Hallar Nazirliyi tərəfindən ayrılmış komissiya binaya yerində baxış keçirib sənədləşdirmiş və yaxın vaxtlarda təmirə başlanması nəzərdə tutulmuşdur. Məktəbin sanitar qovşağı və kanalizasiya xətlərindəki çatışmazlıqlar isə daxili imkanlar hesabına aradan qaldırılmışdır.

Qeyd olunmalıdır ki, YUNİSEF-lə birgə müvafiq layihə çərçivəsində MPQ tərəfindən cəlb olunmuş ekspertlərlə birlikdə TN-nin bir sıra müəssisələrinə başçəkmələr həyata keçirilmişdir.

***Quba Xüsusi Peşə Məktəbində*** başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisənin mövcud durumu və uşaqların sayının azlığı bu müəssisənin statusunun və iş prinsiplərinin dəyişdirilməsini zəruri edir. Müəssisədə uşaqların peşə təhsilinə cəlb olunması və sosial adaptasiyası üçün iş aparılmır. Müəssisədə psixoloq vəzifəsi vakant olaraq qalmışdır.

Eyni zamanda müəssisədə olan 8 uşaq üçün 27 nəfər əməkdaşın xidmət göstərməsi onu deməyə əsas verir ki, müəssisə artıq bir struktur kimi öz

fəaliyyətini doğrultmur. Eyni zamanda müəssisənin fəaliyyətini tənzimləyən Nizamnamə günün tələblərinə cavab vermir.

***Quba Şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbində*** başçəkmə zamanı müəssisədə psixoloq ştat vahidinin vakant olduğu, məktəbin binasının təmirə dayandırıldığı üçün yaxınlıqda yerləşən təmirsiz və qış mövsümü üçün yararsız olan uşaq bağçasında yerləşdirildiyi məlum olmuşdur. Uşaqlarla fərdi görüşlər zamanı onların hər hansı pis rəftara məruz qalmaları müəyyən edilməmiş, müəssisədə uşaqların peşə təhsilinə cəlb olunması üçün imkanların mövcud olmadığı da aşkarlanmışdır.

***Lənkəran Şəhər Sağlamlıq İmkanı Məhdud Uşaqlar üçün Xüsusi İnternat Məktəbində*** başçəkmə zamanı müəssisədə bir sıra problemlər müəyyən olunmuşdur:

Müəssisədə çalışan əməkdaşlar uşaq hüquqları ilə bağlı məlumatsızdırlar; müəssisədə olan uşaqların hüquq və vəzifələri, uşaq hüquqları ilə bağlı məlumatları yetərincə deyildir; müəssisənin psixoloqu ilə fərdi görüş zamanı onun ayrıca otağının olmaması səbəbindən tibb otağının giriş hissəsində çalışdığı, bu mühitdə uşaqlarla səmərəli və peşəkar psixoloji xidmətlər aparmanın mümkünsüz olduğu, psixoloqun öz iş sahəsini dərin bilmədiyi, psixoloji testlər və qrup işlərinin təşkili ilə bağlı məlumatının olmadığı və ümumiyyətlə uşaqlarla psixoloji işin aparılmadığı məlum olmuşdur; internatda olan müəllimələrin uşaqlara xəstə deyə müraciət etmələri; internatda, xüsusi ilə də balaca uşaqların dərs və yataq otaqlarında taxta çubuqlar aşkar edilmiş, siniflərin birinə daxil olarkən müəllimənin dərs zamanı əlində taxta çubuqla hərəkət etdiyi müşahidə edilmişdir; başçəkmə müddətində həkimin işdə olmaması, eyni zamanda, yeməklərin hazırlanması ilə bağlı sənədlər uzun müddət həkim tərəfindən imzalanmamışdır.

***Lerik Şəhər V. İbrahimov adına Tam Orta İnternat Məktəbində*** başçəkmə zamanı müəssisədə müəllimlərin uşaq hüquqları sahəsində məlumatsızlığı, iş vaxtı olmasına baxmayaraq psixoloqun işdə olmaması, müəssisədə uşaqların yataq və sinif otaqlarında səliqəsizlik və natəmizlik müəyyən edilmişdir.

Qeyd olunmuş müəssisələrdə aparılmış başçəkmələrin nəticələri ilə bağlı TN-yə müraciət edilmişdir.

Quba şəhər valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbində Təhsil Nazirliyinin investisiya proqramına əsasən, əsaslı təmir işləri aparılır. Nazirliyin internat məktəbinin digər müəssisədə yerləşdirilməsi ilə bağlı müraciətinə əsasən, Qusar Rayon İcra Hakimiyyəti tərəfindən internat məktəbi müvəqqəti olaraq bağçanın istifadəsiz qalmış binasında yerləşdirilmişdir.

Bununla yanaşı, uşaqların peşə təhsilinə cəlb olunması üçün əsaslı təmir zamanı internat məktəbində tədris emalatxanasının yaradılması nəzərdə tutulmuşdur.

MPQ tərəfindən Lənkəran şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində aparılan monitorinq zamanı internat məktəbinin

psixoloqunun peşə bacarığının aşağı səviyyədə olması müəyyənləşdirildiyindən o, tutduğu vəzifədən azad edilmişdir. Müəssisə rəhbərliyi tərəfindən yüksək peşə hazırlıqlarına malik psixoloqun işə cəlb olunması ilə bağlı tədbirlər görülür.

Məktəb rəhbərliyinin verdiyi arayışa əsasən, tədris zamanı müəllimin əlində olan çubuq yalnız ibtidai siniflərdə hərfləri və riyazi rəqəmləri şagirdlərə göstərmək üçün istifadə edilən göstərici çubuğudur.

Lerik şəhər V.İbrahimov adına tam orta internat məktəbinin rəhbərliyi tərəfindən monitorinq zamanı aşkar edilmiş nöqsanlarla bağlı təqdim olunan arayışda işə gecikdiyinə görə psixoloqa töhmət verildiyi bildirilmişdir.

### *2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrə cari il ərzində 10 başçəkmə həyata keçirilmişdir.

***9 saylı İxtisaslaşdırılmış Ruhi-Əsəb, Əlil və Qocalar üçün İnternat Evində*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə olan şəxslərə qarşı rəftar, saxlanılma şəraiti və qidalanma məsələlərinin araşdırılması olmuşdur.

İnternat evinin 217 nəfər üçün (18 yaşından yuxarı) nəzərdə tutulduğu, başçəkmə günü 211 nəfərin (103 kişi, 108 qadın) saxlanıldığı məlum olmuşdur.

Müəssisənin bütün obyektlərinə, o cümlədən mətbəxə, yeməkxanaya baxış keçirilmiş, soyuducuda saxlanılan qidaların keyfiyyəti, istehsal və istifadə müddəti yoxlanılmışdır.

Müəyyən olundu ki, əvvəlki başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisə rəhbərinə şəraitlə əlaqədar bildirilmiş iradlar və tövsiyələr müsbət həllini tapmışdır.

Belə ki, müəssisənin daxili divarlarında kosmetik təmir işləri aparılmış, bütün yorğan-döşək dəstləri yenilənmiş, həyətdə istirahət üçün yeni guşə tikilmiş, müəssisənin ərzaq anbarında və mətbəxdə səliqə-səhman yaradılmışdır.

Eyni zamanda burada cəmi 1 həkim ştatının olması, bundan başqa gecə növbəsində tibb işçisinin olmamasının saxlanılan şəxslərə göstərilən tibbi xidmətin keyfiyyətinə təsir göstərdiyi müəyyən edilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə şəraitlə əlaqədar bir sıra tövsiyələr verilmişdir.

Həmçinin başçəkmənin nəticələri ilə bağlı Müvəkkil tərəfindən ƏƏSMN-ə müraciət edilmişdir.

*Həmin müəssisədə* həyata keçirilmiş təkrar başçəkmə zamanı saxlanılma şəraiti və rəftarla bağlı nöqsan aşkar edilməmişdir.

***Müalicə Pansionatında*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd bu müəssisədə olan şəxslərə qarşı rəftar, saxlanılma şəraiti və qidalanma məsələlərinin araşdırılması olmuşdur.

Müəssisənin rəhbərliyi ilə söhbət zamanı pansionatda 45 nəfərin qaldığı, onların Ramanı və Bilgəh qəsəbələrində olan sosial müəssisələrdən buraya köçürüldükləri bildirilmişdir.

Araşdırma zamanı məlum olmuşdur ki, müəssisə 1 yaşayış korpusundan ibarətdir ki, həmin korpusun ancaq 1 və 2-ci mərtəbələrində əlillər yerləşdirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri müəssisədəki şəraitlə tanış olmuş, burada yaşayan əlillərlə söhbət edərək onların problemlərini öyrənmişlər.

Binanın ümumilikdə əsaslı təmirə ehtiyacı olduğu, liftin işləməməsi səbəbindən əlil insanların 2-ci mərtəbəyə çıxıb-düşməsində ciddi çətinliklər yarandığı (xüsusən əlil arabalarında hərəkət edənlər üçün), yanğın təhlükəsizliyinə əməl olunmadığı (fövqəladə vəziyyətlərdə əlil insanların oradan çıxarılmasında çətinliklərin yarana biləcəyi), müəssisədə 2 otaq istisna olmaqla hamamın olmadığı, içməli suyun əlillər tərəfindən kənardan daşındığı və sanitar qovşağın istifadəyə yararsız olduğu müəyyən edilmişdir.

Pansionatın otaqlarına baxış zamanı buranın sanitar normalara cavab verməsdiyi müəyyən edilmişdir.

Bundan əlavə, sakinlər onlara burada müvəqqəti olduqlarının deyildiyini, tez-tez yerdəyişmələrin onların əhvalına mənfi təsir göstərdiyini, daimi bir yerdə məskunlaşmaq istədiklərini bildirmişlər.

Eyni zamanda müəssisə rəhbərliyi və sakinlərlə söhbət zamanı bu müəssisənin profilinin qeyri-müəyyən olduğu, sakinlərin bir hissəsinə ərzaq məhsullarının bişirilmiş halda, digər hissəsinə isə ərzaq halında verildiyi, ayın sonunadək isə ümumiyyətlə qida təminatının dayandırılacağı bildirilmişdir.

Qəbul edilmiş şəxslərdən N.S. uşağının 5 yaşı olduğunu bildirmiş, tez-tez yerdəyişmələrə görə indidən uşağın hansı məktəbə qoyacağını ayırd edə bilmədiyini söyləmişdir.

H.M. şəhər qeydiyyatına alınmalı olduğu halda bunun edilmədiyini, nəticədə lazım olan hər hansı arayış və digər sənədlərə görə qeydiyyatda olduğu Neftçala rayonuna getmək məcburiyyətində qaldığını bildirmişdir. Ona bu məsələ ilə əlaqədar yazılı ərizə ilə Müvəkkilə müraciət etməsi tövsiyə olunmuşdur.

H.H. şəraitin yaxşılaşdırılması istəyini bildirmiş, söhbət aparılmış digər şəxslər isə lift və şəraitlə bağlı digər çatışmazlıqlardan şikayət etmişlər.

Başçəkmənin sonunda qeyd olunan çatışmazlıqlar müəssisə rəhbərinin diqqətinə çatdırılmışdır.

Başçəkmənin nəticələri ilə bağlı Müvəkkil tərəfindən ƏƏSMN-nə müraciət edilmişdir.

***Müharibə və Əmək Əlilləri üçün Pansionatında*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd bu müəssisədə olan şəxslərə qarşı rəftar, saxlanma şəraiti və qidalanma məsələlərinin araşdırılması olmuşdur.

Müəssisənin direktoru ilə söhbət zamanı pansionatın ümumi limitinin 350 nəfər üçün nəzərdə tutulduğu, faktiki orada 133 nəfərin qaldığı bildirilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün bölmələrinə baxış keçirilmiş, oranın sakinləri ilə görüşülmüş və söhbət aparılmışdır. Qeyd edilməlidir ki, sakinlər pansionatın yeni təyin olunmuş direktorunun fəaliyyətini müsbət qiymətləndirmiş və son aylarda baş verən tədbirlərdən razılıqlarını bildirmişlər.

Eyni zamanda müəssisədə dərman təminatının məhdud olduğu, herontoloq və stomatoloqun, gecə növbəsində həkimin, əlillərin (cəmiyyətə inteqrasiya məqsədi ilə) uzaq məsafəyə gəzintilərinin təşkili üçün avtomobilin, pensiyaçıların kart vasitəsi ilə təqaüdlərini almaları üçün yaxınlıqda bankomatın və müəssisədə təbii qazın olmadığı narahatlıq doğurmuşdur. Bundan başqa, müəssisənin fəaliyyətini tənzimləyən əsasnamənin müasir tələblərə cavab vermədiyi müəyyən edilmişdir.

Başçəkmənin nəticələri ilə bağlı Müvəkkil tərəfindən ƏƏSMN-nə, müəssisənin təbii qazla təmin olunması üçün isə "Azəriqaz" İstehsalat Birliyinə müraciət edilmişdir.

"Azəriqaz" İstehsalat Birliyindən alınmış cavab məktubunda pansionatın qazlaşdırılması üçün verilmiş texniki şərt əsasında layihə-smeta sənədləri hazırlanmış, sifarişçi təşkilat tərəfindən layihə-smeta sənədlərinə uyğun olaraq pansionatın qazlaşdırılması üzrə tikinti-quraşdırma işləri həyata keçirildikdən sonra müvafiq texniki-icra sənədləri təqdiın edilməklə qazın verilməsi barədə rayon qaz istismar sahəsinə müraciət edilməli olduğu bildirilmişdir.

***Göygöl Rayonu 8 saylı Ruhi-Əsəb Təmayüllü İnternat Evində*** başçəkmə həyata keçirilmişdir.

135 nəfərlik müəssisədə saxlanılan 119 xəstənin hamısının qadın olduğu, onların əsasən şizofreniya və oliqofreniyadan əziyyət çəkdikləri məlum olmuşdur.

Müəssisəyə baxış keçirilərkən müəyyən edilmişdir ki, müəssisənin binası 4 mərtəbəlidir ki, ikinci mərtəbə inzibati heyət üçün nəzərdə tutulmuşdur. Xəstələr üçün palatalar yerləşən 4-cü mərtəbəsi ilə tanışlıq zamanı buradakı vəziyyətin normal olduğu müəyyən edilmişdir. İnventar anbarına da baxış keçirilmişdir. Palatalarda olan xəstələrlə görüş zamanı saxlanılma şəraitindən və əməkdaşların rəftarından şikayət edən olmamışdır. Palatalardakı döşək ağlarının normal, təmiz olduqları müşahidə edilmişdir.

Müəssisənin 3-cü mərtəbəsi ilə tanışlıq zamanı burada da palataların və koridorun vəziyyətinin normal olduğu, palataların elektrik qızdırıcıları ilə isidildiyi, koridorda xəstələr üçün televizor quraşdırıldığı müəyyən edilmişdir. Həmin mərtəbədə xəstəliyi ağırlaşan və digər xəstələr üçün təhlükə törədən xəstələrin izolyasiya edilməsi üçün müvafiq iki nəfərlik palatanın olması müşahidə edilmişdir. Lakin həmin palataya köçürmə zamanı, həmçinin belə xəstələrə xüsusi vasitələrin tətbiqi zamanı müvafiq qeydlərin aparıldığı jurnalın olmadığı, belə hallara nəzarətin lazımi qaydada təşkil edilmədiyi müəyyənləşdirilmişdir ki, bu hal da saxlanılan şəxslərin hüquqlarının pozulmasına şərait yarada biləcək hal kimi qiymətləndirilir.

Müəssisənin 1-ci mərtəbəsi ilə tanışlıq zamanı palataların və koridorun vəziyyətinin normal olduğu, xəstələrlə görüş zamanı saxlanılma şəraitindən, əməkdaşların rəftarından şikayətin olmadığı müəyyən edilmişdir.

Bununla yanaşı, müəssisədəki bütün mərtəbələrdə sanitar qovşaqların hamısında təmirə ehtiyacın olduğu müəyyən edilmişdir.

Müəssisədə həmçinin xəstələrin asudə vaxtlarının səmərəli təşkili üçün tikiş, gözəllik, əmək və kompüter otaqlarının fəaliyyət göstərdiyi məlum olmuşdur.

Müəssisənin birinci mərtəbəsində yerləşən mətbəx və yeməkxanası ilə tanışlıq zamanı buradakı vəziyyətin qənaətbəxş olduğu müşahidə edilmişdir.

Müəssisənin ərzaq anbarı, qazanxanasına, camaşırxanasına baxış keçirilmişdir. Müəssisənin balansında olan 4 avtomobildən heç birinin işlək vəziyyətdə olmadığı, çörək bişirilmə məntəqəsində sobanın işləmədiyi, çörəyin kənardan alınaraq gətirildiyi müşahidə edilmişdir.

Müəssisənin əsas problemlərindən birinin də binanın qazlaşdırılmaması olduğu məlum olmuşdur.

Başçəkmə zamanı buradakı xəstələrin digər xəstəliklərə görə kompleks tibbi müayinədən keçməsinə ehtiyac olduğu da müəyyən edilmişdir. Məsələn, xəstələrdən H.S. ayağında mil olmasına baxmayaraq, müəssisədə ixtisaslı həkim olmadığından ona tibbi yardım göstərilməyərək mil çıxarılmamışdır. Həmin xəstənin digər tibb müəssisəsində əməliyyatı isə müəssisənin maddi imkansızlığından mümkün olmamışdır.

Baxışın nəticələrinə əsasən qeyd edilən problemlərin aradan qaldırılması üçün Müvəkkil ƏƏSMN-ə müvafiq tövsiyələr (müəssisənin fəaliyyətini tənzimləyən müasir dövrün tələblərinə cavab verən yeni Təlimatın qəbul edilməsi; izolyasiya otağına keçirilmə və xüsusi vasitələrin tətbiqi zamanı müvafiq qeydlərin aparılmasının təşkili; müəssisənin ixtisaslı kadrlarla təmin edilməsi; xəstələrin mütəmadi olaraq digər xəstəliklərinə görə tibbi müayinədən keçirilməsi; müəssisənin balansında olan nəqliyyat vasitələrinin təmir edilməsi; müəssisənin çatışmayan qeyd edilən zəruri inventarlarla təmin edilməsi; müəssisə əməkdaşlarının fəaliyyətləri ilə bağlı müvafiq normativ aktlarla müntəzəm tanış edilməsi) ünvanlamışdır.

***Əlil və Fiziki Qüsurlu Uşaqlar üçün 7 saylı İnternat Evində*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd bu müəssisədə olan uşaqlara qarşı rəftar və saxlanma şəraitinin araşdırılması olmuşdur.

Başçəkmədə MPQ üzvləri ilə yanaşı Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansının idarə heyətinin sədri Nazir Quliyev də ekspert qismində iştirak etmişdir.

Araşdırma zamanı müəssisənin bütün obyektlərinə baxış keçirilmiş, şərait və saxlanılanlara qarşı rəftar qənaətbəxş qiymətləndirilmişdir.

Adı çəkilən müəssisə 2010-cu ildə müasir standartlara uyğun şəkildə yenilənmiş, zəruri avadanlıqlarla təchiz edilmişdir.

Başçəkmənin sonunda internat evinin rəhbərinə müvafiq tövsiyələr verilmişdir.

***Əqli Qüsurlu Uşaqlar üçün 3 saylı İnternat Evində*** də uşaqlara qarşı rəftar və saxlanılma şəraitinin qiymətləndirilməsi məqsədi ilə başçəkmə həyata keçirilmişdir. Başçəkməyə ekspert qismində Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansının idarə heyətinin sədri cəlb edilmişdir.

Müəssisənin bütün obyektlərinə baxış keçirilmişdir. Müəssisənin standartlara uyğun şəkildə yenidən qurulduğu və lazımi avadanlıqlarla təchiz edildiyi məlum olmuşdur.

Başçəkmənin nəticəsi olaraq saxlanılma şəraiti və uşaqlarla davranış qaydaları qənaətbəxş hesab edilmişdir.

Bundan başqa, YUNİSEF-lə birgə layihə çərçivəsində MPQ tərəfindən cəlb olunmuş ekspertlərlə birlikdə ƏƏSMN-nin *Əqli qüsurlu uşaqlar üçün 3 və 7 saylı internat evlərinə* təkrar başçəkmələr həyata keçirilmiş və orada saxlanılan uşaqlarla bağlı vəziyyət qiymətləndirilmişdir.

### *2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri*

YUNİSEF-lə birgə layihə çərçivəsində MPQ tərəfindən cəlb olunmuş ekspertlərlə birlikdə ***Bakı Şəhər İcra hakimiyyətinin 1 və 2 saylı uşaq evlərində,*** habelə ***Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan uşaq evində*** başçəkmələr keçirilmiş və orada saxlanılan uşaqlarla bağlı vəziyyət qiymətləndirilmişdir.

***1 saylı uşaq evində*** keçirilmiş başçəkmə zamanı vəziyyət qənaətbəxş qiymətləndirilmişdir. Uşaqlarla görüş zamanı pis rəftarla bağlı hər hansı iddia irəli sürülməmişdir. Müəssisənin yanında Azərbaycanda ilk dəfə olaraq müəssisəni tərk edən oğlan və qızlar üçün müasir standartlara cavab verən 100 yerlik yataqxana istifadəyə verilmişdir. Burada hazırda 7 qız və 1 oğlanın qaldığı məlum olmuş, qızlardan ikisinin müəssisədə dayə kimi işə qəbul edilməsi təqdirə layiq hal kimi qiymətləndirilmişdir.

Müəssisədə əməkdaşlar və saxlanılan uşaqlar üçün uşaq hüquqları mövzusunda təlimin keçirilməsi tövsiyə edilmişdir.

***2 saylı uşaq evində*** keçirilmiş başçəkmə zamanı müəssisədə limit üzrə 145 uşaq saxlanıla biləcəyi halda orada 150 nəfər uşağın olduğu aşkar edilmişdir. Uşaqlarla görüşlər zamanı pis rəftarla bağlı hər hansı şikayət edilməmişdir. Müəssisədə Bakıda ilk dəfə olaraq Günərzi Qayğı Mərkəzi yaradılmışdır. Mərkəzə ətraf ərazidə sosial ehtiyacı və uşaqları dövlət uşaq müəssisələrinə düşmək riski olan ailələrin uşaqları qəbul olunur.

Başçəkmənin nəticəsi olaraq müəyyən edilmişdir ki, müəssisə əməkdaşlarının və uşaqların uşaq hüquqları sahəsində təlimlərə cəlb olunmasına ehtiyac var. Eyni zamanda, müəssisəni tərk edən uşaqların sosial problemlərinin həll olunması ilə bağlı fəaliyyətin həyata keçirilməsi vacibdir.

*3 saylı uşaq evi* təmirə dayandırıldığından oraya başçəkmə həyata keçirilməsi mümkün olmamışdır.

### 2.3. Dövlət orqanları ilə əməkdaşlıq

Müvəkkil ilk günlərdən olduğu kimi, 2014-cü ildə də MPM qismində fəaliyyətini dövlət orqanları ilə sıx əməkdaşlıq çərçivəsində qurmağa çalışmışdır.

Azərbaycan MPM-i hər il olduğu kimi, 2014-cü ildə də əməkdaşlıq çərçivəsində MPM-in 2013-cü il üzrə hesabatını müvafiq nazirliklərə göndərərək onun aidiyyəti üzrə öyrənilməsini, qeyd olunmuş çatışmazlıqların aradan qaldırılmasını, irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi istiqamətində görülmüş tədbirlər barədə məlumatların təqdim olunmasını xahiş etmişdir.

Müvəkkilə göndərilmiş məktublardan görünür ki, onun həm müvafiq müraciəti diqqətlə öyrənilmiş, təklif və tövsiyələrin əksəriyyəti yerinə yetirilmiş, həm də il ərzində həyata keçirdiyi başçəkmələrin nəticələri üzrə dövri müraciətləri nəzərə alınımışdır.

**DİN** tərəfindən müvafiq arayış verilərək MPM-in hesabatında qeyd olunan aidiyyəti təklif və tövsiyələri ilə bağlı aşağıdakılar bildirilmişdir:

*I. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində 2-ci bənd üzrə (Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Həbs yerlərinin daxili intizam qaydaları"nın təsdiq olunmasının tezləşdirilməsi);*

"Həbs yerlərinin daxili intizam Qaydaları" təsdiq olunmuş və həmin qərar Daxili İşlər Nazirliyinin 14.03.2014-cü il tarixli Ə220-001-14 nömrəli əmri ilə xidməti fəaliyyətdə rəhbər tutulması üçün respublika daxili işlər orqanlarında elan edilmişdir.

*3-cü bənd üzrə (İnzibati həbs olunanların saxlanılma qaydasını tənzimləyən yeni qanun layihəsinin hazırlanması);*

İnzibati həbs olunanların saxlanılması və mühafizəsi qaydalarını, xidmət aparan əməkdaşların hüquq və vəzifələrini müəyyən edən, saxlanılma rejimini, onların hüquq və vəzifələrini müəyyən edən "İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında müvəqqəti Əsasnamə"nin və "İnzibati həbs olunanların saxlanılma məntəqələrində müvəqqəti daxili intizam Qaydaları"nın yeni layihəsi hazırlanmış və təsdiq edilmişdir.

*5-ci bənd üzrə (Polis orqanlarının MSY-lərinin kameralarında quraşdırılmış videonəzarət qurğusundan istifadə, onun tətbiqi qaydaları, eyni zamanda çəkilişlərin yayılmasının qarşısının alınmasına dair müddəaları özündə əks etdirən müvafiq normativ aktın qəbul olunması);*

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 36.2-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərə nəzarət həyata keçirilərkən digər tədbirlərlə yanaşı, video, elektron və ya digər texniki vasitələrdən də istifadə edilə bilər.

Qeyd olunan müddəa nəzərə alınaraq DİN-in 14.01.2013-cü il tarixli Q1-001-13 nömrəli qərarı ilə təsdiq olunmuş “Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat”a bu barədə müvafiq bənd (1.12) daxil edilmişdir.

*II. Təşkilati məsələlərin həlli istiqamətində 2-ci, 3-cü bəndlər üzrə (MSY-də saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qanunvericiliyin tələblərinə uyğun olaraq 24 saat ərzində İT-yə göndərilməsinin təmin edilməsi istiqamətində tədbirlər görülməsi; tutulmuş və ya həbs edilmiş şəxslərin 24 saat ərzində MSY-də ixtisaslı həkim tərəfindən ilkin tibbi müayinədən keçirilməsi işinə nəzarətin gücləndirilməsi);*

“Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardımın göstərilməsi Qaydaları” və “Tutulmuş və ya həbs edilmiş şəxslərin tibb müəssisələrində saxlanılması Qaydaları” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 aprel tarixli 67 nömrəli qərarı DİN-in 03.05.2013-cü il tarixli Ə319-001-13 nömrəli əmri ilə daxili işlər orqanlarında elan edilmiş və qərarın tələblərindən irəli gələn məsələlərin həlli istiqamətində, o cümlədən polis orqanlarının müvəqqəti saxlama yerlərində tutulmuş şəxslərin ilkin tibbi müayinədən keçirilməsi üçün dövlət tibb müəssisələrindən həkim personalının müəyyən edilməsi, ayda bir dəfədən az olmayaraq kameraların sanitar təmizləməsi, yoluxucu xəstəliyə tutulmuş şəxslərin saxlanıldığı kamerada dezinfeksiya tədbirlərinin aparılması və s. məsələlərlə bağlı zəruri tədbirlər görülmüş, habelə tutulmuş şəxslərin ilkin tibbi müayinəsinin qeydiyyatına dair tibbi kitabçalar hazırlanaraq şəhər, rayon polis orqanlarının müvəqqəti saxlama yerlərinə paylanılmışdır.

Hazırda polis orqanlarının müvəqqəti saxlama yerlərinə gətirilmiş tutulmuş şəxslərin ilkin tibbi yoxlamadan keçirilməsi barədə məlumatlar “Tutulmuş şəxsin tibbi kitabçası”na həkim tərəfindən daxil edilir, kitabça həkim və növbətçi tərəfindən imzalanır.

Tutulmuş şəxsdə işgəncə və qeyri-insani rəftar nəticəsində törədildiyi güman edilən bədən xəsarəti müəyyən edildikdə bu barədə həmin kitabçanın müvafiq səhifəsində qeydlər aparılır, tutulmuş şəxsin və həkimin imzası ilə təsdiq edilir, eyni zamanda faktla bağlı prokurorluğa məlumat verilir.

Müvəqqəti saxlama yerlərində qanunçuluğun möhkəmləndirilməsi, saxlanılan şəxslərin hüquqlarının təmin olunması və saxlama şəraitinin yaxşılaşdırılması barədə respublikanın şəhər, rayon polis orqanlarına müvafiq göstəriş göndərilmiş və icrası nəzarətdə saxlanılır.

*4-cü bənd üzrə (MSY-də saxlanılan şəxslərin kameradan çıxarılarkən və qaytarılarkən hərəkət jurnallarında aparılan qeydiyyatın təkmilləşdirilməsi);*

DİN-in 14.01.2013-cü il tarixli Q1-001-13 nömrəli qərarı ilə təsdiq olunmuş “Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat”ın 6.7-ci bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər MSY-nin istintaq və görüş otaqlarına, gəzinti həyətinə

aparılarkən ümumi sanitar qovşağına, sanitar-təmizləmə keçirilərkən, MSY-dən azad olunarkən, başqa kameraya köçürülərkən, kamerada axtarış aparılarkən təbii fəlakət və fövqəladə hadisə ilə bağlı kameralardan çıxarılırlar.

Tutulmuş və ya həbs edilmiş şəxslərin hər dəfə kameralardan çıxarılıb istintaq və görüş otaqlarına, məhkəmə iclaslarına, istintaq hərəkətləri keçirilən yerlərə aparılmaları barədə daxili intizam qaydaları ilə nəzərdə tutulmuş kitabda müvafiq qeydlər aparılır.

*5-ci bənd üzrə (müvafiq polis əməkdaşları arasında ”Həbsdə saxlanılan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi haqqında“ Azərbaycan Respublikası Qanununun geniş təbliğinin aparılması);*

DİN-in rəhbərliyinin müvafiq göstərişinə əsasən “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Qanunun şəhər, rayon polis orqanlarının aidiyyəti əməkdaşları tərəfindən öyrənilməsi və onlardan məqbulların götürülməsi təmin edilmişdir.

Qeyd olunan qanunun tələblərinə əsasən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26.02.2014-cü il tarixli 63 nömrəli qərarı ilə təsdiq olunmuş “Həbs yerlərinin daxili intizam Qaydaları” DİN-in 14.03.2014-cü il tarixli Ə220-001-14 nömrəli əmri ilə xidməti fəaliyyətdə rəhbər tutulması üçün daxili işlər orqanlarında elan edilmiş, həmin qərardan irəli gələn məsələlərin icrası ilə bağlı zəruri tədbirlər həyata keçirilmiş, habelə saxlanılan şəxslərin hüquq və vəzifələri barədə müddəaların rus, ingilis dillərində çap olunaraq müvəqqəti saxlama yerlərində asılması təmin edilmişdir.

Respublikanın şəhər, rayon polis orqanlarının müvəqqəti saxlama yerlərində xidməti fəaliyyətin effektivliyinin artırılması məqsədilə zonalar üzrə seminar-məşğələlərin keçirilməsi nəzərdə tutulmuşdur.

*7-ci bənd üzrə (İnzibati həbs olunanların saxlanma məntəqəsində saxlanılan şəxslərin vicdan azadlığını təmin etmək üçün ibadət otağının yaradılması);*

inzibati həbs olunanların saxlanılma məntəqəsində inzibati həbs olunmuş şəxsə dini ayinləri yerinə yetirməsi üçün müvafiq şərait yaradılmışdır.

*8 və 9-cu bəndlər üzrə (inzibati həbsin 15 gündən 3 ayadək uzadılmasını nəzərə alaraq, inzibati həbs olunanların saxlanma məntəqələrində şəraitin təkmilləşdirilməsi (məsələn, duşların sayının artırılması, görüş otaqlarının yaradılması və s.); Bakı Şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlanma məntəqəsinin təmirə ehtiyacını nəzərə alaraq, bu istiqamətdə işlərin aparılması);*

Daxili işlər Nazirliyinin 25.01.2014-cü il tarixli Ə64-001-14 nömrəli əmrinə əsasən inzibati həbs olunanların saxlanılma məntəqəsi Bakı Şəhər Baş Polis İdarəsinin bilavasitə tabeliyindən çıxarılaraq DİN-in Baş İctimai Təhlükəsizlik idarəsinin bilavasitə tabeliyinə verilmişdir.

Hazırda inzibati həbs olunanların saxlanılma məntəqəsində mövcud şəraitin daha da yaxşılaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə əsaslı təmir və yenidənqurma işlərinə başlanılmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 30 iyul tarixli 130 nömrəli qərarı ilə təsdiq edilmiş

“Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları” ilə müəyyən olunmuş xidməti otaqlarla təchiz edilməsi nəzərdə tutulmuşdur.

*10-cu bənd üzrə (İnzibati həbs olunanların saxlanma məntəqəsində asudə vaxtın səmərəli keçirilməsi üçün əlavə tədbirlərin görülməsi (televizorların quraşdırılması və s.);*

“İnzibati həbs olunanların saxlanılma məntəqələrində müvəqqəti daxili intizam Qaydalam”nın yeni layihəsində kameralarda saxlanılan inzibati həbs olunanların ümumi istifadəsi üçün stolüstü oyunların (domino, şahmat, dama), qəzet və jurnalların verilməsi, məntəqənin kameralarına televizorların quraşdırılması, həbs olunmuş şəxsin öz vəsaiti hesabına ticarət şəbəkəsindən ədəbiyyat, qəzet və ya jurnal əldə etmək məsələsi təmin edilmişdir.

*11-ci bənd üzrə (MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində kameralarda olan elektrik lampalarının gecə vaxtı söndürülməsi və gecə işığının quraşdırılması);*

İnzibati həbs olunanların saxlanılma məntəqəsində kameraların işıqlandırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyul 2001-ci il tarixli 130 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları”nın 6.30-cu bəndinə uyğun həyata keçirilir və bu sahədə qeyd olunan çatışmazlıqlar aradan qaldırılmışdır.

*12-ci bənd üzrə (MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində saxlanılan şəxslərə gündəlik qəzetlərin verilməsi);*

Tutulmuş və ya həbs edilmiş şəxslər ədəbiyyatdan, o cümlədən xüsusi ədəbiyyatdan istifadə etmək, MSY-nin kitabxanasından istifadə üçün ədəbiyyat, qəzet və jurnal götürmək və ya öz vəsaiti hesabına MSY-nin rəisinin vasitəsilə ticarət şəbəkəsindən yazı ləvazimatı, ədəbiyyat, qəzet və jurnal əldə etmək hüququna malikdirlər.

*13-cü bənd (MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində şəxslərin dövlət hesabına gigiyenik vasitələrlə təmin olunması);*

“Müvəqqəti saxlama yerlərinin daxili intizam Oaydaları”nın 10.7-ci bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin hesablarında maliyyə vəsaiti olmadıqda onların müraciətləri əsasında kişilər üçün sabun, diş fırçası, diş pastası, birdəfəlik üzqırxan ülgüc, qadınlar üçün gigiyenik vasitələrin verilməsi nəzərdə tutulmuşdur.

Qeyd olunan vəsaitlərin inzibati həbs olunmuş şəxslərə verilməsi “İnzibati həbs olunanların saxlanılma məntəqələrində müvəqqəti daxili intizam Qaydaları”nda da nəzərdə tutulmuşdur.

DİN ilə əməkdaşlıq çərçivəsində Müvəkkilin inzibati həbs olunanlarla bağlı müasir standartlara cavab verən yeni normativ aktın hazırlanması barədə təklifi nəzərə alınaraq, inzibati həbs olunanların mühafizəsi və müşayiəti ilə bağlı xidməti fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdı-

rılması, saxlanılan şəxslərin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə "İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında Əsasnamə"nin və "İnzibati həbs olunanların saxlanılma məntəqələrinin daxili intizam Qaydaları"nın da yeni layihələri hazırlanmış, baxılıb rəy və təkliflərin bildirilməsi üçün Müvəkkilə göndərilmişdir.

Həmin layihələrə MPQ tərəfindən baxılıb Müvəkkilin təklifləri nəzərə alındıqdan sonra həmin qayda və əsasnamə təsdiq olunmuşdur.

**ƏN** tərəfindən Müvəkkilin işgəncələr əleyhinə milli preventiv mexanizm qismində fəaliyyətinə dair 2013-cü il üzrə hesabatında verilmiş tövsiyələrin həyata keçirilməsi ilə bağlı aidiyyəti məlumat təqdim edilmişdir:

*I. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində 1-ci bənd üzrə (Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində MPQ-nin qanuni fəaliyyətinə mane olmağa görə məsuliyyətin təsbit edilməsi);*

Məsələ ilə əlaqədar "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" 2011-ci il 24 iyun tarixli 163-IVKQO nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 8 avqust tarixli Sərəncamının 1.1-ci bəndinin icrası ilə bağlı hazırlanmış qanun layihəsi 17.05.2012-ci il tarixli 3/802-R693 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir.

*2-ci bənd üzrə (Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Həbs yerlərinin daxili intizam qaydaları"nın təsdiq olunmasının tezləşdirilməsi);*

"Həbs yerlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli Qərarı ilə "İstintaq təcridxanalarının daxili intizam Qaydaları" və "Müvəqqəti saxlanma yerlərinin daxili intizam Qaydaları" təsdiq edilmişdir.

*14-19-cu bəndlər üzrə (Ədliyyə Nazirliyi tərəfindən bəzi cəzaçəkmə müəssisələrində yaranmış sıxlığın aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi; inşa edilən yeni cəzaçəkmə müəssisələrinin tikintisinin sürətləndirilməsi);*

Penitensiar müəssisələrdə saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması, o cümlədən sıxlıq hallarına yol verilməməsi məqsədilə respublikanın regionlarında yeni penitensiar müəssisələrin tikintisinə diqqət artırılmışdır.

Şəki şəhərində penitensiar kompleksin tikintisi başa çatdırılaraq 2013-cü ilin iyul ayında Ombudsmanın iştirakı ilə istifadəyə verilmiş, ilin sonunda fəaliyyətə başlamışdır. Bakı şəhərinin Zabrat qəsəbəsində qadın cəzaçəkmə və tərbiyə müəssisələrində, Umbakı qəsəbəsində həbsxanada, Gəncə, Lənkəran şəhərlərində inşa edilən cəzaçəkmə müəssisələrində layihə-smeta sənədlərinə uyğun tikinti işləri dövlət tərəfindən hər il üzrə ayrılmış vəsaitlər çərçivəsində davam etdirilir. Bakı şəhərində tikiləcək yeni penitensiar müəs-

sisələrin kompleksinə yeni Müalicə müəssisəsinin inşası da daxildir. Yeni Müalicə müəssisəsində zəruri şəraitin yaradılması nəzərdə tutulmuşdur. Kürdəmir rayonunda inşa ediləcək qarışıq rejimli cəzaçəkmə müəssisəsinin layihə-smeta sənədlərinin hazırlanması işləri müvafiq təşkilatlarla razılaşdırılmaqla başa çatdırılmışdır. Maliyyə vəsaitinin ayrılmasından asılı olaraq inşaat işlərinin həyata keçirilməsi ardıcıllıqla davam etdirilir.

*20-ci bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən 5 saylı cəzaçəkmə müəssisəsinin tibb-sanitar hissəsinin yeni bina ilə təmin olunması);*

Tibb-sanitar hissəsinin binasının köhnə olduğu və bərpasının mümkün olmadığı nəzərə alınaraq yenisinin tikilməsi məqsədilə müvafiq layihə sənədləri hazırlanmış, Dövlət büdcəsinin Dövlət investisiyası xərclərindən maliyyə vəsaitinin ayrılması üçün 2013-cü və 2014-cü illərdə İqtisadiyyat və Sənaye Nazirliyi qarşısında məsələ qaldırılmış, lakin buna nail olunmamışdır. Buna baxmayaraq, 2015-ci ildə yeni müasir tələblərə uyğun tibb-sanitar hissəsinin tikilməsi üçün investisiya xərclərinin ayrılması məqsədilə layihə təklifləri aidiyyəti üzrə təqdim olunmuşdur.

Bununla yanaşı, 2014-cü ilin əvvəlində hissənin müalicə palatalarında təmir işləri aparılmış, burada 16 çarpayıdan ibarət 3 palata tam təmir olunmuşdur. Elektrik sistemi yenidən çəkilmiş, məhkumlar üçün sanitar qovşaq və hamam yenidən qurulmuş, divarlar və döşəmə kafel-metlax ilə üzlənmişdir.

Hissənin mətbəxi və məhkumların əşyalarının saxlanılması üçün ayrılan otaq əsaslı təmir olunmuş, həyətyanı sahə təmizlənmişdir. İlin sonunadək həkim və müayinə kabinetlərində təmir işlərinin başa çatdırılması nəzərdə tutulur.

*21-ci bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən 5 saylı cəzaçəkmə müəssisəsinin tibb-sanitar hissəsinin həkimlərinin fəaliyyətinin təkmilləşdirilməsi);*

Ombudsmanın müraciətində qaldırılan məsələlər (tibbi kitabçalarda müvafiq qeydlərin edilmədiyi, cərimə təcridxanasında olan məhkuma verilmiş dərmanın açıq vəziyyətdə olduğu, məhkum tərəfindən digər azadlıqdan məhrum edilmiş şəxslərə dərmanların paylandığı, stomatoloji kabinetdə müəyyən avadanlığın köhnə olduğu, su təchizatının olmadığı halda həkim-stomatoloq tərəfindən məhkumlara xidmət göstərildiyi) cari ilin mart ayında keçirilmiş Tibbi şuranın iclasında geniş müzakirə olunmuş, həkimlərin fəaliyyəti təhlil olunaraq yol verdikləri nöqsanlar ciddi tənqid olunmuşdur. Yaradılmış xüsusi komissiyanın yoxlama zamanı aşkar etdiyi çatışmazlıqlar tibb-sanitar hissəsinin kollektivinin nəzərinə çatdırılmış, məhkumun digər azadlıqdan məhrum edilmiş şəxslərə dərman paylamasının yolverilməzliyi bir daha vurğulanmış və həmin şəxsin hissədən uzaqlaşdırıldığı nəzərə alınaraq gələcəkdə belə halların təkrarlanmaması tapşırılmışdır.

Müəssisənin Bakı şəhərindən uzaq məsafədə yerləşməsinə baxmayaraq

təhkim olunmuş inspektorun və nəzarət funksiyası yerinə yetirən digər əməkdaşların tibb-sanitar hissəsinə mütəmadi başçəkmələri tapşırılaraq, tibbi kitabçalardakı qeydlərin aparılmasına və dərmanların tələb olunan şəraitdə saxlanılması hallarına hər bir halda diqqət yetirilməsi xatırlanmışdır. İlin sonunadək stomatoloji kabinetin yeni avadanlıqlarla təchiz edilməsi və fəaliyyəti üçün burada müvafiq şəraitin yaradılması barədə aidiyyəti göstərişlər verilmişdir. Milli Preventiv Qrupunun başçəkməsi zamanı aşkar edilmiş nöqsanla bağlı həkim-stomatoloqa xəbərdarlıq edilmişdir.

Həkimlərin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə tibb-sanitar hissəsinin rəisi nazirliyin İxtisaslaşdırılmış müalicə müəssisəsində və Tibb baş idarəsində keçirilən bir sıra təlimlərə cəlb edilmişdir.

*22-ci bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən məntəqə tipli cəzaçəkmə müəssisələrinin işinə nəzarətin gücləndirilməsi);*

Cəzaların icrası qanunvericiliyinə edilmiş dəyişikliklərə uyğun olaraq məntəqə tipli cəzaçəkmə müəssisələrində yeni saxlanma şəraitinin təşkili üzrə tədbirlərin həyata keçirilməsi məqsədilə maliyyə vəsaitinin ayrılması ilə bağlı aidiyyəti dövlət orqanlarına müraciətlər edilsə də, məsələ hələlik müsbət həllini tapmamışdır.

Eyni zamanda cəzaçəkmə müəssisələrinin növünün dəyişdirilməsi təcrübəsində məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilməsinin ləğvi ilə bağlı Cəzaların İcrası Məcəlləsinə dəyişikliklərin edilməsi məqsədilə nazirlik tərəfindən hazırlanmış təkliflər Azərbaycan Respublikası Prezidenti Administrasiyasına təqdim edilmişdir.

*23-cü bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən 3 saylı istintaq təcrid-xanasının tibb-sanitar hissəsində stasionar müalicə üçün palataların təşkil edilməsi);*

Tibb-sanitar hissəsi üçün ayrılmış pərakəndə otaqların bir yerdə cəmləşdirilməsi və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə 2013-cü ilin sonundan başlayaraq hissədə tam rekonstruksiya və əsaslı təmir işləri aparılmışdır. Yeni yaradılan hissədə 8 diaqnostik kabinet və iş otaqları yaradılmış, bununla yanaşı müxtəlif korpuslarda hər biri 5 çarpayılıq 4 palata da təmir edilmişdir. Bu palatalar həm stasionar müalicə, tələb olunan hallarda isə yoluxucu xəstəliklərin izolyatoru kimi istifadə edilir.

*24-cü bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən intizam tənbehlərinin və xüsusi vasitələrin yalnız xüsusi zərurət olduğu hallarda tətbiq edilməsi və bu zaman sənədləşmənin ciddi aparılmasına və mütləq şəkildə məhkumun izahatının alınması məsələsinə nəzarət edilməsi);*

Nazirliyin Penitensiar xidmətinin Əməliyyat müşavirələrində penitensiar müəssisələrdə qanunçuluğun və nizam-intizamın möhkəmləndirilməsi, məhkumların hüquqlarının qorunması, eləcə də onlara tətbiq edilən tənbeh tədbirlərinin adekvatlığı diqqət mərkəzində olmuşdur.

2013-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş 29

yanvar 2014-cü il tarixli Əməliyyat müşavirəsinin qərarında məhkumlara tətbiq edilən tənbeh tədbirlərinin pozuntunun ağırlığı, məhkumun şəxsiyyəti nəzərə alınmaqla adekvat tətbiq edilməsinin təmin edilməsi müəssisə rəhbərlərinə tapşırılmışdır. Həyata keçirilən islah tədbirləri nəticəsində 2014-cü ilin 1-ci rübü ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə 19,3% az cəzanın icrası qaydalarının pozuntusu qeydə alınmışdır. Pozuntulara görə keçən ilin müvafiq dövrü ilə müqayisədə 19,7% az tənbeh tədbiri tətbiq edilmişdir. Tətbiq edilən tənbeh tədbirləri keçən illə müqayisədə azalmış, məhkumlarla fərdi söhbətlərə üstünlük verilmişdir. Həbsxanaya keçirilən məhkumların sayı 3 dəfədən də çox azalmışdır.

Penitensiar müəssisələrdə məhkumlara xüsusi vasitələr müstəsna hallarda, qanunvericiliklə nəzərdə tutulmuş qaydada tətbiq edilir. Bu zaman Cəzaların icrası Məcəlləsinin 78-ci maddəsinin (Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirləri) və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun 43-45-ci maddələrinin tələblərinə ciddi riayət olunur. Penitensiar müəssisələrdə xüsusi vasitələrin tətbiqi ilə bağlı hər bir fakt barədə nazirliyin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyinə və Penitensiar xidmətinə məlumat verilir. Daxil olmuş məlumatla bağlı araşdırma aparılır və xüsusi vasitənin tətbiqinin əsaslılığı yoxlanılır. Xüsusi vasitələrin qanunsuz və əsassız tətbiq olunması halları qeydə alınmamışdır.

*25-ci bənd üzrə (Ədliyyə Nazirliyi tərəfindən xüsusi ilə paytaxtdan kənar rayonlarda göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, eləcə də vəkillərin və hüquq məsləhətxanalarının sayının artırılması istiqamətində tədbirlər görülməsi);*

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"na uyğun olaraq yoxsul əhalinin vətəndaş hüquqları barədə məlumatlandırılması və onların pulsuz hüquqi yardım xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi məqsədilə nazirlik tərəfindən bölgələrdə regional hüquqi məsləhət xidmətləri mərkəzlərinin fəaliyyəti təmin edilmişdir.

Bu mərkəzlər ədliyyə orqanlarının və məhkəmələrin inzibati binalarında yerləşdirilmiş, mütəxəssislər zəruri hüquq ədəbiyyatı və texniki vasitələrlə təchiz olunmuş, onların insan hüquqlarının müdafiəsinə dair beynəlxalq sənədləri və milli qanunvericiliyi dərindən mənimsəmələri diqqət mərkəzində saxlanılmışdır.

Həmçinin Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində 2010-2013-cü illər ərzində Bakı və Quba şəhərində pulsuz hüquqi məsləhət mərkəzləri fəaliyyət göstərmişdir. Mərkəzlərdə aztəminatlı əhalinin sosial hüquqlarının qorunması ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmiş, müraciət edənlərin hüquqlarının məhkəmədə təmsil edilməsi istiqamətdə işlər görülmüşdür.

Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilməsi planlaşdırılan "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində 2015-2018-ci illərdə pulsuz hüquqi yardım mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi sahəsində işlərin görülməsi nəzərdə tutulmuşdur.

Hüquqşünaslara praktiki vərdişlərin aşılanması və əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardımın göstərilməsi məqsədilə Avropa Komissiyası ilə birgə həyata keçirilən "Ədliyyə sahəsində islahatlara dəstək Proqramı" çərçivəsində nazirliyin Ədliyyə Akademiyasının nəzdində 2013-cü ilin sentyabr ayından hüquq klinikası fəaliyyətə başlamışdır. Klinikada hüquq ixtisası sahibləri tərəfindən vəkillərin və Akademiyanın müəllimlərinin nəzarəti altında əhalinin aztəminatlı təbəqəsinə-təqaüdçülərə, əlillərə, qaçqın və məcburi köçkünlərə, təhsil alan gənclərə və digər şəxslərə məsləhət formasında hüquqi yardım göstərilir.

*26-cı bənd üzrə (saxlanılan şəxslərin penitensiar müəssisələrdən müvəqqəti saxlanma yerlərinə (və əks istiqamətə) etap olunarkən bunun üçün nəzərdə tutulmuş müvafiq vaqonlarda sıxlığın və şəraitin qeyri-qənaətbəxş olmasını nəzərə alaraq bu sahədə infrastrukturun yenilənməsi);*

Həbs edilmiş şəxslərin və məhkumların daşınması məqsədilə Daxili İşlər Nazirliyinin balansında olan iki xüsusi təyinatlı vaqondan istifadə edilir. Vaqonlar həmin nazirliyin müraciəti əsasında Rusiya Federasiyasının Voronej şəhərinin Vaqon təmiri zavodunda əsaslı təmir edilmiş, Azərbaycan Respublikasının Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin 11 iyul 2013-cü il tarixdə biri və 13 yanvar 2014-cü il tarixdə isə digəri istismara buraxılmışdır.

Hər bir vaqonda olan kameraların ümumi tutumu 80 nəfərdir. Vaqonlar zəruri ləvazimatlarla təchiz edilmiş, yanğından mühafizə siqnalizasiyası quraşdırılmış, havalandırma sistemi əsaslı təmir olunmuşdur. Həbs edilmiş şəxslərin və məhkumların xüsusi vaqonla daşınması onun tutumuna uyğun həyata keçirilir.

*27-ci bənd üzrə (bəzi məhkəmələrin gözləmə yerlərinin müasir tələblərə uyğunlaşdırılması);*

Məhkəmə infrastrukturunun yeniləşdirilməsi məqsədilə "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsinə uyğun olaraq ən müasir tələblərə cavab verən konsepsiya əsasında 30-dan çox məhkəməni əhatə edən məhkəmə kompleksləri və binalarının layihələndirmə işləri aparılmışdır. Bu istiqamətdə görülən işlər çərçivəsində Bakı şəhəri Yasamal, Gəncə şəhəri Nizami və Gədəbəy rayon Məhkəmələri üçün müasir tələblərə cavab verən yeni inzibati binalar inşa edilmiş, Şəki məhkəmə kompleksinin inşasına başlanmışdır. Həmçinin, Bakı şəhəri Sabunçu rayonunda 2 məhkəmənin yerləşəcəyi məhkəmə kompleksinin, Bakı şəhəri Binəqədi, Quba, Qəbələ, İmişli və Zaqatala rayon məhkəmələrinin yeni binalarının tikintisi həyata keçirilir.

Yeni binalarda məhkəmə proses iştirakçıları üçün bütün zəruri şərait yaradılmışdır.

*28-ci bənd üzrə (həbs edilmiş şəxslərin və məhkumların saxlanılması üçün nəzərdə tutulmuş maliyyə vəsaitinin artırılması (o cümlədən qidalanma, tibbi yardım və dərman preparatları ilə təminatı) istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflərin verilməsi);*

Hər ilin yekununda növbəti il üçün həbs edilmiş şəxslərin və məhkumların saxlanması, o cümlədən qidalanmasının təşkili ilə bağlı nəzərdə tutulmuş maliyyə vəsaitinin ayrılması məqsədilə qanunvericiliklə nəzərdə tutulmuş normalara uyğun Maliyyə Nazirliyinə təkliflər göndərilir.

Həmin nazirlik təqdim olunmuş təklifləri nəzərə alaraq, Penitensiar xidmətin saxlanması məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması üzrə Nazirlər Kabinetinə təqdim edilən müvafiq qanun layihəsinə təkliflər verir. Ayrılmış vəsait müvafiq müddətlərə bölünməklə xərclər smetasına daxil edilir və Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla təyinatı üzrə istifadə olunur.

*29-cu bənd üzrə (məhkumların ictimai faydalı əməyə cəlb edilməsi üçün yeni istehsalat sahələrinin yaradılması);*

Məhkumların məşğulluğunun təmin edilməsi, onların əməyə cəlb edilməsi diqqətdə saxlanılmaqla bu istiqamətdə ötən dövrdə tədbirlər davam etdirilmişdir. 2014-cü ilin beş ayı ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə 20,6% çox məhkum əməyə cəlb olunmuşdur. Əməyə cəlb olunmuş məhkumların 1148 nəfəri istehsalat, fərdi əmək və kənd təsərrüfatında, 1832 nəfəri təsərrüfat və məişət xidməti işlərində çalışmışlar.

Eyni zamanda Avropa Komissiyası ilə birgə həyata keçirilən "Ədliyyə sahəsində islahatlara dəstək Proqramı" çərçivəsində 16 cəzaçəkmə və 4 məntəqə tipli cəzaçəkmə müəssisəsində əlavə iş yerlərinin yaradılması məqsədilə yeni istehsal sahələrinin təşkili, köhnə avadanlıqların təmiri və müasir avadanlıqların quraşdırılması ilə bağlı tədbirlər həyata keçirilmişdir.

Cəzaçəkmə müəssisələrinə 200 adda dəzgah və alətlər verilmiş, məntəqə tipli cəzaçəkmə müəssisələri üçün 2 traktor və 6 qoşqu alınmışdır. Hazırda 10 cəzaçəkmə müəssisəsində fərdi əmək sahələrinin dəzgah və alətləri, 4 cəzaçəkmə müəssisəsinin tikiş maşınları, 1 cəzaçəkmə müəssisəsinin mebel istehsalı dəzgahları yenilənərək istifadəyə verilmiş, 11 saylı cəzaçəkmə müəssisəsində sellofan istehsalına başlanmışdır. 2, 5 və 10 saylı cəzaçəkmə müəssisələrində müvafiq olaraq karton qutu, tamet və dəmir tar istehsalı sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Istixanaların yaradılması məqsədilə işlər görülmüş, bir sıra müəssisələrdə müvafiq kənd təsərrüfatı sahələri artıq yaradılmış, digər müəssisələrdə onların təşkili imkanları öyrənilmiş və tədbirlər müəyyən edilmişdir.

**MTN** tərəfindən MPM-in hesabatda qeyd olunan təklif və tövsiyələrinin aidiyyəti üzrə öyrənilməsi, çatışmazlıqların aradan

qaldırılması, irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi istiqamətində görülən tədbirlər barədə məlumatların təqdim olunması haqqında məsələyə baxılmışdır.

Hesabatda Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti Saxlama Yeri və İstintaq Təcridxanasının fəaliyyəti ilə bağlı təsvir edilən hallara dair əlavə şərh verilməmişdir

*30 və 31-ci bəndlərdə (MTN tərəfindən müvafiq əməkdaşların maariflədirilməsi işinə MPQ üzvlərinin də cəlb edilməsi; MSY və İT-də saxlanılan şəxslərin psixoloq yardımından istifadəsinin təmin edilməsi);*

MTN-ə münasibətdə nəzərdə tutulmuş tövsiyələrin həyata keçirilməsi ilə əlaqədar bildirilmişdir ki, əməkdaşların hüquqi maaarifləndirilməsi işinə MPQ üzvlərinin cəlb olunması məsələsinə baxılması mümkün sayılır, həmçinin saxlanılan şəxslərin zərurət yarandığı hallarda psixoloq yardımı ilə təmin olunmasında MTN poliklinikasının müvafiq ixtisaslı mütəxəssislərindən istifadə olunur.

**MN** tərəfindən MPM-in hesabatda qeyd olunan aidiyyəti təklif və tövsiyələri öyrənilmiş və bildirilmişdir ki, hesabatda qeyd olunan çatışmazlıqların aradan qaldırılması, irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi istiqamətində işlər həyata keçirilir. Belə ki, hesabatda qeyd olunan 133 saylı intizam xarakterli hərbi hissədə qaz xəttinin çəkilməsi və Lənkəran Qarnizonu Hərbi Polisinin Hauptvaxtında təmir işlərinin başa çatdırılması məqsədi ilə müvafiq tədbirlər davam etdirilir.

**DMX** tərəfindən MPM-in fəaliyyətinə dair 2013-cü ilin hesabatında göstərilən tövsiyələrə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Yevlax şəhər qanunsuz miqrantların saxlanılması mərkəzinin işçiləri üçün birgə maarifləndirmə tədbirlərinin təşkil edilməsinə hazır olunduğu bildirilmişdir.

## BÖLMƏ 3.

## HÜQUQİ TƏHLİL

Həyata keçirilən hüquqi təhlil işinin səmərəli təşkil olunması Müvəkkilin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu və ya digər şəkildə azadlıqdan məhrum edilmiş şəxslərin maraqlarına toxunan normaların hüquqi təhlil nəticəsində istər qanunverici, istərsə də təşkilati məsələlər üzrə işlənib hazırlanan təklif və tövsiyələr Müvəkkil tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və əsas etibarilə öz müsbət həllini tapır.

Ötən illərlə müqayisədə 2014-cü ildə işgəncələrin qarşısının alınmasının daha səmərəli təmin edilməsi məqsədi ilə mövcud normativ-hüquqi bazanın, Müvəkkilin də təklifləri nəzərə alınmaqla təkmilləşdirilməsi mühüm amillərdən hesab oluna bilər.

Milli İnsan Hüquqları təsisatlarının müstəqilliyinin təmin olunması baxımından Azərbaycan Müvəkkili hakimiyyətin hər hansı bir qoluna aid deyil (qanunvericilik, icra, məhkəmə) və aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında müstəqil fəaliyyət göstərir.

Ədliyyə sistemində aparılan hüquqi islahatlar, eyni zamanda cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər tərəfimizdən müsbət qiymətləndirilir, eyni zamanda bu sahədə işlərin davam etdirilməsinə ehtiyac vardır.

Müvəkkil MPQ tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində, o cümlədən Müalicə Müəssisəsində həyata keçirdiyi başçəkmələrin nəticəsində aşkar edilmiş problemlərin həlli ilə əlaqədar bir neçə təklif və tövsiyələr irəli sürmüşdür.

PX-nin Müalicə Müəssisəsində müalicə alan şəxslərin informasiya almaq hüququ ilə bağlı araşdırma zamanı məlum olmuşdur ki, yataq xəstəsi olan məhkumlar palatalarda televizorun olmaması səbəbindən bu hüquqdan istifadə edə bilmirlər. Belə ki, müəssisədə məhkumların televiziya verilişlərinə baxması üçün yalnız xüsusi otaqlarda bu imkan mövcuddur. Penitensiar Xidmətin Müalicə Müəssisəsində və İxtisaslaşdırılmış Müalicə Müəssisəsinin palatalarında televizorların quraşdırılması tövsiyə olunur.

Məhkumların yazışmaları ilə bağlı araşdırma zamanı bir çox hallarda məhkumların müdafiəçi və ya qanuni əsaslarla hüquqi yardım göstərən digər şəxslərə, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara və Müvəkkilə göndərdikləri müraciətlərin, eləcə də həmin orqanlardan aldıqları cavabların senzuradan keçirilərək konfidensiallığın pozulduğu müəyyən edilmişdir. Xüsusən Həbsxanada cəzaçəkən ömürlük məhkumlar onların Ombudsmanla yazışmalarına nəzarət edildiyini, buna sübut olaraq onlara gələn cavab məktublarının qeydiyyatdan keçirilərək ştamp vurulduğunu, cavabların surətlərinin şəxsi işlərinə əlavə edildiyini və bu barədə onlara müvafiq jurnalda imza etdirildiyini bildirmişlər.

Qeyd edilən məsələ araşdırılarkən belə halların yalnız Həbsxanada deyil, eyni zamanda bir sıra cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında da mövcud olduğu müəyyən edilmişdir. Müvəkkilin ünvanına penitensiar müəssisələrdən daxil olmuş müraciətlərin əksəriyyəti müəssisə rəislərinin imzaladığı müşayiət məktubu ilə daxil olur, təqsirləndirilən şəxsə və ya məhkuma göndərilən bağlı zərfdə olan məktub isə açılaraq məhkuma tanış olması ilə bağlı imza etdirildikdən sonra onların şəxsi işinə əlavə olunur.

Bu kimi hallar "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 8.5-ci maddəsinin, Cəzaların İcrası Məcəlləsinin 83.2 və 83.5-ci maddələrinin tələblərinin pozulmasına səbəb olur. Məsələ ilə əlaqədar verilmiş təklif ondan ibarətdir ki, müəyyən müddətə və ya ömürlük azadlıqdan məhkum edilmiş şəxslərin müdafiəçi və ya qanuni əsaslarla onlara hüquqi yardım göstərən digər şəxslərə, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara və İnsan hüquqları üzrə müvəkkilə göndərdikləri müraciətlərin, eləcə də həmin orqanlardan aldıqları cavabların senzuradan keçirilməsi məsələsinin araşdırılması, gələcəkdə bu kimi hallara yol vermənin qarşısının alınması üçün tədbirlərin görülməsi zəruridir.

Sosial müavinətlərin alınması ilə bağlı araşdırmalar zamanı məlum olmuşdur ki, məhkumların bir hissəsində şəxsiyyəti təsdiq edən sənədinin olmaması səbəbindən onlar bu hüquqdan istifadə edə bilmirlər. Tərəfimizdən aparılmış araşdırma zamanı Azərbaycan Respublikasının vətəndaşları olan məhkumların əksər hissəsinin ümumiyyətlə şəxsiyyət vəsiqəsinin olmadığı müəyyən edilmişdir. Məsələ ilə əlaqədar Azərbaycan Respublikasının vətəndaşının şəxsiyyət vəsiqəsi olmayan məhkumların vəsiqə ilə təmin edilməsi məqsədi ilə müvafiq qurumlar qarşısında məsələ qaldırılmışdır (qeyd edilən məsələ ilə əlaqədar Daxili İşlər Nazirliyinə, ASAN xidmətə müraciət edilmişdir).

Xüsusi vasitələrin tətbiqi ilə bağlı həm penitensiar müəssisələrdə aparılmış monitorinqlərin, həm də qanunvericiliyin təhlilinin nəticəsi olaraq belə qənaətə gəlmək mümkündür ki, bu vasitələrin tətbiqi zamanı sui-istifadə hallarına yol verilməsi imkanları mövcuddur. Bu, onların tətbiqi ilə bağlı detallı normativ tənzimləmənin məhdudluğu ilə əlaqədardır və son nəticədə saxlanılan şəxslərin pis rəftar və ya cəzaya məruz qalma riskini artıra bilər. Tərəfimizdən təklif olunmuşdur ki, “Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında” Təlimatda xüsusi vasitənin tətbiq edilməsi zamanı penitensiar müəssisə əməkdaşlarının vəzifələrinin təsbit olunmasına, eyni zamanda bu vasitələrin tətbiqi qaydalarının BMT-nin Məhbuslarla Minimal Standart Davranış Qaydalarının 33-cü bəndinə, Avropa Penitensiar Qaydalarının 68.2 və 68.3-cü bəndlərinə, eyni zamanda Avropa İşgəncələr Komitəsinin standartlarına uyğun təkmilləşdirilməsinə ehtiyac vardır. Bundan başqa, nəzərə çatdırılmalıdır ki, bir sıra hallarda məhkumlara vəkillərlə, habelə belə yardımı göstərmək hüququna malik olan digər şəxslərlə görüş

verilməsində maneələrin yaradılması, hüquqi yardım üçün müraciət edən şəxslə vəkilin arasında bağlanmış müvafiq müqavilənin olmasına baxmayaraq Penitensiar Xidmətdən icazə məktubunun tələb edilməsi ilə bağlı müraciətlər narahatlıq doğurur. Bu kimi halların yoxlanılması və aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi də zəruridir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin qərarı ilə təsdiq ediləcək "İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında müvəqqəti əsasnamə", habelə "İnzibati həbs olunanların saxlanılma məntəqələrində müvəqqəti daxili intizam qaydaları" layihələrinə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında baxılmışdır.

Həmin layihələrə dair 58 əlavə və dəyişikliklərdən ibarət təkliflər paketi hazırlanaraq DİN-ə göndərilmişdir.

DİN-nin 11 iyun 2014-cü il tarixli, Q14-001-14 nömrəli qərarı ilə adıçəkilən əsasnamə və qaydalar təsdiq edilmişdir.

Qanunvericilikdə həyata keçirilmiş daha bir mütərəqqi addımı isə 28 oktyabr 2014-cü il tarixli qanunla “Polis haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə edilmiş dəyişikliyi hesab etmək olar. Həmin dəyişikliyə əsasən, yalnız müvafiq icra hakimiyyəti orqanı (DİN) tərəfindən siyahısı müəyyən olunan polis əməkdaşları elektroşokdan istifadə edə bilərlər.

Əvvəlki qanunvericiliyə görə elektroşokdan istifadədə məhdudiyyət yox idi. İdarə və bölmə rəislərinin, komandirlərin icazəsi ilə hər bir polis nəfəri elektroşokdan istifadə edə bilərdi.

Dəyişikliyə görə, elektroşok vasitələri insan həyatına və sağlamlığına real təhlükə yaradan basqın və ya digər zorakılıq edildikdə, qiyam və ya kütləvi iğtişaşlar baş verdikdə, yaşayış binalarına, habelə müəssisələrin, idarələrin, təşkilatların binalarına qrup halında basqın dəf edildikdə, tutulan şəxs tərəfindən silahlı müqavimət göstərildikdə və ya göstəriləcəyinə ehtimal etməyə kifayət qədər əsas olduqda istifadə oluna bilər.

Bununla yanaşı, cinayət törədilməsində şübhəli bilindiyinə görə tutulmuş, barəsində həbs qətimkan tədbiri seçilmiş və ya müəyyən müddətə azadlıqdan məhrumetmə, yaxud ömürlük azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxsin həbsdən qaçmasının qarşısını aldıqda, habelə bu şəxsin qanunsuz azad edilməsi üçün kənar şəxslər tərəfindən güc işlədildikdə elektroşok vasitəsinin istifadəsi mümkün olacaqdır.

# BÖLMƏ 4.

# HÜQUQİ MAARİFLƏNDİRMƏ

MPM-in fəaliyyətinin effektivliyinin artırılmasında, o cümlədən işgəncə və pis rəftar hallarının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb etməsi nəzərə alınaraq, hüquqi maarifləndirmə işinin təşkili Azərbaycan MPM-nin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Yeri gəlmişkən, FP işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirilərin birləşdirilməsini tələb etdiyini xatırlayır.[18]

Əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də hüquqi maarifləndirmə işi müxtəlif istiqamətlərdə aparılmış, həm MPQ üzvləri, həm saxlama yerlərinin işçiləri, həm də belə yerlərdə saxlanılan şəxslər üçün təşkil edilmişdir.

Fəaliyyət dövrü ərzində MPQ üzvlərinin maarifləndirilməsinə də hər zaman diqqət ayrılmışdır. MPM-in işinin təkmilləşdirilməsində, preventiv qrupun üzvlərinin bacarıqlarının artırılmasında nüfuzlu ekspertlərin cəlb olunduğu müvafiq təlimlərin, treninq və seminarların keçirilməsinin xüsusi əhəmiyyəti vardır. Bu xüsusda MPQ özü də təlim və treninqlərdən faydalanmağa çalışmışdır.

29 yanvar 2014-cü il tarixdə Avropa İttifaqının TAİEX (Texniki yardım və informasiya mübadiləsi) layihəsi çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi iştiqamətində aparılan işlərin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından olan ekspert xanım Şeron Volkerin iştirakı ilə "Penitensiar müəssisələrdən cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası" mövzusunda keçirilmiş seminarda MPQ üzvü iştirak etmişdir. Seminarda məqsəd penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası sahəsində ölkəmizdə aparılan işlərlə tanışlıq və yerli mütəxəssislərin bu sahədə beynəlxalq təcrübə ilə tanış edilməsi, qeyd olunan şəxslərin sosial adaptasiyasına yardım göstərilməsi məsələsinə cəmiyyətin diqqətini cəlb etmək olmuşdur.

Hüquq-mühafizə orqanları əməkdaşlarının hüquqi maarifləndirilməsinin, insan hüquqlarının daha səmərəli müdafiəsinə töhfəsini nəzərə alaraq, belə tədbirlərin və görüşlərin mütəmadi keçirilməsi qərara alınmışdır.

2014-cü il 24 may tarixində Azərbaycan Respublikasının miqrasiya orqanları işçiləri üçün "Azərbaycan Respublikasının Konstitusiyası, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət" mövzusunda keçirilməsi nəzərdə tutulan seminarda Ombudsman təsisatının nümayəndəsi tərəfindən seminar keçirilmişdir.

2007-ci il avqust ayından Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, YUNİSEF, ATƏT-in Bakı Ofisi və Uşaq Hüquqları üzrə QHT Alyansı arasında bağlanmış Əməkdaşlıq Memorandumuna əsasən yetkinlik yaşına çatmayanlar

---

[18] "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın Fakültativ Protokolunun Preambulası

arasında profilaktik işin təkmilləşdirilməsi və uşaqlar arasında cinayətkarlığın önlənməsi məqsədilə xüsusi pilot layihə həyata keçirilir.

Bu memorandum əsasında 15 sentyabr 2007-ci il tarixində "Ümidli Gələcək" Gənclər Təşkilatı, Uşaq Hüquqları üzrə QHT Alyansı, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, YUNİSEF, Böyük Britaniya səfirliyi, ATƏT-in Bakı Ofisi və Böyük Britaniyanın Esseks Universiteti ilə birgə Qanunla ziddiyyətdə olan Uşaq və Gənclərin Sosial Reabilitasiya Mərkəzi yaradılmışdır. Bu günə kimi mərkəzdə cinayət və hüquq pozuntusu törətmiş 430-dan çox uşaq və gənc reabilitasiyaya cəlb edilmişdir. Mərkəzin fəaliyyətinin istiqamətləndirilməsi və əlaqələndirilməsi məqsədilə, habelə mərkəzdə reabilitasiya keçən və mərkəzə cəlb olunması planlaşdırılan uşaqların işləri, onlara yönəlik fərdi qayğı və müdafiə planlarının müzakirəsi məqsədilə YUNİSEF, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyinin Deinstitusionalizasiya və Uşaqların Müdafiəsi İdarəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, müvafiq yerli idarələrin nümayəndələrindən, habelə Ombudsman təsisatı, İcra Hakimiyyətləri yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyalar və rayon polis idarələrinin nümayəndələrindən ibarət Koordinasiya Şurası da fəaliyyət göstərir

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb baş idarəsinə yeni işə qəbul olunmuş əməkdaşların hüquqi biliklərə yiyələnməsi üçün Ədliyyə Akademiyasında 17.02.2014-cü il tarixdən 10.04.2014-cü il tarixədək icbari təlimin keçirilməsi nəzərdə tutulmuşdur. Tədris kursunun proqramında 12.03.2014-cü il tarixdə "Ombudsman institutu insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edir" mövzusunda mühazirənin tədris edilməsi Aparatın əməkdaşları tərəfindən həyata keçirilmişdir.

Bundan başqa, MPQ üzvü tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə orta rəis xidmətinə işə qəbul ediləcək namizədlər üçün 31.07.2014-cü il tarixdən 24.09.2014-cü il tarixədək təşkil edilmiş təlimlər çərçivəsində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu və vətəndaşların hüquq və azadlıqlarının qorunmasında onun rolu" mövzusunda mühazirə tədris edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarının Dövlət Dəstəyi Şurasının layihəsi çərçivəsində "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin "Əlil məhbuslar və onların ailə üzvlərinin sosial hüquqlarının təmin edilməsinə ictimai dəstək" adlı layihəsinin təqdimatına həsr edilmiş Mətbuat Konfransında MPQ-nin rəhbəri iştirak etmişdir. Layihənin əsas məqsədinin cəzaçəkmə müəssisələrində cəza çəkən əlil məhbusların və onların xüsusi qayğıya ehtiyacı olan ailə üzvlərinin həyatda rastlaşdıqları sosial problemlərin araşdırılması və aidiyyəti dövlət təşkilatları vasitəsilə hüquqlarının təmin edilməsinə, eyni zamanda əlil məhbusların həbsdən azad olunduqdan sonra həyata

adaptasiya etmələrinə dəstək olmaq, o cümlədən, bu istiqamətdə onlarla maarifləndirmə işi aparmaqdan ibarət olduğu bildirilmişdir.

Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Polis Akademiyasında "BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolunun tələblərindən irəli gələn məsələlər və Milli Preventiv Mexanizmin fəaliyyəti" mövzusunda seminar-müşavirə keçirilmişdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının işgəncələrin qarşısının alınması şöbəsinin müdiri, Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) rəhbəri Vüqar Məhərrəmov tədbirdə məruzə ilə çıxış etmişdir. V.Məhərrəmov adıçəkilən Konvensiya, bu beynəlxalq sənədin Fakültativ Protokolu, Azərbaycanda Milli Preventiv Mexanizmin (MPM) fəaliyyəti barədə danışmış, ölkəmizdə FP-nin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən Ombudsmanın MPM qismində müəyyən edildiyini diqqətə çatdırmışdır. Məruzəçi MPQ üzvlərinin azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən müvəqqəti saxlanma yerlərinə başçəkmələr həyata keçirilməsi, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiqi ilə bağlı tədbirlər haqqında da məlumat vermiş, seminar-müşavirə iştirakçılarının, habelə rayon polis idarə və şöbələrindən olan virtual izləyicilərin suallarını cavablandırmışdır. Seminar-müşavirədə Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik, Baş İstintaq və Təhqiqat, Daxili Təhqiqatlar idarələrinin, Polis Akademiyasının məsul əməkdaşları iştirak etmişlər. Tədbirə respublikanın bütün şəhər, rayon polis idarələri və şöbələrində quraşdırılmış virtual mərkəz vasitəsilə əməliyyat, xidmət üzrə rəis müavinləri və şəxsi heyət üzrə rəis köməkçiləri qatılmış, canlı bağlantı vasitəsi ilə fikir və təcrübə mübadiləsi aparılmışdır.

Yekunda hüquq-mühafizə orqanları əməkdaşlarının hüquqi maarifləndirilməsinə, insan hüquqlarının daha səmərəli müdafiəsinə töhfəsini nəzərə alaraq, belə tədbirlərin və görüşlərin mütəmadi keçirilməsi təklif edilib.

Hüquqi maarifləndirmə sahəsində görülən əhəmiyyətli işlərdən biri də Ombudsman təsisatının "Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi" İctimai Birliyi ilə birgə "Cəzaçəkmə müəssisələrindən buraxılan gənclərin sosial-psixoloji reabilitasiyası" layihəsi çərçivəsində 2014-cü ilin sentyabr-oktyabr ayında Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 10 cəzaçəkmə müəssisəsində "Penitensiar müəssisələrdən cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası" mövzusunda gənc məhkumlar üçün təlim kursları olmuşdur. Kurslara məhkumlarla yanaşı müvafiq dövlət orqanlarının və QHT-lərin nümayəndələri qatılmışlar. İştirakçılara çoxsaylı hüquqi nəşrlər, o cümlədən "Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası: qanunvericilik", "Uğurlu karyera yolu", "Cəzaçəkmə müəssisələrindən azad edilən gənc məhkumların hüquq və vəzifələri" adlı nəşrlər və bukletlər paylanmışdır.

Avropa Komissiyasının dəstəyi ilə BMT-nin Uşaq Fondu (YUNİSEF) və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən imzalan-

mış birgə iş planına əsasən, MPQ üzvləri və cəlb olunmuş uşaq hüquqları üzrə ekspertlər tərəfindən ölkənin Cəlilabad, Gəncə, Şəki və Quba regionlarında "Yuvenal ədliyyə aspektində uşaq hüquqlarının müdafiəsi: beynəlxalq və milli standartlar" mövzusunda təlimlər keçirilmişdir.

Təlimlərə ekspert qismində "Hüquq Dünyası Hüquqi Təbliğat" ictimai birliyinin rəhbəri, uşaq hüquqları üzrə ekspert Nazir Quliyev cəlb edilmişdir.

Sözügedən təlimlərdə ümumilikdə 86 nəfər, o cümlədən prokurorluq orqanlarının 24, polis orqanlarının 50 əməkdaşı, habelə Ombudsmanın regional mərkəzlərinin 12 əməkdaşı iştirak etmişdir.

Təlimlərlə yanaşı, Daxili İşlər Nazirliyinin 20 rayon polis şöbəsi üzrə Müvəqqəti Saxlama Yerlərinə, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına, 2 saylı İstintaq Təcridxanasına, Şəki Penitensiar Kompleksinə, Uşaq Tərbiyə Müəssisəsinə, Təhsil Nazirliyinin Quba Xüsusi Peşə Məktəbinə, Quba şəhər valideyn himayəsindən məhrum olmuş uşaqların internat evinə, Lənkəran və Lerik şəhərlərində yerləşən internat məktəblərinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əqli qüsurlu uşaqlar üçün 3 və 7 saylı internat evlərinə, Bakı Şəhər İcra hakimiyyətinin 1 və 2 saylı uşaq evlərinə və Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Uşaq evinə baxış keçirilmiş və orada saxlanılan uşaqlarla bağlı vəziyyət qiymətləndirilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

Məlum olduğu kimi, Konstitusiya Qanununa əsasən, Müvəkkil fəaliyyət istiqamətinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq işinin təşkili Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biridir.

2014-cü ildə də dövlət və yerli özünüidarəetmə orqanları, yerli vətəndaş cəmiyyəti qurumları, KİV, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili uğurla davam etdirilmişdir.

Ötən dövr ərzində Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır.

2014-cü ildə bu və ya digər tədbirdə edilən məruzələrlə yanaşı, KİV-də başçəkmələrlə əlaqədar 36, maarifləndirmə və digər tədbirlərlə əlaqədar 40 olmaqla, cəmi 76 mətbuat açıqlaması yayımlanmışdır.

Ümumilikdə 2009-2014-cü illər ərzində yayımlanmış 627 mətbuat açıqlamasından 379 başçəkmə, 248 isə maarifləndirmə xarakterli və digər tədbirlərlə əlaqədar olmuşdur.

Mətbuat açıqlamaları, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına da göndərilmişdir.

Qeyd olunduğu kimi, 2014-cü ildə Azərbaycan MPM-i işgəncələrin qarşısının alınması sahəsində dövlət orqanları, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları, KİV-lə səmərəli əməkdaşlıq əlaqələrini davam etdirmişdir.

## BÖLMƏ 6.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2014-cü ildə Müvəkkil MPM qismində beynəlxalq əlaqələrə xüsusi diqqət yetirmiş, bu sahədə mövcud əməkdaşlıq daha səmərəli və effektiv həyata keçirilmişdir. Müvəkkilin Avropa Şurası, ATƏT, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər qurumlarla, eyni zamanda, xarici həmkarları ilə əlaqələri genişləndirməsi, aparılan fikir və təcrübə mübadiləsi MPM kimi fəaliyyətində faydalı olmuşdur. MPM qismində beynəlxalq əlaqələri işgəncələrin qarşısının alınması sahəsində müxtəlif görüşlərin, birgə tədbirlərin təşkili, Müvəkkil və MPM qrupu üzvlərinin beynəlxalq tərdbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadiləsi istiqamətlərində həyata keçirilmişdir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ofisinin Milli İnsan Hüquqları İnstitutları və regional mexanizmlər bölməsi rəhbərinin müavini Afərin Şahidzadənin 2014-cü ilin iyun ayında Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 10 saylı Cəzaçəkmə müəssisəsində keçirilən başçəkmədə Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri ilə birgə iştirakı Azərbaycan MPM-nin beynəlxalq əməkdaşlığın bir nümunəsidir. Keçirilən başçəkmə çərçivəsində A.Şahidzadə Milli Preventiv Qrupun iş təcrübəsi, başçəkmə metodologiyası ilə tanış olmuşdur.

MPQ üzvlərinin həyata keçirdiyi monitorinq ekspert tərəfindən yüksək qiymətləndirilmişdir.

Bundan başqa, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyanın həyata keçirilməsinə dair Azərbaycan Respublikasının dördüncü dövri məruzəsinin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin 3050 nömrəli, 6 avqust 2013-cü il tarixli Sərəncamı ilə Xarici işlər nazirinin rəhbərlik etdiyi müvafiq tərkibli işçi qrupu tərəfindən hazırlanmış "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyanın həyata keçirilməsinə dair Azərbaycan Respublikasının dördüncü dövri məruzəsi layihəsinə CAT-ın 2007-ci ildə qəbul etdiyi və Azərbaycan Respublikasının 2011-ci ildə qoşulduğu məruzələrin təqdim edilməsi üzrə yeni prosedur qaydalarına uyğun olaraq müvafiq əlavələr edilərək İnsan hüquqları üzrə müvəkkil institutunun fəaliyyətinin müstəqilliyinin təmin edilməsi və institutun işgəncələrin qarşısının alınması üzrə milli preventiv mexanizm kimi fəaliyyəti barədə, həmçinin institut tərəfindən alınmış və tədqiq edilmiş işgəncə və qəddar davranış üzrə şikayət ərizələri barədə məlumatlar hazırlanaraq müvafiq ünvanlara göndərilmişdir.

MPQ üzvləri bu il beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan bir sıra tədbirlərdə və xarici həmkarlarla görüşlərdə iştirak edərək faydalı biliklərini təkmilləşdirmiş və bir sıra yeni biliklər əldə etmişlər.

Ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı cənab Nils Mujniyeks ilə Ombudsman Aparatında görüş keçirilmişdir. Görüş

zamanı Azərbaycan Ombudsman İnstitutunun BMT-nin Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi tərəfindən hələ 2006-cı ildə "A statusu" ilə akkreditasiya olunması, 2012-ci il də Müvəkkilin yenidən akkreditasiya prosesindən keçərək "A" statusunu saxlaması və bununla da insan hüquqları sahəsində fəaliyyətini Paris Prinsiplərinə tam uyğun apararaq, müstəqil fəaliyyət göstərməsinin sübut edildiyi vurğulanmışdır.

Komissarın həbs olunmuş təqsirləndirilən şəxslərlə bağlı suallarına cavab olaraq, tərkibində həkimin də olduğu MPQ-nin müntəzəm şəkildə müvafiq müəssisələrə başçəkmələr həyata keçirdiyi vurğulanmışdır. Müvəkkilin və əməkdaşlarının həmin şəxslərə dəfələrlə baş çəkdiyi, saxlanma şəraitini, onlara qarşı rəftarı, səhhətlərini, problemlərini öyrəndiyi, Ombudsmanın öz səlahiyyətləri çərçivəsində müvafiq orqanlara müraciət edərək həllində yardımçı olduğu bildirilmişdir.

Görüşdə Ombudsman Aparatının əməkdaşları ölkəmizdə qətimkan tədbirlərinin seçilməsi ilə bağlı mövcud qanunvericiliyin tələbləri barədə məlumat vermiş, "İnsan hüquqlarının və əsas azadlıqları müdafiəsi haqqında" Avropa Konvensiyasının inplementasiyası ilə əlaqədar əhalinin müxtəlif qrupları, o cümlədən saxlanılan və təqsirləndirilən şəxslər üçün maarifləndirmə tədbirlərinin keçirildiyini diqqətə çatdırmışlar.

Müvəkkilin qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təklifləri nəzərə alınmaqla, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edildiyi və bu qanunun Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərində hüquqlarının təmin edilməsi ilə bağlı münasibətləri tənzimlədiyi vurğulanmışdır.

N.Mujniyeks səmərəli görüş və ətraflı məlumat üçün Müvəkkilə təşəkkürünü bildirmişdir.

Qeyd olunduğu kimi, beynəlxalq əməkdaşlıq çərçivəsində təşkil olunan səfərlər xüsusi önəm kəsb edərək təcrübə mübadiləsi və yeni biliklərin əldə edilməsi baxımından əhəmiyyətli olmuş və ötən ildə də mütəmadi olaraq həyata keçirilmişdir.

Müvəkkilin Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi müdirinin müavini, Ombudsmanın Milli preventiv qrupunun üzvü Absələddin Əliyev 27 fevral 2014-cü il tarixdə Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində Avropa Birliyi və Avropa Şurasının birgə proqramı çərçivəsində "Penitensiar sistemdə pis rəftarla mübarizənin effektliyinin təmin edilməsi" mövzusunda regional konfransda iştirak etmişdir.

A.Əliyev tədbirdə çıxış edərək Azərbaycan Ombudsmanının İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm qismində gördüyü işlər, bu sahədə milli qanunvericilik, habelə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiqi ilə bağlı görülmüş tədbirlər, azadlıqdan məhrum etmə yerlərinə, o

cümlədən penitensiar müəssisələrə başçəkmələrin həyata keçirilməsi haqqında məlumat vermişdir. O, Azərbaycan MPM-nin təcrübəsini iştirakçıların diqqətinə çatdıraraq qanunvericiliyin, eyni zamanda saxlanılma şəraitinin təkmilləşdirilməsi ilə bağlı ötən müddət ərzində verilmiş təklif və tövsiyələr barədə konfrans iştirakçılarını məlumatlandırmış və sualları cavablandırmışdır.

Bundan başqa, 25 mart 2014-cü il tarixdə Ombudsmanın Milli Preventiv Qrupunun rəhbəri Vüqar Məhərrəmov Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində Avropa Birliyi və Avropa Şurasının birgə proqramı çərçivəsində "Penitensiar sistemdə pis rəftarla mübarizənin effektliyinin təmin edilməsi" mövzusunda yekun regional konfransda iştirak etmişdir.

2014-cü ilin aprel ayında Vyana şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) təşkilatçılığı ilə İşgəncələrin qarşısının alınmasında İnsan ölçüsünə dair əlavə iclas keçirilmişdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının İşgəncələrin qarşısının alınması şöbəsinin müdiri, MPQ-nin rəhbəri V.Məhərrəmov tədbirdə iştirak edərək FP-nin tələblərindən irəli gələn məsələlər və ölkəmizdə Ombudsmanın MPM qismində fəaliyyəti barədə məlumat vermişdir.

Azərbaycan MPM-nin nümayəndəsi MPQ üzvlərinin azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən müvəqqəti saxlanma yerlərinə, penitensiar müəssisələrə, psixiatriya xəstəxanalarına, sosial obyektlərə başçəkmələr həyata keçirməsi, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiqi ilə bağlı tədbirlər haqqında danışmışdır.

V.Məhərrəmov səfər çərçivəsində BMT-nin İşgəncələr və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza məsələləri üzrə xüsusi məruzəçisi X.Mendes, BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsinin sədri M.Evans, İşgəncələrin qarşısının alınması üzrə Assosiasiyasının baş katibi M.Tomsonla görüşmüş, fikir mübadiləsi aparılmışdır.

2014-cü ilin noyabr ayında Ombudsmanın İşgəncələrin qarşısının alınması şöbəsinin müdiri və Ombudsmanın Gəncə Regional Mərkəzinin rəhbəri, MPQ-nin üzvləri qismində Serbiya Respublikasının paytaxtı Belqrad şəhərində keçirilən Cənub-Şərqi Avropa ölkələrinin İşgəncələrin qarşısının alınması üzrə Birinci Forumunda və İşgəncə, qeyri-insani və pis rəftar hallarının aradan qaldırılması və cəzasızlıqla mübarizə üzrə Konfransda iştirak etmişlər. Hər iki tədbirdə Azərbaycan MPM-nin yaranma tarixi, bu sahəni tənzimləyən qanunvericilik aktları, Ombudsmanın MPM qismində fəaliyyəti, monitorinqlərin keçirilməsi, hesabatların hazırlanması və bu sahədə görülmüş işlər barədə iştirakçılar məlumatlandırılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirlərdə işgəncənin və qeyri-insani rəftar hallarının qarşısının alınması sahəsində preventiv tədbirlərin görülməsi, beynəlxalq standartlar, minimal davranış qaydaları, dövlətlə dialoqun aparılması, şəxsin öz iradəsi ilə tərk edə

bilmədiyi yerlərdə mütəxəssislərin iştirakı və digər məsələlər müzakirə edilmiş, daha sonra qruplarda müxtəlif sahələr üzrə diskussiyalar aparılmışdır.

Adıçəkilən tədbirlərdə BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsinin üzvləri, Avropa Şurasının Miqrasiya və İnsan Hüquqları Departamentinin, Avropa İşgəncələrə Qarşı Komitəsinin, Avropanın 10-dək Milli preventiv mexanizmlərinin nümayəndələri, yerli məhkəmələrin hakimləri və vətəndaş cəmiyyətinin üzvləri iştirak etmişlər.

# BÖLMƏ 7.

# TƏKLİF VƏ TÖVSİYƏLƏR

Müvəkkilin ötən dövr ərzində Milli Preventiv Mexanizm qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili onun səmərəli olduğunu deməyə əsas verir. Bu həm bilavasitə Milli Preventiv Mexanizmin gördüyü işlərin – preventiv başçəkmələrin, hüquqi maarifləndirmə tədbirlərinin, həmçinin də ölkədə aparılan köklü hüquqi islahatların məntiqi nəticəsi kimi qiymətləndirilə bilər.

Cəmiyyətdə hüquqi mədəniyyətin inkişafı, insanın nəinki işgəncəyə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmamaq, eləcə də digər hüquqlarının təmin olunması səviyyəsinin inkişafını şərtləndirir. Ötən dövrdə həyata keçirilmiş fəaliyyət ərzində bir çox təklif və tövsiyələrin irəli sürülməsi nəticəsində istər hüquq-mühafizə və cəzaları icra edən orqanların, istərsə də digər dövlət qurumlarının və vəzifəli şəxslərin insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşmişdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil azadlıqdan məhrum edilmiş şəxslərin cəmiyyətə reinteqrasiyasının uğurla gerçəkləşdirilməsi üçün bu prosesə ictimaiyyətin cəlb edilməsi işinin davam etdirilməsinə ehtiyac duyulduğunu vurğulayır. Məhkumların islah edilməsində əmək, din və tərbiyəvi üsullardan istifadə edilməklə tədbirlərin gücləndirilməsini zəruri hesab edir.

Qeyd edilməlidir ki, Müvəkkilin MPM qismində fəaliyyətinə dair əvvəlki hesabatlarında öz əksini tapmış, lakin hələ də həllini gözləyən tövsiyələri təkliflər sırasında təkrar göstərilmişdir.

2014-cü il üzrə azadlığı tam və ya qismən məhdudlaşdırılmış şəxslərin hüquqlarının səmərəli təmin edilməsi məqsədilə Müvəkkil aşağıdakıları təklif edir:

***Təşkilati məsələlərin həlli istiqamətində***

1. Həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinə üstünlük verilməsi;
2. Tutulmuş və ya həbs edilmiş şəxslərin barəsində olan məlumatların və görüntülərin məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan KİV-də yayımlanmasının qarşısının alınması;
3. DİN tərəfindən MSY-də saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qanunvericiliyin tələblərinə uyğun olaraq 24 saat ərzində İT-yə göndərilməsinə nəzarətin gücləndirilməsi;
4. DİN tərəfindən tutulmuş və ya həbs edilmiş şəxslərin 24 saat ərzində MSY-də ixtisaslı həkim tərəfindən ilkin tibbi müayinədən keçirilməsi işinə nəzarətin gücləndirilməsi;

5. DİN tərəfindən MSY-də saxlanılan şəxslərin kameradan çıxarılarkən və qaytarılarkən hərəkət jurnallarında aparılan qeydiyyatın təkmilləş-dirilməsi;
6. DİN tərəfindən müvafiq polis əməkdaşları arasında ”Həbsdə saxlanılan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi haqqında“ Azərbaycan Respublikası Qanununun geniş təbliğinin aparılması;
7. DİN tərəfindən MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində kameralarda olan elektrik lampalarının gecə vaxtı söndürülməsi və gecə işığının quraşdırılması;
8. DİN tərəfindən MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində saxlanılan şəxslərə gündəlik qəzetlərin verilməsi;
9. DİN tərəfindən MSY-də və İnzibati həbs olunanların saxlanma məntəqəsində şəxslərin dövlət hesabına maddi-məişət və gigiyenik vasitələrlə təmin olunması;
10. DİN tərəfindən MSY-lərdə saxlanılan şəxslərin telefonla danışıq hüququnun təmin edilməsi məqsədi ilə saxlanma yerlərinə telefon xətlərinin çəkilməsinin, şəhərlərarası və mobil telefonlara çıxış üçün müvafiq xidmətin aktiv etdirilməsinin təmin edilməsi;
11. ƏN tərəfindən bəzi CÇM-də yaranmış sıxlığın aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi;
12. ƏN tərəfindən Bakı şəhəri Zabrat qəsəbəsində inşa edilən yeni qadın cəzaçəkmə müəssisəsinin tikintisinin sürətləndirilməsi;
13. ƏN tərəfindən Bakı şəhəri Zabrat qəsəbəsində yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin tikintisinin sürətləndirilməsi;
14. ƏN tərəfindən Umbakı qəsəbəsində inşa edilən həbsxananın tikintisinin sürətləndirilməsi;
15. ƏN tərəfindən Gəncədə tikilən qarışıq rejimli CÇM-nin tikintisinin sürətləndirilməsi;
16. ƏN tərəfindən Müalicə Müəssisəsinin binalarının köhnə olması və bəzilərinin istismara yararsız olması səbəbindən yeni müəssisənin inşası məsələsinin sürətləndirilməsi;
17. ƏN tərəfindən 5 saylı CÇM-nin tibb-sanitar hissəsinin yeni bina ilə təmin olunması;
18. ƏN tərəfindən MTCM-lərin işinə nəzarətin gücləndirilməsi;
19. ƏN tərəfindən PX-in 3 saylı istintaq təcridxanasının tibb-sanitar hissəsində stasionar müalicə üçün palataların təşkil edilməsi;
20. ƏN tərəfindən intizam tənbehlərinin və xüsusi vasitələrin yalnız xüsusi zərurət olduğu hallarda tətbiq edilməsi və bu zaman sənədləşmənin ciddi aparılmasına və mütləq şəkildə məhkumun izahatının alınması məsələsinə Penitensiar Xidmət tərəfindən nəzarət edilməsi;
21. ƏN tərəfindən xüsusi ilə paytaxtdan kənar rayonlarda göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, eləcə də vəkillərin və hüquq məsləhətxnalarının sayının artırılması istiqamətində tədbirlər görülməsi;

22. ƏN tərəfindən saxlanılan şəxslərin penitensiar müəssisələrdən MSY-lərə (və əks istiqamətə) etap olunarkən bunun üçün nəzərdə tutulmuş müvafiq vaqonlarda sıxlığın və şəraitin qeyri-qənaətbəxş olmasını nəzərə alaraq bu sahədə infrastrukturun yenilənməsi;
23. ƏN tərəfindən bəzi məhkəmələrin gözləmə yerlərinin müasir tələblərə uyğunlaşdırılması;
24. ƏN tərəfindən saxlanılan şəxslərin və məhkumların saxlanılması üçün nəzərdə tutulmuş maliyyə vəsaitinin artırılması (o cümlədən qidalanma, tibbi yardım və dərman preparatları ilə təminatı) istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflərin verilməsi;
25. ƏN tərəfindən məhkumların fiziki iş qüvvəsinin sağlam əməyə istiqamətləndirilməsi yolu ilə islah edilməsinin əhəmiyyəti nəzərə alınaraq, onların ictimai faydalı əməyə cəlb edilməsi üçün yeni istehsalat sahələrinin yaradılması;
26. ƏN tərəfindən məhkumların yaşadığı ünvana yaxın ərazidə yerləşən müəssisələrdə cəza çəkmələri istiqamətində işlərin daha səmərəli aparılması;
27. ƏN tərəfindən bəzi cəzaçəkmə müəssisələrində su təhcizatının yaxşılaşdırılması istiqamətində işlərin görülməsi;
28. MTN tərəfindən müvafiq əməkdaşların maarifləndirilməsi işinə MPQ üzvlərinin də cəlb edilməsi;
29. MTN tərəfindən MSY və İT-də saxlanılan şəxslərin psixoloq yardımından istifadəsinin təmin edilməsi;
30. MN tərəfindən Hərbi polis idarəsinin yeni rəhbərliyi ilə MPQ arasında konstruktiv əlaqələrin qurulması;
31. MN tərəfindən mövcud standartlara cavab vermədiyi üçün təmirə bağlanılmış müəssisələrdə təmir işlərinin sürətləndirilməsi;
32. MN tərəfindən N saylı İntizam Xarakterli Hərbi Hissədə Cəzaların İcrası Məcəlləsinin 149-cu maddəsində nəzərdə tutulmuş hauptvaxtın və birnəfərlik kameraların tikilməsi;
33. MN tərəfindən N saylı İntizam Xarakterli Hərbi Hissənin və hauptvaxtların əməkdaşları üçün MPQ ilə birgə maarifləndirmə tədbirlərinin təşkili;
34. SN tərəfindən MPM-lə konstruktiv əlaqələrin qurulması;
35. SN tərəfindən 1 saylı Respublika Psixiatriya Xəstəxanasında Gerontologiya şöbəsində olan xəstə sıxlığının aradan qaldırılması;
36. SN tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla psixiatriya stasionarına yerləşdirilmiş şəxslərin saxlanılmasını tənzimləyən qaydaların hazırlanması;
37. SN tərəfindən stasionar müalicəyə ehtiyacı olmayan və yalnız sosial əlaqələrini itirməsi səbəbindən uzun müddət 1 saylı Respublika

Psixiatriya Xəstəxanasında qalan 350-dək şəxsin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan aidiyyəti sosial müəssisələrə köçürülməsi istiqamətində tədbirlər görülməsi;

**38.** SN tərəfindən Salyan Rayonlararası Psixiatriya Xəstəxanasında çalışan əməkdaşların maarifləndirilməsi istiqamətində tədbirlər görülməsi;

**39.** SN tərəfindən Salyan Rayonlararası Psixiatriya Xəstəxanasında saxlanılan şəxslərə münasibətdə yoluxucu xəstəliklərə (vərəm və s.) qarşı profilaktik tədbirlərin aparılması;

**40.** TN tərəfindən müvafiq müəssisələrin əməkdaşlarının əmək haqlarının artırılması istiqamətində tədbirlər görülməsi;

**41.** TN tərəfindən MPM-lə konstruktiv əlaqələrin inkişaf etdirilməsi;

**42.** TN tərəfindən Quba xüsusi peşə məktəbinin maddi şəraitinin təkmilləşdirilməsi və hesabatın müvafiq bölməsində göstərilmiş halların araşdırılması;

**43.** TN tərəfindən bir sıra internat məktəblərində müvafiq təmir işlərinin aparılması, həmçinin internat məktəblərinin məişət avadanlıqları ilə təminatının yaxşılaşdırılması;

**44.** ƏƏSMN tərəfindən MPM-lə daha konstruktiv əməkdaşlığın qurulması;

**45.** ƏƏSMN tərəfindən tabeliyində olan müəssisələrin maddi şəraitin təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi;

**46.** ƏƏSMN tərəfindən ”Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında“ Azərbaycan Respublikası Qanununa uyğun olaraq nazirliyin üzərinə düşən vəzifələrin icrası istiqamətində fəaliyyətinin təkmilləşdirilməsi;

**47.** ƏƏSMN tərəfindən cəzaçəkmə müəssisələrindən azad edilmiş, lakin daimi yaşayış yeri olmayan şəxslər üçün məşğulluq probleminin həlli üzrə mexanizmin hazırlanması;

**48.** ƏƏSMN tərəfindən məhkumlara əlillik təyin olunması istiqamətində fəaliyyətinin təkmilləşdirilməsi;

**49.** ƏƏSMN tərəfindən müvafiq müəssisələrdə saxlanılan şəxslərə göstərilən tibbi xidmətin keyfiyyətinin qənaətbəxş olmamasını və dərman ehtiyatının məhdud olmasını nəzərə alaraq müvafiq işlərin görülməsi, tibbi personalın artırılması və göstərilən xidmətin keyfiyyətinin yaxşılaşdırılması;

**50.** Dövlət Miqrasiya Xidməti tərəfindən Yevlax Şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin əməkdaşları üçün birgə maarifləndirmə tədbirlərinin təşkili.

## Əlavə 1.

## Statistik göstəricilər

***Diaqram 1. MPM-in başçəkmə həyata keçirdiyi müəssisələrin sayı***



*Diaqram 2. MPM-in 2014-cü ildə həyata keçirdiyi başçəkmələr*




*Diaqram 3. MPM-in 2014-cü ildə həyata keçirdiyi başçəkmələr (müəssisələr üzrə)*



*Diaqram 4. MPM-in həyata keçirdiyi başçəkmələr (illər üzrə)*




*Diaqram 5. MPM-in mətbuat açıqlamaları (illər üzrə)*



## Əlavə 2.

## İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın

## FAKÜLTATİV PROTOKOLU

### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

# I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk

etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi

iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən

sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMITƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

ı) zərurət olduqda, belə mexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ıı) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

ııı) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

ıv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi

tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

*Maddə 19*

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

*Maddə 20*

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

*Maddə 21*

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23***

Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

***Maddə 26***

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assamble-

yanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

***Maddə 28***

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

***Maddə 29***

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

***Maddə 30***

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

*Maddə 34*

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən

iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarix-li Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.

**"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokoluna dair Azərbaycan Respublikasının**

## BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).